ЭФФЕКТ ПЕРЕКЛЮЧЕНИЯ В СПЛАВАХ СИСТЕМЫ $TlInTe_2$ – $TlLnTe_2$

[1]Янушкевич К.И., [2]Зарбалиев М.М., [2]Сардарова Н.С., [2]Кулиева К.А., [2]Исмаилов М. Г., [2]Халилова Р.Д.
[1]Научно-практический центр НАН Беларуси по материаловедению
[2]Сумгаитский государственный университет, Сумгаит, Азербайджан
kazimir@ifttp.bas-net.by, zarbalievmm51@mail.ru

***Ключевые слова**: рентгенографические свойства, тетраэдр, пороговое напряжение, редкоземельные элементы , монокристалл, эффект переключения*

На основе исследования вольт-амперных характеристик сплавов TlInxLn1-xTe2 (0≤x≤1) показано, что все они обладают переключающими свойствами. Значение Vп.п не зависит от плотности тока, а пороговое напряжение не зависит от способа изготовления контактов и полярности включения.

В последнее время появилось значительное число работ, посвященных эффекту переключения в аморфных и кристаллических полупроводниках [1-5]. Согласно этим работам, средние характеристики аморфных переключателей таковы: пороговое поле $E_п$ - 10^5 в/см, время переключения $\tau \sim 10^{-6} - 10^{-10}$ сек, оптимальные толщины пленок $\sim 0{,}1 - 5$мкм, число переключений со стабильными параметрами $\sim 10^4 - 10^{12}$. Особое место занимают переключатели на основе «тетраэдрических» стеклообразных полупроводников. Эти переключатели обладают следующими преимуществами: работают независимо от полярности напряжения, дешевы, допускают возможность микроминиатюрного плёночного исполнения, оказываются не чувствительными к радиационному облучению [4]. Их недостаток – ограниченное число переключений – является общей проблемой такого рода устройств и временным препятствием для массового применения их в технике.

Особый интерес вызывает эффект переключения с памятью. Такой эффект наблюдали в стеклах $CdGe(As_xP_{i-x})_2$ и $ZnGeAs_2$ [3,5]. Он наступает при определенных значениях времени и амплитуды проходящего через элемент тока в открытом состоянии, а его механизм связан с обратимым фазовым переходом стекло→кристалл в токовом канале [4,5]. Поэтому с целью обеспечения высокой надежности работы элементов памяти рекомендуется обеспечить такой режим эксплуатации, когда реализуется более простой переход стекло→кристалл. Ячейки памяти, как показано в [2,3], позволяют поднять рабочую температуру и обеспечить проведение фотолитографии. Объектами исследования настоящей работы были сплавы системы $TlInTe_2$ - $TlLnTe_2$, где Ln-лантаноиды цериевой подгруппы



Вольт-амперные характеристики сплавов:
$TlIn_{0,9}Ln_{0,1}Te_2$(1), $TlIn_{0,7}Ln_{0,3}Te_2$(2), $TlIn_{0,5}Ln_{0,5}Te_2$(3),$lIn_{0,3}Ln_{0,7}Te_2$(4), $TlIn_{0,1}Ln_{0,9}Te_2$(5), Ln-Nd (а), Ce (б), Eu(в)

.

Методы получения этих сплавов подробно изложены в [1-5], физико – химические и рентгенографические свойства – в [3]. Сплавы получали из элементов прямым синтезом в эвакуированных до 10^{-4}мм рт. ст. кварцевых ампулах. Для синтеза были использованы Tl, In,Te ос.ч. и Ln чистотой 99,9% (содержание других р.з.м. ~ 0,08% , Fe ~0,001%, Ca ~ 0,004% , Cu ~ 0,01%). При синтезе сплавов типа $TlInX_2$ - $TlLnX_2$ печь, загруженную ампулами с исходными элементами, постепенно нагревали до 1300° С, в зависимости от состава выдерживали при этой температуре 5-7 ч, после чего со скоростью 10-15 град/ч охлаждали до комнатной температуры. В процессе синтеза обнаружено, что по мере увеличения количества редкоземельных элементов в сплавах следует повысить температуру их выдержки.

Исследования были проведены на монокристаллических образцах, полученных методами зонной плавки, и на тонких пленках. В результате получены материалы с концентрациями электронов $1{,}48 \cdot 10^{15}$ -$1{,}95 \cdot 10^{18}$ см$^{-3}$ и низкими значениями подвижности.

Вольт-амперные характеристики, снятые в статическом режиме, приведены на рисунке. Напряжение, которое устанавливается после переключения $V_{п.п}$, не зависит от плотности тока. Пороговое напряжение переключения также не зависело от способа изготовления контактов (контактами служили Cu или Fe) и от полярности включения. Площадь контактов составляла ~ 10^{-3} $см^2$. В процессе работы исследовали значительное число образцов, в результате чего оказалось, что все образцы обладают переключающими свойствами.

Параметры вольт-амперных характеристик сплавов изменяются в следующих интервалах: ток прямого перехода $I_{п.п}$ = *(0,02 - 0,65) а,* ток обратного перехода $I_{о.п}$=*(0,5 - 0,82) а,* напряжение прямого перехода $V_{п.п}$=(1,6 - 8) *в,* напряжение обратного перехода $V_{о.п}$= *(1.5-3) в.* С изменением состава сплавов $TlIn_xLn_{1-x}Te_2$ можно управлять параметрами переключения. В частности, по мере замещения атомов In атомами Ln происходит закономерное снижение $V_{п.п}$ и ухудшаются переключающие свойства исследуемых фаз.

Несмотря на нарушения состава в исследуемых фазах, наблюдавшиеся при создании термически напыленных слоев, процесс переключения происходит с теми же закономерностями, что и в монолитных образцах, а возможность создавать пленки с малыми толщинами позволяет снизить величины $V_{п.п}$.

Важным фактором является также то, что в исследуемых сплавах проводящее состояние может существовать длительное время, для стирания которого требуется короткий импульс сильного тока, т.е. исследуемые сплавы являются переключателями с памятью. Вид вольт-амперных характеристик и значения характерных параметров, в частности токов и напряжений прямого и обратного перехода, не завистях от числа повторений эксперимента.

В исследованных образцах проявились зависимости, характерные для участия в переключении теплового механизма. Это связано с ухудшением условий теплоотдачи в толстых образцах, что и обеспечивает развитие теплового переключения.

Переход образца из высокоомного состояния в низкоомное, как известно, возникает при тепловом пробое в результате резкого возрастания концентрации свободных носителей в зоне проводимости из- за сильного разогрева полупроводника протекающим током. По- видимому, именно этот эффект приводит к появлению отрицательного сопротивления в исследованных образцах, потому что фазовые переходы, являющиеся также причиной отрицательного сопротивления, исследуемых образцах отсутствуют.

Наблюдаемые сходства характеристик переключения различных образцов объясняется изоструктурностью всех исследуемых фаз.

Литература

1. Зарбалиев М.М. Твердые растворы $TlIn_{1-x}Yb_xS_2$. РАН, Неорганические материалы.2000.т.36.№5.с. 619-623
2. Зарбалиев М.М., Годжаев Э.М., Алиев Ф.Ф. Полупроводниковые халькоиндианаты таллия и сплавы на их основе с редкоземельными элементами. Материалы межд. науч. конф. Актуальные вопросы прикладной физики и энергетики. Сумгаит.2018.с.22-27.
3. Зейналов Г. И., Зарбалиев М.М., Сардарова.Н.С. Электрофизические свойства сплавов системы $TlInS_2$- $TlDyS_2$. РАН, Неорганические материалы.1999.т.35.№8.с. 913-916.
4. Зарбалиев М.М., Сардарова.Н.С. Исмаилов М.Г., Янушкевич К.И. Электрофизические свойства твердых растворов системы $TlInS_2 - TlYbS_2$. Перспективные материалы и технологии. НАН Беларусии. Материалы международного симпозиума. Минск. 2021.с.259-261
5. Zarbaliev M,M., Agayeva U.M. $TlIn_{1-x}YbxTe_2$ (0≤X≤0,10) solid solutions termoelectric properties. Journal of Baku engineerinq university-physics, 2020, V.4.N.1

XÜLASƏ

$TlInTe_2$ – $TlLnTE_2$ SİSTEMİNİN ƏRİNTİLƏRİNDƏ KEÇİRİCİ EFFEKTİ

Yanuşkeviç K.İ., Zərbəliyev M.M, Sərdarova N.S., Quliyeva K.Ə., İsmayılov M.Q., Xəlilova R. C.

Açar sözlər: *rentgenoqrafik xassələr, tetraedr, nadir torpaq elementləri, monokristal, keçid effekti*

TlInxLn1-xTe2 (0≤x≤1) ərintilərinin volt-amper xarakteristikasnın tədqiqi əsasında onların hamısının kommutasiya xassələrinə malik olduğu göstərilmişdir. Vp.p-I gərginliyinin qiyməti cərəyan sıxlığından asılı olmadıgı halda astana gərginliyinin qiyməti kontaktların hazırlanma texnologiyasından və onun mənbəyə qoşulma polyarizasiyasından asılı deyil.

SUMMARY
SWITCHING EFFECT IN ALLOYS OF THE $TlInTe_2$ – $TlLnTe_2$ SYSTEM
Yanushkevich K.I., Zarbaliyev M.M., Sardarova N.S., Guliyeva K.A., Ismayilov M. G., Khalilova R. J.

***Keywords**: rentgengraphic properties, tetrahedron, threshold voltage, rare earth elements, single crystal, switching effect*

Based on the study of the current-voltage characteristics of TlInxLn1-xTe2 ($0 \le x \le 1$) alloys, it is shown that all of them have switching properties. The value of Vp.p does not depend on the current density, and the threshold voltage does not depend on the way the contacts are made and the polarity of the inclusion.

$TlSe_{1-x}S_x$ (x=0,2) BƏRK MƏHLUL KRİSTALININ AC–KEÇİRİCİLİYİ

[1]Əliyeva N.Ə., [1]Məmmədov R.A., [2]Orucova A.A.
[1]*AMEA Radiasiya Problemləri İnstitutu,Bakı, Azərbaycan*
[2]*Mingəçevir Dövlət Universiteti, Minqəçevir, Azərbaycan*
ramil.m.azadoglu@gmail.com

***Açar sözlər**: ac- keçiriciliyi, yükdayışıyıcı, superion keçiricilik, elektrikkeçiricilik*

$TlSe_{1-x}S_x$ (x=0,2) bərk məhlulunda $25 \div 10^6$ Hs tezlik intervalında yükdaşıma prosesləri impedans spektroskopiya metodu ilə tədqiq olunmuşdur. Müəyyən edilmişdir ki, aşağı temperaturlarda 10^5 Hs tezlik intervalında elektrikkeçiriciliyi $\sigma_{ac}(f)$ qanununa tabe olur. Tezliyin sonrakı artması ilə elektrikkeciriciliyinin tezlikdən asılılığnda tərkibdən asılı olaraq keçiriciliyin əhəmiyyətli dərəcədə artdığını göstərir. Göstərilmişdir ki, tədqiq olunan bərk məhlullarda keçiriciliyinin bu davranışı ion komponentinin artması ilə bağlıdır.

$TlSe_{0,8}S_{0,2}$ bərk məhlul kristalının əmələ gəldiyi TlS və TlSe monokristalları A^3B^6 tip yarımkeçirici birləşmələr sinifinə aid olub zəncirvari (tetraqonal) modifikasiyada kristallaşır [1-4]. TlS monokristalı TlSe-ilə izostrukturdur və tetraqonal simetriyada kristallaşır. TlSe üçün qəfəs parametrləri $a = b = 8{,}020$ Å, $c = 6{,}7910$ Å, $Z = 4$, TlS kristalı üçün isə a=b=7,785 Å, c=6,802 Å, Z=8. [2,4]. $TlSe_{1-x}S_x$ (x=0.2) bərk məhlul nümunəsinin elektrikkeçiriciliyi $25 \div 10^6$ Hs tezlik intervalında impedans spektroskopiyası metodu ilə tədqiq edilmişdir. Elektrikkeçiriciliyinin tədqiqatları E7-25 rəqəmsal immitas ölçü cihazında aparılmışdır, ölçmənin dəqiqliyi 0,1 % -dir.

$TlSe_{0,8}S_{0,2}$ kristalının T = 300, 350 və 400 K temperaturlarda keçiriciliyin tezlikdən asılılıqları tədqiq edilmişdir. $TlSe_{0,8}S_{0,2}$ nümunəsinin təcrübi nəticələrdən alınmış σ(lgv) əyriləri iki hissəyə bölmək olar: aşağı temperaturda (300 və 350 K) və aşağı tezliklər $\nu < 10^3$ Hz. Bu zaman keçiriciliyin tezlik asılılığında zəif artma müşahidə edilir. $\nu > 10^5$ Hz -dən yuxarı tezliklərdə isə əhəmiyyətli dərəcədə dispersiya müşahidə olunur.

Məlumdur ki, A^3B^6 və $A^3B^3C^6_2$ qrup kristallarda keçiricilik Fermi səviyyəsi yaxınlığında lokallaşmış halların, fononların iştirakı ilə və dəyişən uzunluqlu sıçrayışın köməyi ilə otürülür [4]. T=300K-də $TlSe_{0,8}S_{0,2}$ bərk məhlul nümunəsinin elektrikkeçiriciliyinin tezlikdən asılılığında zəif dispersiya müşahidə olunur. $\sigma_{ac}(f)$ asılılığının xarakterik xüsusiyyətindən görünür ki, $f \sim 10^5$ Hs olduqda, bu asılılıq $\sigma_{ac} \sim f^{0.8}$ qanununa tabedir. Bu cür asılılıq isə Fermi səviyyəsi yaxınlığında lokallaşmış halların keçirilməsi ilə əlaqədardır.

$TlSe_{0,8}S_{0,2}$ kristalının yüksək temperaturlarda (350 K, 400 K temperaturlarda) elektrikkeciriciliyinin tezlikdən asılılığnda tərkibdən aslı olaraq keçiriciliyin və dispersiyanın əhəmiyyətli dərəcədə artdığını göstərir. Tədqiq etdiyimiz bərk məhlul kristalında keçiriciliyinin bu davranışı ion komponentinin artması ilə bağlıdır ki, bu da 400 K temperaturda kristalda superion hala faza keçidi ilə əlaqədardır. $TlSe_{0,8}S_{0,2}$ kristalında müşahidə olunan bu dəyişmə quruluşda Tl^+ alt qəfəsinin nizamsızlaşması ilə (alt qəfəsin əriməsi) müşaiyyət olunan faza keçidi nəticəsində baş verir.

Ədəbiyyat

1. Hahn H., Kleingler W. Rontgenographische beitrage zu den systemen Thallium- Selen andThallium -Tellur. Zeitseh. Anorg chem., 260 (1949), 110-119.
2. Nakamura K., Kasida S. X-ray Stady of the Room Temperature structure in monoclinic TlS. J.of the Phys Soc. Japan, 62 ,(1993), 3135-3141.
3. Kashida S., Nakamura K., Katayama S. Ferroelectric phase transition in monoclinic TlS. SolidSt. Commun., 82 (1992), 127-130.
4. Kasida S., Nakamura K. An X-Ray Study of the Polimorphism in Thallium Monosulfide:

Thestructure of Two Tetraqonal Forms. J. Solid State Chemistry., 110, (1994), 264-269.

РЕЗЮМЕ
АС ПРОВОДИМОСТЬ ТВЕРДОГО РАСТВОРА КРИСТАЛЛА $TlSe_{1-x}S_x$ (x=0,2)
Алиева Н.А., Мамедов Р.А., Оруджова А.А.

***Ключевые слова**: АС - проводимость, носители заряда, суперионная проводимость, электрическая проводимость*

Методом импедансной спектроскопии исследованы процессы переноса заряда в твердом растворе $TlSe_{1-x}S_x$ (x=0,2) в интервале частот $25\div10^6$ Гц. Установлено, что при низких температурах электропроводность в интервале частот 10^5 Гц подчиняется закону $\sigma_{ac}(f)$. При дальнейшем повышении частоты частотная зависимость электропроводности показывает, что электропроводность существенно возрастает в зависимости от состава. Показано, что такое поведение проводимости в исследованных твердых растворах связано с увеличением ионной составляющей.

SUMMARY
AC CONDUCTIVITY OF $TLSE_{1-X}S_X$ (X= 0.2) SOLID SOLUTION'S CRYSTALS
Aliyeva N.A., Mammadov R.A., Orujova A.A.

***Keywords:** AC- conductivity, carries, superionic conductivity, electrical conductivity*

Charge transport processes in the $TlSe_{1-x}S_x$ (x=0.2) solid solution in the frequency interval of $25\div10^6$ Hs were studied by the impedance spectroscopy method. It was determined that at low temperatures, the electrical conductivity in the frequency interval of 10^5 Hs obeys the law of $\sigma_{ac}(f)$. With the further increase of the frequency, the frequency dependence of the electrical conductivity shows that the conductivity increases significantly depending on the composition. It was shown that this behavior of the conductivity in the studied solid solutions is related to the increase of the ionic component.

POLİMER SİSTEMLƏRDƏ SƏTH HADİSƏLƏRİNİN AVTOMATLAŞDIRILMIŞ NƏZARƏT VASİTƏSİLƏ TƏDQİQİ

[1]Həşimov A.M., [2]Süleymanova L.Ç., [1]Tağiyeva Z.A., [1]Hüseynova S.A., [1]Əhədova S.S., [1]Haciyeva V.M., [1]Qurbanov K.B.
[1]H.M.Abdullayev adına Fizika İnstitutu, Bakı, Azərbaycan
[2]Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
tzenfira@mail.ru , SuleymanovaL.C.@mail.ru

***Açar sözlər**: polimer, elektrik qazboşalması, polietilen, poliamid 6.6., polivinilidenftorid, polietilentereftalat.*

Təqdim olunan məqalədə yüksək gərginlikli elektrik qazboşalmasının təsirlərinə məruz qalan xətti polimer sistemlərin səthindən makromolekulların atom və molekullarının emissiya prosesi kütlə spektrometri vastəsilə tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, polimer materiallardan polietilen polivinilidenftorid (PVDF), poliamid 6.6, polietilentereftalat (PETF) materiallarından emissiya prosesinin temperaturdan asılı olaraq güclənməsi qeydə alınmışdır.

Xətti polimer sistemləri amorf-kristallik struktura malik olaraq, ölçüləri 50-1000Å olan böyük təkrarlanma periodu ilə xarakterizə olunurlar. Polimer materiallar xarici təsirlərə, o cümlədən elektrik qazboşalmalarının, temperaturun, mexaniki təsirlərə və digər hallarda məruz qaldıqda, onların kimyəvi və fiziki qurluşlarında bir sıra dəyişikliklər müşahidə olunur ki, bu vəziyyətdə materialların elektrofiziki və mexaniki xassələrinə də təsirini göstərir [1-5].

Elektrik qazboşalmalarının təsirlərinə məruz qalan polimer materiallarda, qazboşalmasının növündən və parametrlərindən asılı olaraq aşağıdakı fiziki-kimyəvi proseslər müşahidə olunur;

- Qazboşalmalarının təsiri nəticəsində polimer materiallarda elektrik yüklü vəziyyətlər müşahidə olunur;
- Polimerdə, elektrik parametrlərinin müəyyən təsir gücündə destruksiya prosesi, digər parametrlərdə isə materialda şəbəkə strukturunun əmələ gəlməsi müşahidə olunur;
- Materiallarda sərbəst radikalların əmələ gəlməsi prosesi baş verir;
- Materiallarda faza keçidi reallaşır;
- Polimerdə lokal qızma halları mövcud olur;
- Materialların səthində yeni qrup elementlər əmələ gəlir;
- Materiallarda rekristalizasiya prosesi reallaşır;
- Polimerlərin səthindən atom və molekulların emissiyası baş verir;

- Təsir gücünün yüksək qiymətlərində polimerin köhnəlməsi prosesi intensivləşir və sonda polimer dielektrik xassələrini itirərək deşilmə prosesinə məruz qalır.

Yuxarıda qeyd olunan proseslərin hər biri ayrı – ayrılıqda təsir edərək, polimerin mühüm xassələrinin dəyişməsinə səəbəb olur. Bu baxımdan polimer materiallara bu və ya digər xassələrin aşılanmasını (verilməsini) əldə etmək üçün elektrik qazboşalmalarının təsirlərindən məqsədyönlü istifadə etmək perspektiv üsul hesab olunur. Qazboşalmalarının təsirləri nəticəsində materiallarda müşahidə olunan dəyişikliklərlə materialların xassələri arasında olan əlaqələrin öyrənilməsi mühüm elmi – praktiki əhəmiyyət kəsb edir. Qeyd olunan istiqamətdə aparılan işlərin mürəkkəbliyi, bütün halları əhatə edən vahid nəticəni əldə etməyi çətinləşdirdiyi səbəbindən, ayrı – ayrı halların tədqiqi düzgün istiqamət hesab olunur. Təcrübələrdə çətinlik törədən amil ondan ibarətdir ki, polimerin hər hansı xassələrinin müəyyən bir təsir amilindən asılılığını tədqiq etdikdə digər amillərin də eyni zamanda təsirlərini tam olaraq kənarlaşdırmaq mümkün olmur. Təcrübələrdə dəqiqliyi təmin etmək üçün, yardımçı təcrübələr və təcrübələrin dəfələrlə təkrarlanması yerinə yetirilmişdir.

Təcrübələri yerinə yetirmək üçün yüksək gərginlikli elektrik sxemindən istifadə edilmişdir. Materialların modifikasiya prosesinin intensivliyini yüksəltmək məqsədilə məşəl qazboşalmasının "qarşılıqlı sxemindən" istifadə edilmişdir. Polimer nümunəsinin qızdırılması, tənzimlənən, üç tərəfdən verilən isti hava kütləsi vastəsilə yerinə yetirilmişdir. Şəkil 1 – də məşəl qazboşalmasının "qarşılıqlı sxemi" təqdim edilmişdir.

Təcrübələrdə 140 atmosfer təzyiqində emal olunmuş, otaq temperaturunda kristallaşmış polimer nümunələrindən istifadə edilmişdir.



Şəkil 1. Məşəl qazboşalmasının "qarşılıqlı sxemi" [47. c.291]
1 – dielektrik örtük; 2 – polimer nümunəsi; YG – yüksək gərginlik; R – tormozlayıcı müqavimət.



Şəkil 2. PE materialından emissiya prosesinin temperaturundan asılılığının kütlə spektroqrammasının diaqramı.

Şəkil 2 – də polietilen (PE) nümunələrindən, qazboşalmasının təsiri nəticəsində baş verən emissiya prosesini əks etdirən kütlə - spektroqramasının diaqramı təqdim olunmuşdur.
Qazboşalması atmosfer havası mühütində və atmosfer təzyiqində yerinə yetirilmişdir.Təcrübələrin növbəti mərhələsindən məşəl qazboşalmasının təsirlərinə məruz qalan polivinilidenftirid (PVDF) materialının səthindən reallaşan emissiya prosesi tədqiq edilmişdir. Şəkil 3 – də PVDF nümunələrindən baş verən emissiya prosesinin kütlə - spektroqramasının diaqramı verilmişdir.



Şəkil 3. PVDF materialından emissiya prosesinin temperaturdan asılılığının kütlə spektroqramasının diaqramı.

Məşəl qazboşalmasının materiala təsir müddəti 30 dəqiqə təşkil etmişdir. Spektoqramadan görünür ki, qazboşalması aralığında, materialı təşkil edən C, H, F atom və molekullarından başqa, atmosfer havasının təşkil edən N və O atom və molekullarının ionları və onların kimyəvi birləşmələri də müşahidə olunmuşdur. Qazboşalmasının polimer materiala təsiri müddətində, eyni zamanda qazboşalması aralığında mövcud olan atmosfer havasına da təsir edərək, bir sıra qaz reaksiyalarının baş verməsində katalizator əhəmiyyəti kəsb etmişdir və nəticədə spektrdə qeydə alınan birləşmələr özünə yer almışdır.

Şəkil 4 – də Poliamid 6.6 və şəkil 5 – də Polietilenteraftalat materiallarından emissiya proseslərinin temperaturdan asılılıqlarının kütlə spektroqramalarının diaqramları verilmişdir.



Şəkil 4. PK 6.6 polimer materialından emissiya prosesinin temperaturdan asılılığının kütlə spektroqramasının diaqramı**.**



Şəkil 5. PETF materiallarından emissiya prosesinin temperaturdan asılılığının kütlə spektroqramasının diaqramı.

Təqdim olunan kütlə spektoqramalarının analizindən məlum olur ki, məşəl qazboşalmasının təsirləri materialların yüksək temperatur hallarında (temperaur artdıqca) materialın səthindən emissiya prosesi daha intensiv müşahidə olunmuşdur. Materialın ərimə temperaturuna yaxın temperaturlarda emissiya prosesinin intensivliyi daha yüksək qeydə alınmışdır.

Qeyd etmək lazımdır ki, tədqiq edilən xətli polimer sistemləri amorf – kristallik qurluşa malik, izotrop xassəsi və sferolit struktur elementi ilə xarakterizə olunaraq, polikristallik sistem təşkil edir. Sferolitlər arası məsafələr və sferolitlərin daxilində mərkəzdən yayılan fibrillərdə və fibrillər arası məsafələrdə də amorf

hissələr yerləşir. Polimer material qazboşalmasının təsirlərinə məruz qaldıqda materialın aşağı (20^0C) temperaturunda emissiya prosesi amorf hissələrdən, materialın yuxarı temperaturlarında amorf hissələrdə yanaşı, eyni zamanda kristallik hissələrində emissiya prosesində iştirak etdiyi səbəbindən, yüksək temperaturlarda emissiya prosesinin intensivliyinin artması müşahidə olunmuşdur.

Aparılan tədqiqatların nəticələrindən məlum olmuşdur ki,məşəl şəkilli elektrik qazboçalmalarının təsirlərinə məruz qalan xətli polimer sistemlərin səthindən atom və molekulların emissiya prosesi baş verir və materialın temperaturu artdıqca emissiya prosesinin intensivliyinin yüksəlməsi müşahidə olunmuşdur. Alınan nəticələrin struktur anlayışları vastəsilə izahatları verilmişdir. Tədqiqatda alınan nəticələrə əsaslanaraq qazboşalmalarının təsirləri şəraitində istismar olunan polimer materialların, istismar müddətərinin proqnozlaşdırılmasına imkan verir.

Ədəbiyyat

1. Həşimov, A.M. Ozon qazı mühitində qazboşalmasının təsirinə məruz qalan polimerlərdə destruksiya prosesi / A.M.Həşimov, L.Ç.Süleymanova, K.B.Qurbanov [və b.] // Fizika, - 2017. cild XXIII, №1, sektion: Az, -s.13-15.
2. Həşimov, A.M. SF_6 qaz mühitində elektrik qazboşalmasının təsiri şəraitində polietilentereftalat materialından emissiya prosesləri / A.M.Həşimov, S L.Ç.üleymanova, K.B.Qurbanov // Energetikanın problemləri -2018, №1,-s.6-10.
3. Süleymanova, L.Ç. Elektrik qazboşalmalarının təsirlərinə məruz qalan polimer materialların səthində və həcmində reallaşan proseslərin təhlili // Fizika, - 2019. cild XXV, №3, s.37-42.
4. Драчов, А.И. Воздействие тлеющего низкочастотного разряда на пленки полиэтилентерефталата / А.И.Драчов, А.Б.Гильман, В.М.Пак [и др.] // Химия высоких энергий. -2002. т.36, №2, -с.143-147.
5. Джуварлы, Ч.М. Комбинированная электроразрядная обработка поверхности материалов / Ч.М.Джуварлы, С.К.Балаев, Ю.В.Горин [и др.] // Электронная обработка материалов, - 1987, №1, - с.57-58.

РЕЗЮМЕ
ИССЛЕДОВАНИЕ ПОВЕРХНОСТНЫХ ЯВЛЕНИЙ В ПОЛИМЕРНЫХ СИСТЕМАХ С ПОМОЩЬЮ АВТОМАТИЗИРОВАННОГО КОНТРОЛЯ
Гашимов А.М., Сулейманова Л.Ч., Тагиева З.А., Гусейнова С.А., Ахадова С.С., Хаджиева В.М., Гурбанов К.В

***Ключевые слова**: полимер, электрический газоразряд, полиэтилен, полиамид 6.6., поливинилиденфторид, полиэтилентерефталат*

В представленной статье с помощью масс-спектрометрии изучен процесс эмиссии атомов и молекул с поверхности линейных полимерных систем, подвергнутых воздействию электрического газового разряда высокого напряжения. Было установлено, что из полимерных материалов, таких как полиэтилен поливинилиденфторид (ПВДФ), полиамид 6.6, полиэтилентерефталат (ПЭТ), зарегистрировано усиление процесса эмиссии в зависимости от температуры.

SUMMARY
INVESTIGATION OF SURFACE PHENOMENA IN POLYMER SYSTEMS USING AUTOMATED CONTROL
Hashimov A.M., Suleymanova L.C., Taghiyeva Z.A., Huseynova S.A., Ahadova S.S., Hajiyeva V.M., Gurbanov K.B.

***Keywords**: polymer, Electric Gas Discharge, polyethylene, polyamide 6.6. polyvinylidenphthoride, polyethylenterephthalate*.

In the present article, the process of emission of atoms and molecules from the surface of linear polymer systems exposed to a high-voltage electric gas discharge is studied using mass spectrometry. It was found that from polymer materials such as polyethylene polyvinylidene fluoride (PVDF), polyamide 6.6, polyethylene terephthalate (PET), an increase in the emission process was registered depending on temperature.

$Sn_{1-x}Tb_xSe$ MONOKRİSTALLARININ TERMOELEKTİK HƏRƏKƏT QÜVVƏSİNƏ γ-ŞÜALARIN TƏSİRİ

Cəfərov T.A., Hüseynov C. İ., Qaraşova G.Ə.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
tapd75@mail.ru, cahangir.adpu@mail.ru, kafedra.uf@adpu.edu.az

***Açar sözlər**: nadir torpaq elementləri, udulma dozası, elektrikkeçiricilik, Holl əmsalı, yürüklük, istilikkeçiricilik, termoelektrik hərəkət qüvvəsi*

İşdə $Sn_{1-x}Tb_xSe$ sistemdə bərk məhlullar alınmış, onların tərkib-xassə xarakteristikaları öyrənilmiş, termo-e.h.q.-si əmsalının temperatur asılılığı və bu xassələrə kiçik dozalı ionlaşdırıcı şüalarının tətədqiq olunmuşdur. Şüalanma zamanı yaranan akseptor tipli nöqtəvi radiasiya defektlərin konsentrasiyası x=0,05 tərkibli nümunədəkinə nisbətən daha azdır və radiasiyaya qarşı daha davamlıdır.

$\boldsymbol{A^{VI}B^{VI}}$ tipli birləşmələrdən olan qurğuşun xalkogenidləri (*PbX*) və nadir torpaq metallarının iştirakı ilə onlar əsasında alınmış bərk məhlullar termoelektrik soyuducuların *p* budağındakı materiallar kimi [4], laylı qruluşa malik olan germanium sulfid (*GeS*) monokristallarından holoqrafiya yazılışlarında, elektrik yaddaş qurğularında, günəş batareyalarının hazırlanmasında istifadə olunur [3]. *SnSe* binar birləşməsi həm termoelektrik, həm də optik xassələrə meyillidir [7]. İon-kovalent kimyəvi rabitəyə malik olub, deformasiya olunmuş *NaCl* tipli quruluşda kristallaşan *SnSe* binar birləşməsinin əsas xüsusiyyətlərindən biri müəyyən dərəcədə defektlərə malik olamsıdır. Hər iki altqəfəsdə vakansiyaların mövcudluğu və onların qaşılıqlı təsirinin antiquruluş defektlərinin əmələ gətirdiyindən məlum olmuşdur. Nadir torpaq metal (NTM) elementlərinin daxil edilməsi qalay monoselenidində defektəmələgəlmənin təbiəti və defektlərin qarşılıqlı təsiri ilə bağlı olan bir sıra fiziki xüsusiyyətlərin yaranmasına səbəb olur [6]. $Sn_{1-x}Tb_xSe$ sistem ərintilərinin bəzi elektrofiziki xassələrinə ionlaşdırıcı şüaların təsiri qismən tədqiq olunsa da, $\gamma-$şüalanmanın termo-e.h.q.-nə təsiri öyrənilməmişdir.

SnSe-TbSe sisteminin hal qiaqramı [1] işlərində ətraflı tədqiq edilmiş, *SnSe – TbSe* sisteminin faza tarazılığının tədqiqi *SnSe* əsasında 3,2 mol %-ə qədər həll olma oblastının mövcud olduğu və komponentlərin 1:1 nisbətində inkonquriyent əriyən yeni $TbSnSe_2$ üçlü birləşməsinin alındığı aşkar edilmişdir. SnSe-TbSe sisteminin bərk məhlul oblastından yuxarıda qeyd etdiyimiz üsulla alınmış kristallik nümunələrinin termo-e.h.q.-nin və Holl əmsalının tərkib asılılığı tədqiq olunmuşdur. Terbiumum konsentrasiyasının artımı ilə termo-ehq-si (α) azalır və $x\geq0,001$ % də işarəsini *p*-tipdən *n*-tipə dəyişərək maksimumdan keçməklə $Tb_xSn_{1-x}Se$ bərk məhlullarında mütləq qiyməti stabilləşir. Holl əmsalının qiyməti də termo.e.h.q-nin qiymətinə analoji dəyişir. *TbSe*-də kation atomları arasında metallik rabitə yaranır ki, bunun hesabına terbium 3+ oksidləşmə dərəcəsinə malik olur [5]. Elektrofiziki xassələri terbium monoselenidinin (*TbSe*) metallik xarakterə malik olduğunu göstərir. Bu nöqteyi nəzərdən $(SnSe)_{1-x}(TbSe)_x$ sistem ərintilərində *TbSe*-nin miqdarının artımı ilə *n*-tip keçiriciliyin yaranması qanunauyğun haldır.

Hər hansı sistemi öyrənərkən adətən ilk növbədə onun termoelektrik və qalvanomaqnit xassələrinin temperatur asılılığı tədqiq edilir. Bu məqsədlə x=0,25; 0,50; 2; 3; 4 mol % TbSe tərkibli monokristallik nümunələri ölçmə aparmaq üçün həndəsi ölçüləri 3x5x20mm olan xüsusi paralelopied şəklinə salınmışdır. Sonra nümunələrin üzərində omik kontaktlar qoyulmuş və ölçmə aparmaq üçün qurğuya yerləşdirilmişdir. Ölçmə 77÷320K temperatur intervalında aparılmış və alınan nəticələr analiz edilmişdir.

$Sn_{1-x}Tb_xSe$ sistem ərintilərinin şüalanmadan əvvəl və sonra bir sıra elektrofiziki parametrləri 300 K temperaturda ölçülməklə tərkib-xassə asılılıqları müəyyənləşdirilmiş, geniş temperatur intervalında termo-e.h.q.-si tədqiq olunmuş və bu xassələrə γ- şüaların təsiri araşdırılmışdır. γ- şüaların mənbəyi kimi kvantının enerjisi 1,25 *MeV* olan ^{60}Co izotopundan istifadə olunmuşdur. Şüalanma $D=0,6Qr/san$ dozada, 30 saat ərzində aparılmışdır.

$Sn_{1-x}Tb_xSe$ sistem ərintilərindən $Sn_{0,99}Tb_{0,01}Se$ və $Sn_{0,95}Tb_{0,05}Se$ tərkibli kütləsi 2 qram olan nümunələrin şüalanmadan əvvəl qalvanomaqnit, termoelektrik və istilik xassələri geniş temperatur intervalında tədqiq olunmuşdur. Sonra nümunələr qamma şüalarla şüalandırılmış və bu xassələr yenidən tədqiq olunmuşdur. Şüalanma dozasını müəyyən etmək üçün nümunələr t=5, 10, 15, 20;25 və 30 saat müddətində (uyğun olaraq D = 1,08; 2,16; 3,24; 4,32; 5,4; 6,48 Mrad dozalarda) şüalandırılmış və T=300K temperaturda kinetik parametrlər ölçülmüşdür. Müəyyən edilmişdir ki, kiçik dozalı şüalanmalar kristalın kinetik parametrlərinin qiymətini çox cüzi dəyişir. Hətta demək olar ki, bu dəyişməni ölçmə xətası daxilində nəzərə almamaq olar. Beləliklə nümunələr şüalanma gücü 0,6 Qr/san , kvantının enerjisi 1,25 *MeV* olan γ-şüalarla 30 saat ərzində (6,5Mrad) şüalandırılmışdır. Şüalanma mənbəyi kimi ^{60}Co izotopundan istifadə



Şəkil 1. $Sn_{1-x}Tb_xSe$ sistem ərintilərdə termo.e.h.q şüalanma dozasından asılılığı. 1-x=0,01; 2- x=0,05, T=300K

olunmuşdur. Alınan nəticələrin müqayisəli şəkildə təhlili aparılmış və $Sn_{0,99}Tb_{0,01}Se$ və $Sn_{0,95}Tb_{0,05}Se$ bərk məhlulların elektrofiziki xassələrinə γ - şüaların təsiri araşdırılımışdır.

Şəkil 1 – də $Sn_{0,99}Tb_{0,01}Se$ və $Sn_{0,95}Tb_{0,05}Se$ sistem ərintilərinin T=300K temperaturda termo. e.h.q-nin şüalanma dozasından asılılq qrafikləri verilmişdir. Göründüyü kimi termo e.h.q hər iki nümunədə kiçik dozalarda demək olar ki dəyişmir. 6,5Mrad dozada isə $Sn_{0,99}Tb_{0,01}Se$ nümunəsində 7% artır, $Sn_{0,95}Tb_{0,05}Se$ nümunədə şüalanmadan sonra 10% azalır. Ana maddədən (*p-SnSe*) onun terbiumlu bərk məhlullarına keçdikdə α-nın həm qiymətinin, həm də işarəsinin dəyişməsi müşahidə olunur. Dəyişmə xarakeri tərkibdə *TbSe*-nin miqdarından asılı olaraq fərqli xarakter daşıyır. $x_2 = 0.005$ tərkibli nümunənin $\alpha(T)$ asılılığı T=80-250 K temperatur intervalında 500 $\frac{mkV}{K}$-dən 1000 $\frac{mkV}{K}$-ə qədər artır və temperaturun sonrakı artımında işarəsi müsbət qalmaqla monoton azalma müşahidə olunur. Qeyd edək ki, aşağı temperaturlarda aşqar keçiriciliyi oblastında temperaturun artımı ilə termo-e.h.q.-si (α) artması, məxsusi keçiricilik oblastıda isə azalması mü-rəkkəb zona qurluşlu birləşmələr və bərk məhlullar üçün xarakterikdir.

$Tb_{0,01}Sn_{0,99}Se$ və $Tb_{0,05}Sn_{0,95}Se$ monokristalları istiqamətlənmiş ərimə zonası üsulu ilə alınmışdır və şüalanmadan əvvəl və sonra bir sıra elektrofiziki xassələri 77-320 *K* intervalında tədqiq olunmuş və bu xassələrə γ - şüaların təsiri araşdırılmışdır. $Sn_{1-x}Tb_xSe$ $(x = 0;\ 0{,}01;\ 0{,}05)$ sistem ərintilərinin 300K temperaturda bəzi kinetik parametrlərinin: xüsusi elektrikkeçiriciliyi (σ), termo.e.h.q (α), yükdaşıyıcıların konsentrasiyası (*n*) və Holl yüruklüyünün (μ) şüalanmadan əvvəl və şüalanmadan sonra təyin edimiş qiymətləri cədvəldə verilmişdir.

Cədvəl.

T=300 K –də $Sn_{1-x}Tb_xSe$ ərintilərinin kinetik parametrləri

Tərkiblər	Şüalanmadan əvvəl					Şüalanmadan sonra				
	tip keç	*n. p(n)* sm^{-3}	σ, $Om^{-1}\cdot sm^{-1}$	μ, $\frac{sm^2}{V\cdot san}$	α $\frac{mkV}{K}$	*tip keç*	*n*, sm^{-3}	σ, $Om^{-1}\cdot sm^{-1}$	μ, $\frac{sm^2}{V\cdot san}$	α $\frac{mkV}{K}$
SnSe	*p*	$7{,}2\cdot 10^{17}$	18	156	420	*p*	$6{,}8\cdot 10^{17}$	16,7	153	+465
$Tb_{0,01}Sn_{0,99}Se$	*n*	$6\cdot 10^{15}$	$6{,}3\cdot 10^{-3}$	6,5	-297	*n*	$6{,}9\cdot 10^{14}$	$8{,}1\cdot 10^{-3}$	30	-315
$Tb_{0,05}Sn_{0,95}Se$	*n*	$9{,}8\cdot 10^{16}$	$4{,}5\cdot 10^{-2}$	3	-210	*n*	$4{,}0\cdot 10^{17}$	$3{,}2\cdot 10^{-1}$	20	-191



Şəkil 2. Termo.e.h.q -α, temperatur asılılığı 1-SnSe; 2- $Sn_{0,99}Tb_{0,01}Se$, 3- $Sn_{0,95}Tb_{0,05}Se$. $1^{/}$, $2^{/}$ və $3^{/}$ -şüalanmadan sonra

Cədvəldən göründüyü kimi şüalanmadan sonra kinetik parametrlərin qiymətlərində xeyli dəyişmələr baş vermişdir. 2-ci nümunədə yükdaşıyıcıların konsentrasiyası bir tərtib azalmış, 3-cü nümunədə isə əksinə yükdaşıyıcıların konsentrasiyası bir tərtib, yürüklüyü isə 6 dəfə artmışdır. *T=300K*-də termo e.h.q. (α) şüalanmadan sonra 2-ci nümunədə, Δα=18 mkV/dər artdığı halda, 3-cü nümunədə Δα=19 mkV/dər qədər azalmışdır.Məlum olduğu kimi yarımkeçirici materialalrda termo e.h.q. (α) yükdaşıyıcıların konsentrasiyasına və defektlərə qarşı çox həssasdır. Ona görə alınmış nümunələrin termo e.h.q-ə γ-şüaların təsirini öyrənmək məqsədi ilə yuxarıda göstərildiyi kimi *T=77-320K* temperatur intervalında $\alpha(T)$ asılılığı şüalanmadan əvvəl və sonra ölçülmüş və analiz edilmişdir.

Şəkil 2-də SnSe, $Tb_{0,01}Sn_{0,99}Se$ və $Tb_{0,05}Sn_{0,95}Se$ nümunələrinin termo e.h.q-nin şüalanmadan əvvəl və sonra temperatur asılılğı verilmişdir. Müəyyən olunmuşdur ki, *T=85K* temperaturunda α-nın qiyməti *SnSe* və *x=0,01* tərkibli nümunədən fərqli olaraq *x=0,05* tərkibli nümunədə şüalanmadan sonra 16% azalmışdır. Əksinə olaraq *x=0,01* tərkibli nümunədə -22%, *SnSe* birləşməsində isə - 18% artma müşahidə olunmuşdur [2].

Şüalanma kristallarda bir-birləri ilə və kimyəvi aşqarlarla qarşılıqlı təsirdə olan vakansiyalar, düyünlərarası atomlar, müxtəlif tip kompleks defektlərin yaranmasına səbəb olur.

Radiasiya defektləri öz-özünü kompensasiyaya gətirir və yarımkeçiricinin keçiriçiliyi məxsusi keçiriçiliyə yaxınlaşır. γ-şüalarının təsiri ilə *n*-tip keçiriciliyə malik $Sn_{1-x}Tb_xSe$ **(***x=0,01; 0,05***)** kristallarında, donor aşqar mərkəzlərini kompensasiya edən, akseptor tipli radiasiya defekləri yaradır və radiasiya defektləri hesabına yükdaşıyıcıların yürüklüyü və elektrikkeçiriciliyi artır.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, $Sn_{1-x}Tb_xSe$ sistem ərintilərində şüalanma zamanı yaranan akseptor tipli nöqtəvi radiasiya defektlərin konsentrasiyası *x=0,05* tərkibli nümunədə nisbətən daha azdır və radiasiyaya qarşı daha davamlıdır.

Ədəbiyyat

1. Huseynov, J. I., Hasanov, K. A., Jafarov, T. A., & Abbasov, I. I. Compensating Effect of Terbium Impurity on the Conductivity of $Tb_xSn_{1-x}Se$ Solid Solutions.// *Ukrainian Journal of Physics*, 2020. *65*(3), 225.
2. Jafarov T.A. //The occurrence of defects in hard alloys $Tb_xSn_{1-x}Se$ within the γ-irradiation //, Journal of Radiation Researches, vol.6, №2, 2019, Baku, p.p. 126-131
3. Li Z., Yang Y., Wang X, Shi W., Xue D.J., Hu J.S. Three-Dimensional Optical Anisotropy of Low-Symmetry Layered GeS. // *ACS Appl Mater Interfaces*. 2019 Jul 10; 11 (27): 24247-24253.
4. Shi Y., Sturm C., Kleinke H. Chalcogenides as thermoelectric materials. *J. Solid State Chem.* 2019, 270, 273–279.
5. Strange P., Svane A., Temmerman W. M., Szotek Z., Winter H. Understanding the valency of rare earths from first-principles theory // Nature vol. 399, p. 756–758 (1999)
6. Chen J., Zhan J., Kolawole Sh.K., Tan L., et al. Article Effects of Different Rare Earth Elements on the Degradation and Mechanical Properties of the ECAP Extruded Mg Alloys // *Materials.* 2022, 15, 627.
7. Zhou C., Lee Y.K., Yu Y., Byun S., Luo Z.Z., Lee H., Ge B., Lee Y.L., Chen X., Lee J.Y., et al. Polycrystalline SnSe with a thermoelectric figure of merit greater than the single crystal // *Nat. Mater.* 2021, 20, 1378–1384.

РЕЗЮМЕ

ВЛИЯНИЕ γ-ЛУЧЕЙ НА ТЕРМОЭЛЕКТРИЧЕСКУЮ ДВИЖУЩУЮ СИЛУ МОНОКРИСТАЛЛОВ Sn1-xTbxSe

Джафаров Т.А, Гусейнов Д.И., Гарашова Г.А.

Ключевые слова: *редкоземельные элементы, доза поглощения, электропроводность, коэффициент Холла, теплопроводность, термоэлектродвижущая сила*.

В работе получены твердые растворы в системе $Sn_{1-x}Tb_xSe$, изучены их состав и свойства, изучена температурная зависимость коэффициента термо-e.h.q.-si и малодозного ионизирующего излучения от этих свойств. Концентрация точечных радиационных дефектов акцепторного типа, возникающих при облучении, меньше, чем в образце с x = 0,05, и они более устойчивы к радиации.

SUMMARY

THE EFFECT OF γ-RAYS ON THE THERMOELECTRIC MOTIVE FORCE OF Sn1-xTbxSe MONOCRYSTALS

Jafarov T.A., Huseynov C.I., Garashova G.A.

Keywords*: rare earth elements, absorbed dose, electrical conductivity, Hall coefficient, conductivity, thermal conductivity, thermoelectric motive force*

In this study, solid solutions were obtained in the $Sn_{1-x}Tb_xSe$ system, their composition and properties were studied, the temperature dependence of the thermo-e.f.m. coefficient and small-dose ionizing radiation on these properties were studied. The concentration of acceptor-type spot radiation defects generated during irradiation is lower than in the sample with x = 0.05 and is more resistant to radiation.

Tm İLƏ DOPİNQ OLUNMUŞ $TlGaS_2$ KRİSTALININ OPTİK XASSƏLƏRİ

Hüseynova K.M., Məmmədova R.L.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

kama.mag@rambler.ru

Açar sözlər: *nadir torpaq elementi, optik udulma sərhədi, qadağan zonanın eni PACS: 82.33.Pt; 72.40.+w; 78.20.Ci*

Temperaturun 77-300 K intervalında nadir torpaq elementi olan Tm ilə dopinq olunmuş $TlGaS_2$ yarımkeçirici birləşməsindın alınan kristalların optik xassələri tədqiq olunmuşdur. Optik udulma sərhədinin tədqiqi zamanı dopinq nəticəsində alınmış kristallarda qadağan zonasının eninin E_g dəyişməsi müşahidə

edilmişdir. $TlGaS_2$-də Tm miqdarı artdıqca zona quruluşunda müəyyən dəyişmə baş verir. Alınmış kristallarda Eg azalır. Bu isə o deməkdir ki, yaranan yeni defektlər nəticəsində əlavə enerji səviyyələri yaranır. Bu zaman valent zonanın tavanı yuxarı, keçirici zonanın dibi bir az aşağı sürüşür

Son illər nadir torpaq elementləri ilə dopinq olunmuş yarımkeçiricilərin tədqiqinə həsr olunmuş işlərin sayı çoxalır. Nadir torpaq elementləri daxil olmuş birləşmə və bərk məhlullar qeyri adi fiziki – kimyəvi xassələrə malik olmaları ilə böyük maraq doğurur. Yarımkeçirici materiallara nadir torpaq elementlərinin dopinq olunması aşqar oblastdakı fotohəssaslığı, fotolümunisensiyanı yüksəldir [1-6]. Öyrəndiyimiz sistem bu baxımdan da effektiv material hesab olunur.

$(TlGaS_2)_{1-x}Tm_x$ (x=0; 0,001; 0,005; 0,01; 0,02) bərk məhlullarının optik udulma spektrini ölçmək üçün qalınlığı 20-140 mkm tərtibində nümunələr hazırlanmışdır. İşıq səthə perpendikulyar istiqamətdə yönəldilmişdir. Ölçmələr temperaturun 160-300 K intervalında aparılmışdır. Təcrübələr MDR-23 monoxromatorundan və temperaturu avtomatik stabilləşdirmə (stabilləşmənin dəqiqiliyi ±0,01K təşkil edir) imkanına malik "UTREKS" kriostatından istifadə edilməklə, 77-300K temperatur intervalında aparılmışdır. İşıq qəbuledicisi olaraq FEU-100-dən istifadə edilmiş, qurğunun ayırdetmə qabiliyyəti 2Å olmuşdur. Monoxramatorun çıxışından çıxan işıq sferik alüminium güzgülərin vasitəsilə tədqiq olunan kristalın təbii laylarına perpendikulyar istiqamətə yönəldilmişdir.

$(TlGaS_2)_{1-x}Tm_x$ bərk məhlullarının qadağan olunmuş zonasının eni $(\alpha h\nu)^2$ düşən şüanın enerjisindən (hν) asılılıq əyrisindən düz xətti hissəsinin ekstrapolyasiyasından müəyyən edilmişdir. $(TlGaS_2)_{1-x}Tm_x$ (x=0; 0,001; 0,005; 0,01; 0,02) bərk məhlullarının 160-300 K temperatur oblastında udma spektrlərindən qadağan olunmuş zonanın temperaturdan asılılığını müəyyən etməyə imkan verdi.



Şəkil 1. $(TlGaS_2)_{1-x}Tm_x$ (x=0; 0,001; 0,005; 0,01; 0,02) bərk məhlullarında düz optik keçidin fotonun enerjisindən asılılığı. T=160 K. 1 – x=0,001; 2 – x=0,005; 3 – x=0,01; 4 – x=0,02

$(TlGaS_2)_{1-x}Tm_x$ (x=0,001; 0,005; 0,01; 0,02) bərk məhlullarında 160 və 300 K temperaturlarda optik keçidlərinin fotonun enerjisindən asılılığı şəkil 1 və 2-də verilmişdir. Şəkillərdən də göründüyü kimi, Tm konsentrasiyası artdıqca udulma sərhədi aşağı enerji tərəfə sürüşür.



Şəkil 2. $(TlGaS_2)_{1-x}Tm_x$ (x=0; 0,001; 0,005; 0,01; 0,02) bərk məhlullarında düz optik keçidin fotonun enerjisindən asılılığı. T=300 K. 1–x=0,001; 2– x=0,005; 3 – x=0,01; 4 – x=0,02

Şəkil 3-də $(TlGaS_2)_{1-x}Tm_x$ (x=0; 0,001; 0,005; 0,01; 0,02) bərk məhlullarının qadagan olunmuş zonasının temperaturdan asılılığı verilmişdir. $TlGa_{1-x}Tm_xS_2$ bərk məhlullarının 300 K temperaturda qadağan olunmuş zonasının konsentrasiyadan asılılığı şəkil 4-də verilmişdir.

Bütün tərkiblər üçün qadağan olunmuş zonanın temperatur əmsalı müsbət işarəlidir. Belə ki, otaq temperaturu ilə müqayisədə 160 K temperaturda $TlGa_{0.98}Tm_{0.02}S_2$ bərk məhlulunun qadağan olunmuş zonasının eni 34 meV azalır.

Tədqiq olunan bərk məhlullarda tuliumun konsentrasiyası artdıqca optik udma kənarında kiçik enerjili tərəfə dəyişmə müşahidə olunur. Bu halda qadağan olunmuş zonanın orta temperatur əmsalı $\frac{\partial E_g}{\partial T}$ nisbətən azalır: $TlGaS_2$ kristalı üçün $2{,}9\cdot10^{-4}$ eV/K, $TlGa_{0,98}Tm_{0,02}S_2$ birləşməsi üçün isə $2{,}4\cdot10^{-4}$ eV/K-dir.



Şəkil 3. $(TlGaS_2)_{1-x}Tm_x$ (2 – x=0,001; 3 – x=0,005; 4 – x=0,01; 5 – x=0,02) bərk məhlullarının və $TlGaS_2$ (1) kristalının qadağan olunmuş zonasının temperaturdan asılılığı.



Şəkil 4. $(TlGaS_2)_{1-x}Tm_x$ bərk məhlullarının qadağan olunmuş zonasının tərkibdən asılılığı. T=300 K.

Ədəbiyyat

1. Жузе, Л. Физические свойства халькогенидов редкоземельных элементов. М.: Наука, 1973, 304 с.
2. Kərimova E.M., Həsənov N.Z., Həsənov A.İ., Hüseynova K.M., İsayeva A.Ə. $TlInS_2$ və $TlGaSe_2$ birləşmələrində In və Ga atomlarının Dy atomlarla qismən əvəz edilməsinin onların fiziki xassələrinə təsiri // Fizika, 2012, cild XVIII, №2, section: Az. S.36-38.
3. Пашаев А.М., Мустафаева С.Н., Керимова Э.М., Гасанов Н.З. Диэлектрические и оптические свойства легированных редкоземельными элементами монокристаллов $TlInS_2$ и $TlInSe_2$// Ученые записки Национальной Академии Авиации. 2014. Т. 16. № 3. С. 29-37.
4. Керимова Э.М., Гасанов Н.З.. Кристаллофизика сложных полупроводников на основе соединений типа $TlB^{III}C_2^{VI}$, включающих редкоземельные элементы и переходные металлы // AMEA Xəbərlər, Fizika və Astronomiya seriyası. 2017, №2, C.12-26.
5. Kerimova E.M., Gasanov N.Z., Seidov F.M. Some physical properties of the $TlGaSe_2$-$TlTmSe_2$ system // Milli Aviasiya Akademiyası. Elmi Məcmuələr, 2018, c.20, N4, s.51-53.
6. Hüseynova K.M. $TlA_{1-x}M_xS_2(Se_2)$ (A - In, Ga; M - Dy, Er, Yb; x=0÷0,03) kristallarının alınması, elektrik və optik xassələri. Dissertasiya, 2021.

РЕЗЮМЕ
ОПТИЧЕСКИЕ СВОЙСТВА КРИСТАЛЛА $TlGaS_2$, ЛЕГИРОВАННОГО Tm.
Гусейнова К.М., Маммедова Р.Л.

***Ключевые слова**: редкоземельный элемент, предел оптического поглощения, ширина запрещенной зоны*

Исследованы оптические свойства кристаллов, полученных из полупроводникового соединения $TlGaS_2$, легированного редкоземельным элементом Tm, в диапазоне температур 77-300 К. При исследовании предела оптического поглощения определялось изменение ширины запрещенной зоны Eg в кристаллах, полученных в результате легирования. С увеличением количества Tm в $TlGaS_2$ происходит некоторое изменение зонной структуры. В полученных кристаллах уменьшается Eg. Это означает, что в результате новых дефектов создаются дополнительные энергетические уровни. В это время потолок валентной зоны смещается вверх, а дно зоны проводимости немного смещается вниз.

SUMMARY
OPTİCAL PROPERTİES OF Tm-DOPED $TlGaS_2$ CRYSTAL.
Huseinova K.M., Mammadova R.L.

***Key words**: rare earth element, optical absorption limit, forbidden zone width*

The optical properties of the crystals obtained from the $TlGaS_2$ semiconductor compound doped with Tm, a rare earth element, were studied in the temperature range of 77-300 K. During the study of the optical absorption limit, the change in the width of the forbidden zone Eg was determined in the crystals obtained as a result of doping. As the amount of Tm in $TlGaS_2$ increases, a certain change in the zone structure occurs. Eg decreases in the obtained crystals. This means that additional energy levels are created as a result of new defects. At this time, the ceiling of the valence band is shifted up, and the bottom of the conduction band is slightly shifted down.

TALLİUM HALKOGENİDLƏRİNİN GRYUNAYZEN PARAMETRİ VƏ KRİSTAL QƏFƏSİNDƏ ATOMLARIN KİPLƏŞMƏ SIXLIĞI

Qurbanov M.M., Qocayev M.M
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
qocayev.52@mail.ru

***Açar sözlər**: parametr, sıxlıq, qablaşdırma, xalkogenid, termal genişlənmə, istilik tutumu, izotermik sıxılma, kimyəvi bağ.*

Məqalədə biz tallium monoxalkogenidlərinin kristal qəfəsindəki atomların qablaşdırma sıxlığını hesabladıq. Grüneisen parametri artdıqca atom qablaşdırma sıxlığı azalır. Bu cür dəyişikliklər atomlar arasında kimyəvi əlaqənin dəyişməsi ilə əlaqələndirilir.

Məlum olduğu kimi kristal qəfəsində atomların kipləşmə sıxlığının (buna bəzən kristal qəfəsində atomların yerləşmə sıxlığı da deyilir) təyin edilməsi, tədqiq edilən maddədə kristallik quruluşun mükəmməlliyini, qəfəsin daxili enerjisini, qəfəs daxilində atomlararası kimyəvi rabitənin növünü və xarakterini müəyyənləşdirməyə imkan verir. Bu parametrin qiymətinin ekdperimental olaraq təyini çətin olduğundan, çox hallarda onu mövcud termodinamik parametrlərin vasitəsilə hesablamağa üstünlük verilir.

Ədəbiyyatda kipləşmə sıxlığının da daxil olduğu termodinamik münasibət mövcuddur [1].

$$\frac{C_P}{C_V} = 1 + \frac{3\alpha T}{a} \tag{1}$$

Burada C_P və C_V – sabit təzyiqdə və sabit həcmdə xüsusi istilik tutumları, α – istidən xətti genişlənmə əmsalı, T – mütləq temperatur və a – atomların kristal qəfəsində kipləşmə sıxlığıdır. (1) – düsturuna daxil olan termodinamik parametrlərin qiymətləri Gryunayzen düsturu vasitəsilə də əlaqələnmişdir.

$$\gamma = \frac{3\alpha V}{\chi_T \cdot C_V} \tag{2}$$

C_P və C_V – arasında da termodinamik münasibət vardır [2,3].

$$C_P - C_V = \frac{9\alpha^2 VT}{\chi_T} \tag{3}$$

(2) və (3) ifadələrinə daxil olan V – molyar həcm və χ_T – izotermik sıxılma əmsalıdır.

(1), (2) və (3) ifadələrinin birgə araşdırılması nəticəsində

$$a = \frac{1}{\gamma} \tag{4}$$

Tallium monohalkogenidləri üçün istidən genişlənmə və izotermik sıxılma əmsalları, eləcə də sabit təzyiqdə xüsusi istilik tutumları eksperimental olaraq ölçülmüş, (C_P - C_V) fərqi və γ-Gryunayzen parametri hesablanmışdır [2-5]. Bu qiymətlər cədvəl şəklində verilmişdir (cədvəl).

Bu işdə Tallium monohalkogenidləri üçün (4) düsturu əsasında atomların kristallik qəfəsdə kipləşmə sıxlıqları hesablanmışdır. Bu hesablamaların nəticəsi də cədvəldə verilmişdir.

Cədvəldən göründüyü kimi Tallium monohalkogenidlərində tərkibdə halkogenidin çəki nisbəti artdıqca, başqa sözlə kükürddən tellura keçdikdə kristal qəfəsində atomların kipləşmə sıxlığının qiyməti cüzi də olsa azalır. a – nın qiymətindəki azalma həmçinin hər birləşmə üçün temperaturun artması ilə də baş verir. a- parametrinin qiymətində baş verən bu cür dəyişikliyi kristal qəfəsində atomların kipləşmə sıxlığının azalması ilə kimyəvi rabitənin zəifləməsi və rəqslərin qeyri-harmoniklikdərəcəsinin artması ilə əlaqələndirmək olar.

T,K	TlS					TlSe					TlTe				
	$\alpha \cdot 10^6$, K^{-1}	c_p, $\frac{C}{kq \cdot K}$	$\chi_T \cdot 10^{12}$ m^2/N	γ	a	$\alpha \cdot 10^6$, K^{-1}	c_p, $\frac{C}{kq \cdot K}$	$\chi_T \cdot 10^{12}$ m^2/N	γ	a	$\alpha \cdot 10^6$, K^{-1}	c_p, $\frac{C}{kq \cdot K}$	$\chi_T \cdot 10^{12}$ m^2/N	γ	a
80	2,75	-	0,615	1,261	0,682	3,17	-	0,819	1,475	0,678	5,21	-	0,873	1,576	0,634
100	5,01	161,2	0,618	1,592	0,628	5,18	149,2	0,824	1,648	0,657	7,34	143,0	0,876	1,611	0,620
140	6,80	177,2	0,621	2,143	0,547	8,25	125,1	0,834	2,069	0,483	11,25	149,2	0,891	2,155	0,464
170	8,60	183,4	0,625	2,412	0,465	9,88	163,7	0,839	2,400	0,417	4,20	151,7	0,893	2,507	0,399
200	8,65	194,7	0,628	2,382	0,412	9,93	170,5	0,843	2,465	0,406	12,51	153,5	0,895	2,709	0,369
250	8,67	202,4		2,306	0,632	9,95	172,2	0,849	2,476	0,404	13,05	155,1	0,897	2,849	0,351
300	8,90	210,1		2,212	0,632	10,02	176,5	0,853	2,485	0,402	13,52	159,9	0,901	2,778	0,359
350	8,92	-	0,633	2,245	0,405	10,12	-	0,854	2,486	0,402	13,85	-	0,903	2,790	0,356

Ədəbiyyat

1. Калишевич Г.И., Гельпертина Т.Н., Гельд Р.В. Теплоемкость и тепловое расширение Cosb, неорганические материалы, Том 12, №6, 1976, стр.1119
2. Курбанов М.М. Изотермическая сжимаемость холькогенидов Таллия, неорганические материалы, Том 28, №2, 1992 г.
3. Курбанов М.М., Годжаев Э.М., Гулиев Л.А. Тепловое расширение TlSe, ФТТ, Том 24,вып.1, 1982.
4. Алджанов М.А. Автореферат, канд. диссертации ИФАН Аз. ССР, Баку 1978
5. Алджанов М.А., Мамедов К.К., Гусейнов Д.А., Абдуллаев А.Б. Тепловое расширение и изотермическая сжимаемость теллурида Таллия, ФТТ 25, вып.3, 1983 г.

РЕЗЮМЕ
ПАРАМЕТР ГРЮНАЙЗЕНА И ПЛОТНОСТЬ УПАКОВКИ АТОМОВ В КРИСТАЛЛИЧЕСКОЙ РЕШЕТКЕ МОНОХАЛЬКОГЕНИДОВ ТАЛЛИЯ
Курбанов М.М., Годжаев Э.М.

***Ключевые слова**: параметр, плотность, упаковка, халькогенид, тепловое расширение, теплоемкость, изотермическая сжимаемость, химическая связь.*

В данной статье проведены вычисления плотности упаковки атомов кристаллической решетки монохалькогенидов Таллия. С увеличением параметра Грюнайзена уменюшается плотность упаковки атомов. Такие изменения связаны с изменением химической связи между атомами.

SUMMARY
PARAMETER AND PACKING DENSITY OF ATOMS IN THE CRYSTAL LATTICE OF THALLIUM MONOCHALCOGENIDES
Gurbanov M.M., Gojayev E.M.

***Key words:** parameter, density, packing, chalcogenide, thermal expansion, heat capacity, isothermal compressibility, chemical bond.*

In this article, we calculated the packing density of atoms in the crystal lattice of thallium monochalcogenides. As the Grüneisen parameter increases, the atomic packing density decreases. Such changes are associated with a change in the chemical bond between atoms.

ФОТОПРОВОДИМОСТЬ МОНОКРИСТАЛЛА $[TlInSe_2]_{1-x}[Nd_2Se_3]_x$

Сардарова Н.С.
Сумгаитский государственный университет, Сумгаит, Азербайджан
naile.545@mail.ru

***Ключевые слова:** твердые растворы, легирование, фотопрово-димость,фотолюминесценция, примесная проводимость, ИК поглощения.*

В работе исследуются соединения типа $TlA^{III}X_2^{IV}$ (где A^{III} – Ga, In; X_2^{IV} – S, Se). Установлено, что легирование этих соединений редкоземельными элементами, придают твердым растворам необычные физико-химические свойства.

Как известно, [1,2] ионы Zn^{2+} обладают сильным предпочтением к тетраэдрическому окружению анионов. В связи с этим, замещение происходит в тетраэдрических положениях. При этом, наряду с уменьшением намагниченности (A) – подрешетки, происходит увеличение намагниченности [B] – подрешетки, вызванное переходом в октаэдрические положения ионов Fe^{3+}, вытесняемых диамагнитными ионами Zn^{2+} из тетраэдрических мест. В итоге возрастает результирующий магнитный момент. Вместе с тем, с уменьшением числа косвенных (через ионы кислорода) обменных взаимодействий типа (A)–O–[B], уменьшается и энергия межподрешеточного взаимодействия. Это приводит к снижению величины намагниченности при достижении концентрации x>0.50 катионов Zn^{2+}. В результате возрастает роль внутриподрешеточного [B]–O–[B] взаимодействия, которое при концентрации (x=1) Zn^{2+} ориентирует магнитные моменты ионов Fe^{3+}, которые находятся в [B]–подрешетке, антипараллельно друг другу. С ростом концентрации катионов Zn^{2+}, вследствие уменьшения магнитного момента тетраэдрической подрешетки, результирующий магнитный момент должен увеличиваться.

Расстояние между магнитными ионами называется длиной прыжка между тетраэдрическими и октаэдрическими порами (L_A и L_B соответственно) и определяет условия спинового взаимодействия магнитоактивных катионов. Длины прыжков были рассчитаны с использованием уравнений $L_A = \frac{a\sqrt{3}}{4}$, $L_B = \frac{a\sqrt{2}}{4}$ [8]. Результаты представлены на рисунке 2. Рассчитанные значения величин кислородного параметра на 3,6% больше величины 0,375 идеального параметра [7]. Размеры кристаллитов не превышают 50 нм, что дает возможность использовать для оценки размеров кристаллитов формулу Шерера $D_{hkl} = 0.9\lambda/\cos\theta$ [9,10]. Рассчитанные значения величины D уменьшаются с ростом величин радиусов R^{3+} - катионов от 42,31 нм (Er^{3+}) до 41,70 нм (Eu^{3+}). Восстановленные зависимости величин L_A и L_B от типа R-катиона показывают тенденцию к снижению длин прыжка с увеличением размеров кристаллитов. Для всех исследованных образцов соотношение длин прыжков $L_A > L_B$, что указывает на меньшую вероятность обмена электронами между узлами A и B, чем между узлами B и B кристаллических решеток.

Уравнения для расчета тетраэдрических и октаэдрических длин связей (d_{AL} и d_{BL}), длин ребер тетраэдров (d_{AE} и d_{BE}) [11]: $d_{AL} = a\sqrt{3}(u - 0.25)$, $d_{BL} = a\sqrt{3u^2 - \frac{11}{4}u + \frac{43}{64}}$, $d_{AE} = a\sqrt{2}(2u - 0.5)$, $d_{BE} = a\sqrt{2}(1 - 2u)$.



Рисунок 2. Зависимость длины прыжка (L_A и L_B), от величины радиуса R-катиона



Рисунок 3. Зависимости длин связей (d_{AL}, d_{AL}) и длин ребер (d_{AE}, d_{BE}) от величины радиуса R-катиона

Частичное замещение катионов Fe^{3+} изовалентными катионами редкоземельных элементов вызывает химическое давление, которое влияет на валентный угол Fe-O-Fe и приводит к систематическому изменению структурных и магнитных характеристик образцов. Полученные результаты могут быть использованы как при изучении структуры и магнитных свойств оксидных кристаллов со структурой шпинели, так и при экспериментальных исследованиях и при синтезе новых материалов с заданными физическими свойствами.

Литература

1. Крупичка, С. Физика ферритов и родственных им магнитных окислов / С. Крупичка. – М.: Мир, 1976. – Т. 1. – 353 с.

2. Данилькевич, М.И. Диэлектрические свойства оксидных феррошпинелей с различным магнитным разбавлением / М.И. Данилькевич // Неорг. м–лы. – 1997. – No 3. – С. 375–378.

3. Krishna, K. Structural and Electrical Conductivity Studies in Nickel-Zinc Ferrite / K. Krishna, K. Kumar and D. Ravinder // Adv. Mater. Phys. Chem. – 2012. – Vol. 2. – No. 3, – p. 185-191.

4. Petříček, V. Crystallographic Computing System JANA2006: General features / V. Petříček, M. Dušek, L. Palatinus // Z. Kristallogr. – 2014. – Vol. 229(5). – P.345–352.

5. Rezlescu N. Effects of the rare-earth ions on some properties of a nickel–zinc ferrite / N. Rezlescu [et al] // J Phys : Condens Matter. –1994. – Vol. 6. – P. 570–571.

6. Kulkarni, V.D. Structural and Morphological Properties of La^{3+} Doped Ni-Zn Nanoferrite / V. D. Kulkarni, S. M. Rathod // Int. J. Eng.Res. Appl. – 2017. – Vol. 7(12). – P. 49–53.

7. Akhtar, M.N. Effect of rare earth doping on the structural and magnetic features of nanocrystalline spinel ferrites prepared via sol gel route / M.N. Akhtar, M.A. Khan // Journal of Magnetism and Magnetic Materials. – 2018. – Vol. 460. – P.268–277.

8. Paramesh D. Influence of nickel addition on structural and magnetic properties of aluminium substituted Ni-Zn ferrite nanoparticles / D. Paramesh [et al] // Processing and Application of Ceramics. – 2016. – Vol. 10. – No 3. – P.161–167.

9. Langford, J.I. Scherrer after sixty years: a survey and some new results in the determination of crystallite size / J.I. Langford, A. Wilson // J. Appl. Crystallogr. – 1978. – Vol. 11. – p. 102-113.

10. Holzwarth, U. The Scherrer equation versus the «Debye-Scherrer equation» / U. Holzwarth, N. Gibson // Nat. Nanotechnol. – 2011. – Vol. 6. – P. 534.

11. Akhtar M.N. Systematic Study of Ce3+ on the Structural and Magnetic Properties of Cu Nanosized Ferrites for Potential Applications / M. N. Akhtar [et al] // J. Rare Earths. – 2017. – Vol. 36. – P.156–164.

XÜLASƏ

SPİNEL NİKEL-SİNK FERRİTLƏRİNİN STRUKTUR XÜSUSİYYƏTLƏRİNƏ KATİONİK ƏVƏZETMƏNİN TƏSİRİ

Makoyed İ.İ., Rimskiy Q.S,, Demidenko O.F., Yanuşkeviç K.İ.

***Açar sözlər**: şpinel, kristal qəfəs parametrləri.*

Polikristal $Ni_{0.80}Zn_{0.20}Fe_{1.95}R_{0.05}O_4$ (R = Er, Tb, Gd, Eu) ferrit nümunələri adi bərk cisim reaksiyası üsulu ilə hazırlanmışdır. $Ni_{0.80}Zn_{0.20}Fe_{1.95}R_{0.05}O_4$ ferritlərinin struktur xassələrinə kation əvəzetməsinin təsiri rentgen şüalarının difraksiya üsullarından istifadə etməklə təcrübi və nəzəri cəhətdən öyrənilmişdir. Rietveld zərifliyi ilə yerinə yetirilən struktur analizi, az miqdarda RFeO3 ortoferrit fazası olan kub $Fd\bar{3}m$ (227:1) şpinel strukturunu təsdiqlədi. Müxtəlif R-kationlarla aşqarlanmış bütün nümunələr üçün kristal qəfəsin parametrlərində və struktur xüsusiyyətlərində monoton dəyişiklik müşahidə edilmişdir. Quruluş xüsusiyyətlərinin hesablanmış dəyərləri eksperimental məlumatlarla yaxşı uyğun gəlir.

SUMMARY

INFLUENCE OF CATION SUBSTITUTION ON THE STRUCTURAL CHARACTERISTICS OF NICKEL-ZINC FERRITES SPINELS

Makoed I.I., Rimsky G.S, Demidenko O.F., Yanushkevich K.I.

***Key words:** spinel, lattice parameters.*

Polycrystalline $Ni_{0.80}Zn_{0.20}Fe_{1.95}R_{0.05}O_4$ (R = Er, Tb, Gd, Eu) ferrite samples were prepared using the conventional solid-state reaction method. The effect of cationic substitution on the structural properties of the $Ni_{0.80}Zn_{0.20}Fe_{1.95}R_{0.05}O_4$ ferrites has been experimentally and theoretically studied using X-ray diffraction methods. Structural analysis accomplished by Rietveld refinement has confirmed a cubic $Fd\bar{3}m$ (227:1) spinel structure with a small amount of $RFeO_3$ orthoferrite phase. Monotonic change in crystal lattice parameters and structural characteristics have been observed for all samples doped by different R-cations. The calculated values of the structure characteristics is in good agreement with the experimental data.

РАДИОТЕРМОЛЮМИНЕСЦЕНЦИЯ γ-ОБЛУЧЕННЫХ КОМПОЗИЦИЙ ПОЛИПРОПИЛЕН+Х ОБ.%Na^+-МОНТМОРИЛЛОНИТ

Мамедова Р.Л., Шахсуварова Г.А., Айвазова З.Н.

Сумгаитский государственный университет, Сумгаит, Азербайджан

rasmiyya2011@mail.ru

***Ключевые слова**: Na^+-монтмориллонит, полипропилен, спектры радиотермолюминесценции, низкая температура, композиционные материалы.*

Для улучшения эксплуатационных характеристик полимерных материалов широко применяют различные физико-химические методы, в том числе и радиационные. Однако сведения о совместном влиянии С60 и γ-излучения на структуру и свойства полимерных материалов активно изучается и целесообразно отметить необходимость поиска новых материалов, устойчивых к радиационному воздействию [1-4]. Радиационная стойкость полимеров определяется способностью к сохранению исходного химического состава, свойств и структуры в процессе или после воздействия ионизирующего излучения. Она зависит от различных факторов – вида радиации, режима, мощности и длительности облучения, размеров облучаемого образца, внешних условий (температуры, давления, влажности), также от количества растворенного в полимере кислорода воздуха и скорости его поступления из окружающей среды [5-8].

Метод РТЛ основан на наблюдении термолюминесценции исследуемых веществ, облученных при низких температурах быстрыми электронами или гамма-лучами. Это свечение связано с рекомбинацией ионов, стабилизированных в веществе во время его облучения. Характерная особенность РТЛ заключается в том, что интенсивность свечения резко увеличивается (проходит через максимумы) в тех интервалах температур, в которых начинается движение сегментов молекул или молекул в целом. В частности, при разогреве облученных кристаллов наблюдаются вспышки в

момент перестройки кристаллической решетки и во время плавления. Эта особенность РТЛ позволяет применить этот метод для исследования структурных переходов в веществах [9-10].

В свете вышеизложенного в настоящей работе исследовали спектры радиотермолюминесценции композиционных материалов на базе полипропилена модифицированные Na^+-монтмориллонитом.

Методика эксперимента.

Метод РТЛ состоит из трех этапов: облучение исследуемого образца при низкой температуре, последующего плавного разогрева облученного образца и одновременной с ним регистрацией свечения.

Объектами исследований были композиции на основе ПП с наполнителем Na^+ монтмориллонита. Na^+ монтмориллонит это глина оброзовавщаяся выветривания, лишайников и грибков. Его кристаллы имеют зерноразмером менее 1-2 мкм, а также из за сложной структуры обладают наличием отрицательных и положительных зарядов, вследствие чего данный материал может связывать на себя как катионное так и анионное вещество. Неионное вещество часто связывается с монтмориллонитом через побочную валентность. Монтмориллонит обладает свойством связывать в большом количестве своей поверхностьной площадью и пространством между слоями кристалла различные вредные вещества.

Образцы композитов в виде диска получали из гомогенной смеси порошков ПП+х об%Na^+(ММТ) размером частиц до 100 мкм. Образцы, используемые для РТЛ анализа, помещались на дно нержавеющей чашки диаметром 8 мм, покрывались нержавеющей сеткой для выхода света. Перед облучением образцы в чашках вакуумировали в стеклянной ампуле до давления 0,0133Па и охлаждали до температуры 77 К погружением в сосуд с жидким азотом. Время вакуумирования *t*, необходимое для удаления растворенных в образце газов, определяли в зависимости от толщины пленок по формуле

$$t = \frac{d^2}{4k},$$

где d − толщина пленок, k – коэффициент диффузии воздуха в полимере $\approx 10^{-3}$м^2/с [9]. Облучение проводилось γ-излучением ^{60}Co на установке РХ-γ-30 при температуре 77 К, мощность дозы облучения составляла 50кГр/ч. РТЛ спектры, снимались на приборе ТЛГ-69М, при скорости нагрева 12 град/мин в интервале температур от 77 до 500 К. Свечение образца регистрируется в интервале 300−820 нм с помощью фотоэлектрического умножителя ФЭУ-51. Температура образца регистрировалась термопарой медь-константан. Эффективную энергию активации E_a, соответствующую γ-процессу, определяли методом полуширины пиков РТЛ, отдельные значения E_a сопоставляли с результатами, полученными методом начальных скоростей. Расчеты были произведены по формуле

$$E_a \frac{E_- + E_+}{2} \text{ где, } E_- = \frac{0{,}98 T_m T_+}{T_m - T_-},\ E_+ = \frac{1{,}42 T_m T_-}{T_+ - T_m}$$

Здесь T_m – температура максимума интенсивности на кривой РТЛ; T_- и T_+ − температуры низкотемпературной и высокотемпературной стороны максимума высвечивания в точке, где интенсивность равна половине максимальной; k − постоянная Больцмана.

Блок-схема измерительной установки приводится на рис.1. Отличительной особенностью системы, показанной на рис. 1 является то, что в одной вакуумированной камере (2) помещается система возбуждения ТЛ электрическим полем (4,12) и система регистрации свечения (5) и (6), а также возможность регистрации термостимулированных токов (ТСТ) через усилитель (9) с последующей регистрацией тока и фототока (8) на одном самописце (10). С помощью двигателя (7) образцы пленок поочередно передвигаются на тефлоновом диске на поверхность высоковольтного предварительно охлажденного до 77К электрода (4) и после возбуждения ТЛ, этот же диск, вращаясь, переносит образец (1) под ФЭУ на поверхность другого электрода, где налажена система обогрева с регистрацией температуры термопарой медь-константан (11). Отметим, что на приведенной системе также можно осуществить разрядную обработку полимера электронами некотором расстоянии для зажигания разрядов.



Рис.1. Блок-схема регистрации РТЛ.



Рис. 2. Спектры радиотермолюминесценции композитов ПП+ x об%Na^+(ММТ), где a-x= 0; b-x=10; c -x= 20; d-x=30; e-x=40.

Образцы для исследования готовились в следующей последовательности: измельченный наполнитель Na^+(ММТ) в виде порошка смешали с различным объемным процентным содержанием полимера связующий ПП. Далее эта порошковая смесь прессовалась в течение 10 мин под давлением 15МПа, температура прессования $T_{пр} = 430 \pm 5K$. Полученные прессованные образцы имели диаметр 7мм, толщина 200мкм. Образцы закреплялись внутри металлических кювет, кюветы помещали в стеклянные ампулы и вакуумировали их при давлении 0,133 Па для того, чтобы избежать влияния растворенного в полимере кислорода на кривую высвечивания. Измерения РТЛ композиций ПП+Na^+(ММТ) проводились на измерительной установке, описанной на рис. 1.
Кривые РТЛ записывались при плавном разогреве образца со скоростью 10-12 град/мин в интервале температур 77-400К (рис. 2).

Экспериментальные результаты и их обсуждение

Результаты исследования спектров РТЛ композитов ПП+х об% Na^+(ММТ)приведены на рис. 2. Исследования проводились в композитах с наполнителями 0, 10, 20, 30, 40 об% Na^+(ММТ). Как следует из рис. 2 на кривой чистого пропилена (х=0) при температуре 150К наблюдается яркий максимум, область спектральной чувствительности 100-250К, на кривой РТЛ композита ПП+20 об%Na^+(ММТ) при температуре 108К наблюдаются яркие максимумы, при температурах 170-225К размытые максимумы. Область спектралной чувствительности соответствует температурному интервалу 100-240К. На кривой РТЛ композита с наполнителем 30 об%Na^+(ММТ)яркий максимум наблюдается при 125К, для этого композита второй размытый максимум наблюдается при температуре 190К, а область спектральной чувствительности соответствует температурному интервалу 90-170 К. Яркий максимум на кривой РТЛ с наполнителем 40 об%Na^+(ММТ)наблюдается при температуре 106К, незначительный размытый максимум при 190К, а область спектральной чувствительности соответствует температурному интервалу 90-120 К. Интенсивность РТЛ излучения композитов ПП+ х об%Na^+(ММТ)при относительно малом содержании наполнителя (0-10 об% Na^+(ММТ)) практически остается постоянной, а с увеличением объемного содержания наполнителя до 20 об%Na^+(ММТ) резко увеличивается, однако, с дальнейшим увеличением содержания наполнителя остается постоянной. Из полученных результатов видно, что для чистого ПП (рис.2.а) характерный γ- релаксационный пик при 150К с увеличением содержания наполнителя до 10 об%Na^+(ММТ) смещается в область низких температур (108К). Когда в композите количество наполнителя составляет 20 об% пик перемещается на 4К в область низких температур. С дальнейшим увеличением содержания наполнителя до 30 об% Na^+(ММТ) максимум на кривой РТЛ смещается в область более высоких температур 125К. Для композита с наполнителем 40 об%Na^+(ММТ) яркий пик наблюдается при более низкой температуре 106 К. Кроме того, наблюдается возрастание интенсивности свечений композитов.

Для композиций ПП/Na^+(ММТ) соответственные пики свечения, как видно из рис.2, совпадают с областью свечения ПП, соответствующей гамма-релаксационным процессам полимера в области температур 100- 200 К. Причем, с увеличением объемного содержания наполнителя до 20 об% в композициях наблюдается резкое увеличение интенсивности свечение РТЛ, это увеличение интенсивности остается постоянной и для композитов 30 и 40 об% Na^+(ММТ).

Заключение.

Установлено, что радиационная модификация люминесцентных свойств композитов ПП/Na^+(ММТ) обусловлена изменениями в надмолекулярной структуре, также процессами, происходящими на межфазной границе полимерной матрицы с наполнителем Na^+монтмориллонита.

Литература

1. Aulov V.A., Kuchkina I.O., Feldman V.I., Ozerin A.N. *High Energy Chemistry*, **B48**, 20 (2014).

2. Maharramov A.M., Ismayilova R.S., Kuliev M.M., Mammadova R.L. *Problems of Atomic Science and Technology (VANT)*, Ukraine, **4**, 128, 31 (2020).

3. Smirnov Yu.N., Allayarov S.R., Lesnichaya V.A., Ol'khov Yu.A., Belov G.P., Dixon D.A., *Khimiya Vysokikh Energii*, **B**43, 6, 505 (2009).

4. Diène N., Adams T. *Global Conference on Polymer and Composite Materials (PCM 2014) IOP Conf. Series: Materials Science and Engineering* **62**, Ningbo, China. 27-29 May, 012025 (2014)

5. Mubarak A.Kh., Ruhul A.Kh., Haydaruzzaman, Ghoshal S.M., Siddiky N.A., and Saha M. *Polymer-Plastics Technology and Engineering*, **48** 542 (2009)

6. Albano, Carmen, Perera, Rosestela, & Silva, Pedro. Revista Latinoamericana de *Metalurgia y Materiales*, **30,** 1, 3 (2010).

http://ve.scielo.org/scielo.php?script=sci_arttext&pid=S0255-69522010000100002&lng=en&tlng=en

7. Varga J., *Crystallization, melting and supermolecular structure of isotatic polypropylene. In: Karger-Kocsis J. (ed.), Polypropylene: Structure, Blends and Composites.* London (UK): Chapman & Hall, , Vol. I: Structure and Morphology, 56 (1995)

8. Phillips R.A., Wolkowicz M.D., *Structure and Morphology. In: Moore EP. (ed.), Polypropylene Handbook.* New York (USA): Hanser, 113 p. (1996)

9. Hamour N., Boukerrou A., Djidjelli H., Yefsah R., Corn S., El Hage R., Bergeret A. *Journal of Thermoplastic Composite Materials*, **31**, 5, 598 (2017).

10. Gojayev E.M., Nabiyev N.S., Ramazanov M.A., Kahramanov K.Sh., Alieva Sh.V., Ismailov A.A.. Investigations microrelief of the surface, dielectric properties and fluorescence spectrum of natural composite - fish scales Physical Science International Journal **6**, 1, 45, 9(2015), Article no.PSIJ.2015.032

XÜLASƏ

γ - ŞÜALANMANIN TƏSİRİNƏ MƏRUZ QALMIŞ POLİPROPİLEN +X %Na^+- MONTMORİLLONİT NÜMUNƏLƏRİNDƏ RADİOTERMOLUMİNESSENSİYASI

Məmmədova R.L, Şahsuvarova Q. Ə., Ayvazova Z.H.

***Açar sözlər**: Na+-montmorillonit, polipropilen, radiotermolüminessent spektrlər, aşağı temperatur, kompozit materiallar*

Məqalədə Na + -montmorillonit (Na + (MMT)) ilə doldurulmuş və 50 kGy/ saat şüalanma dozası ilə Co60 şüaları ilə şüalanmış PP matrisi əsasında kompozit materialların radiotermolüminessent spektrlərinin tədqiqinin nəticələri təqdim olunur. PP + x vol% Na + (MMT) kompozitləri üçün effektiv aktivləşdirmə enerjilərini təyin etmək üçün RTL piklərinin yarımenin təyini metodlarından istifadə edilmişdir.

SUMMARY

RADIOTERMOLUMINESCENCE OF γ-IRRADIATED COMPOSITIONS OF POLYPROPYLENE+X VOL.%Na+-MONTMORRILLONITE

Mammadova R.L., Shahsuvarova Q.A., Ayvazova Z.H.

***Keywords**: Na^+ -montmorillonite, polypropylene, radiothermoluminescence spectra, low temperature, composite materials*.

The paper presents the results of a study of the radiothermoluminescence spectra of composite materials based on a PP matrix, filled with Na^+ -montmorillonite (Na^+ (MMT)) and irradiated with Co60 rays at an irradiation dose rate of 50 kGy / h. The effective activation energies of the processes of PP + x vol% Na^+ (MMT) composites have been determined by the RTL peak half width methods.

FİZİKA VƏ TEXNİKİ FƏNLƏRİN TƏDRİSİ METODİKASI
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИКИ И ТЕХНИЧЕСКИХ ДИСЦИПЛИН
METHODOLOGY OF TEACHING PHYSICS AND TECHNICAL DISCIPLINES

FİZİKANIN TƏDRİSİNDƏ MÜASİR PEDAQOJİ TEXNOLOGİYALARDAN VƏ MÜASİR TƏLİM PRİNSİPİNDƏN İSTİFADƏ EDƏRƏK TƏLİM-TƏRBİYƏ MÜHİTİNİN YARADILMASI

Həşimova A.İ., Sadıqova S.R.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
hasimovaaynur@gmail.com

Açar sözlər: təlim, tərbiyə, əməkdaşlıq, müəllim, şagird, interaktiv təlim

Təhsil sistemində aparılan tədqiqat və araşdırmalar, belə bir nəticəyə gəlməyə imkan verir ki, öyrənənlər üçün biliklərin əldə edilməsində yeni təlim texnologiyalarının mühüm rolu var. Yeni təlim texnologiyası dedikdə, müəllim və şagirdlərin birlikdə əməkdaşlığı sayəsində həyata keçirdikləri metod və priyomların sistemli şəkildə tətbiqi nəzərdə tutulur. İstər təlim şəraitində, istərsə də tərbiyə şəraitində, istifadə edilən metodlar, texnikalar, üsul və vasitələr tez-tez təzələnməlidir. Dövrün tələbi nəzərə alınaraq sistemli şəkildə inkişaf etdirilməlidir.

Yeni təhsil sisteminin əsas məqsədi təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, differensiallaşdırılması, fərdiləşdirilməsi və inteqrasiya prinsiplərinə söykənərək təhsil alanın şəxsiyyət kimi formalaşmasına, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsinə zəmin yaratmasıdır. [2]

Azərbaycan təhsilində yeni prinsiplərin təlim texnologiyalarının fizikanın tədrisinə intensiv formada tətbiqi mühüm əhəmiyyət kəsb edir. Yeni texnologiyaların tətbiq olunmasında fəal-interaktiv təlim metodlarının rolu böyükdür. Çünki pedaqoji texnologiyalara fəal-interaktiv təlim metodlarının daxil edilməsi şagirdlərdə təlim-tərbiyənin keyfiyyətcə yüksəlməsinə geniş şərait yaradır.

Yeni pedaqoji və təlim texnologiyalarının təhsilimizə gətirilməsi heç də o demək deyil ki, tədris metodikasının və məktəb praktikasının varisliyinə xələl gətirir, əksinə onu daha da inkişaf etdirir.

Təhsil sistemində aparılan tədqiqat və araşdırmalar, belə bir nəticəyə gəlməyə imkan verir ki, öyrənənlər üçün biliklərin əldə edilməsində yeni təlim texnologiyalarının mühüm rolu var.

Yeni təlim texnologiyası dedikdə, müəllim və şagirdlərin birlikdə əməkdaşlığı sayəsində həyata keçirdikləri metod və priyomların sistemli şəkildə tətbiqi nəzərdə tutulur. Fizikanın tədrisində müasir texnologiyanın mahiyyətinə gəldikdə onu da qeyd etmək lazımdır ki, məzmun nə qədər əhatəli olsa da, təlim texnologiyalarının tətbiqi prinsipində ayrı ayrı metod və priyomlara istinad etmək lazım gəlir. Unutmaq olmaz ki, şagirdlərin elmlərin və fənlərin əsasları üzrə qazandıqları bilikləri praktik fəaliyyətə tətbiq etmək bacarığı və s. inkişafetdirici interaktiv metod və üsulların vasitəsilə təmin olunur. Əgər müəllim şagirdə hazır bilik verərsə, onu ancaq yadda saxlamaq lazım gəlir. Heç şübhəsiz, belə halda şagirddən müvafiq idrak fəaliyyəti gözləmək mümükün olmur. Pis müəllim həqiqəti olduğu kimi çatdırır, yaxşı müəllim isə həqiqətə çatmağın yolunu öyrədir. Məhz müəllimin müasir təlim prinsiplərindən istifadə edərək təlim-tərbiyə sisteminin balanslı şəkildə qurulması fizikanın tədrisində müvafiq mövzuların öyrənilməsində şagirdin təlimə marağına səbəb olan amillərdən biridir. Bugün bütün məktəblərdə fəal idrak prinsipindən istifadə edərək elə tədris prosesi təşkil olunmalıdır ki, o , idrak fəallığı, təbii öyrənmə fəaliyyəti doğursun, şagirdə ilk kəşf sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmək həvəsi yaratsın. İdrak fəalığı ilk növbədə təfəkkürün fəallaşdırılması əsasında yaranır. Buna nail olmaq üçün birinci növbədə təlim prosesində idrak fəallığını stimullaşıran problemli situasiyalar yaradılmalıdır. Uşaqda bu problemin həlli tələbatının yaranması nəticəsində bütün idrak prosesləri də fəallaşır, o, yeni bilkləri kəşf etməyə yönəlir. [1]

Fizikanın tədrisində yeni texnologiyalardan, o cümlədən interaktiv təlim metodlarından istifadə şagirdlərin dərs prosesində fəallığını artırır. Buna görə də interaktiv təlim metodlarından istifadə edən hər bir fizika müəllimi özü interaktiv texnologiyalardan istifadəyə hazır olmalı, dərsə qədər nəql edəcəyi hər bir hadisəni əvvəlcədən nəzərə almağı bacarmalıdır. Bu istiqamətdə tədris proqramının əsas mahiyyətinə xüsusi diqqət yetirilməlidir.

Fizika proqramlarında hər mövzu üzrə nəzəri, laborator, ekskursiya və praktik materialların həcmi göstərilmişdir. Məsələn: Fiziki anlayışlar., Fiziki kəmiyyətlər və onların ölçmə vasitələri mövzusunda şagirdlər fiziki anlayış və kəmiyyətlərlə tanış olmalı və praktikada tətbiq etməyi bacarmalıdır. Bu mövzu ilə əlaqədar şagirdlərə cihazları (ruletka, tərəzi, menzurka və s.) sərbəst şəkildə istifadə etmək bacarıqları aşılanmalıdır. Şagirdlər əməkdaşlıq prinsipi əsasında mayelərin və kiçik ölçülü bərk cismlərin həcmini ölçmək üçün işlədilən bölgülü qab-menzurka və cismlərin kütlələrini təyin etmək üçün tərəzi və çəki daşlarından istifadə edərək sərbəst şəkildə təcrübə apara bilərlər. Bu da onu göstərir ki müəllim-şagird qarşılıqlı münasibətləri sistemində bu subyektlərin hər biri təlim prosesində tərəf müqabili kimi iştirak etməlidirlər. Təlim müddəti ərzində müəllim və şagird arasında yaranan qarşlıqlı əks əlaqə, onların tərəfdaş kimi münasibətləri bu prinsipin əsasını təşkil edir. Müəllim şagirdə obyekt yox subyekt yəni öz əməkdaşı kimi yanaşır. Müəllim tərəfindən sinifdə şagirdə belə bir imkan yaradıldıqda, şagirdlər özlərini rahat hiss edir və fikirlərini səsləndirməkdən çəkinmirlər. Öz bacarıqlarını aşkara çıxarmaqdan qorxmurlar. Belə olduğu halda müəllim, onların potensial imkanlarını rahatlıqla müəyyən edə bilir. Müəllim şagirdləri fəallaşdırıcı və ruhlandırıcı mühitlə təmin edir. [3]

İstər təlim şəraitində, istərsə də tərbiyə şəraitində, istifadə edilən metodlar, texnikalar, üsul və vasitələr tez-tez təzələnməlidir. Dövrün tələbi nəzərə alınaraq sistemli şəkildə inkişaf etdirilməlidir. Müəllim təlim müddətində şagirdlərin fərdi imkanlarını nəzərə alaraq yanaşmalı, onların hər birinin qavrama səviyyələrinə uyğun tədris metodologiyası seçməlidir.

Ədəbiyyat

1. Bayramova L. Kurikulum və pedaqoqika. Bakı, 2019.
2. Metodika və pedaqoqika. Maksimum tədris mərkəzi. Bakı, 2022.
3. Təlim prosesində yeni texnologiyalar. Bakı, 2011.

РЕЗЮМЕ

СОЗДАНИЕ ОБРАЗОВАТЕЛЬНО-ВОСПИТАТЕЛЬНОЙ СРЕДЫ С ИСПОЛЬЗОВАНИЕМ СОВРЕМЕННЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ И СОВРЕМЕННЫХ ПРИНЦИПОВ ОБУЧЕНИЯ ФИЗИКЕ

Гашимова А.И., Садыгова С.Р.

***Ключевые слова**: обучение, образование, сотрудничество, учитель, ученик, интерактивное обучение*.

Исследования и изучения, проводимые в системе образования, позволяют прийти к выводу, что новые технологии обучения играют важную роль в приобретении знаний обучающимися. Термин «новая технология обучения» относится к систематическому применению методов и принципов, реализуемых преподавателями и учащимися посредством их сотрудничества. Как в обучении, так и в образовании используемые методы, приемы, и инструменты должны часто обновляться. Их следует планомерно развивать с учетом требований времени.

SUMMARY

CREATİON OF AN EDUCATİONAL ENVİRONMENT USİNG MODERN PEDAGOGİCAL TECHNOLOGİES AND MODERN PRİNCİPLES OF TEACHİNG PHYSİCS

Hashimova A.İ., Sadigova S.R.

***Key words:** training, upbringing, cooperation, teacher, student, interactive learning*

The researches and studies carried out in the educational system allow us to come to the conclusion that new learning technologies have an important role in acquiring knowledge for learners. The term "new learning technology" refers to the systematic application of methods and principles implemented by teachers and students through their cooperation. Both in training and education, the methods, techniques, methods and tools used must be updated frequently. It should be systematically developed taking into account the demand of the time.

NÜVƏ ENERGETİKASI VƏ EKOLOGİYA PROBLEMİ

Qocayev M.M., Qurbanov M.M.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

qocayev.52@mail.ru

***Açar sözlər**: enerji, nüvə sintezi, reaktor, termonüvə reaksiyası, ekologiya*.

Məqalə nüvə enerjisinin mövcud vəziyyətini ətraflı təsvir edir. Nüvə enerjisinin digər enerji sahələri ilə müqayisədə üstünlükləri və çatışmazlıqları göstərilir. O, həmçinin ekoloji problemləri ətraflı təhlil edir və onların aradan qaldırılmasının mümkün yollarını göstərir.

Məlum olduğu kimi hazırda həm enerji həm də ekologiya problemi qlobal problemə çevrilmişdir. Bu problemlərin birinin həlli, digərindən çox asılı olduğundan hər iki problemin həlli ancaq birgə aparılmalıdır. Bununla əlaqədar hər iki problemin həlli fiziklərin qarşısında da böyük məsələlər qoyulmuşdur.

Hazırda nüvə fizikası, plazma fizikası , bərk cisim fizikası, kvant radiofizikası və digər fizika sahələri həm dünyadakı enerji problemini , həm də ekologiya problemini həll etmək üçün güclü bir cəbhə yaratmışlar.

XX- əsrin 2-ci yarısında əsrin əvvəlləri ilə müqayisədə, adam başına işlədilən enerji tələbatı 8 dəfə çoxalmışdır. Bu dəyişiklik , hər şeydən əvvəl iqtisadiyyatın , mədəniyyətin və elmin sürətli inkişafı ilə əlaqədardır. Hesablamalar göstərir ki, yeni enerji mənbələrinin axtarışı, enerjinin alınması , çevrilməsi saxlanması və ötürülməsi üçün ayrılan vəsait çox vaxt dövlət büdcəsinin yarısından çoxunu təşkil edir. Onu da qeyd etmək lazımdır ki, hər bir ölkədə energetikanın inkişafı, həmin ölkədə sənaye potensialını və bütövlükdə ölkənin inkişaf tempini müəyyən edir. İstehsalın bütün sahələrinin inkişafı yalnız həmin sahələrin lazımi enerji təminatından asılı olur. İstənilən dövlət öz iqtisadiyyatını ilk növbədə özünün malik olduğu yanacaq-enerji ehtiyatları əsasında inkişaf etdirir. Azərbaycan dövləti də belə dövlətlərdəndir.

Dünya miqyasında baxıldıqda son illərdə aparılmış hesabatlar göstərmişdir ki, dünyada 300 milyard tondan da az neft qalmışdır. Əgər ABŞ-ları kimi bir ölkəni götürsək, neft ehtiyatlarının cəmi 6 faizi bu ölkənin payına düşür. Başqa sözlə 18 milyard ton . Əgər nəzərə alınsa ki, bu neft ehtiyatlarının hələlik ancaq 6-9 milyard tonunu çıxarmaq mümkündür. Müasir inkişaf tempinə görə bu , Amerika üçün cəmi 12-15 il müddətinə çatar.

Hazırda atom elektrik stansiyalarının (AES) istehsal etdiyi enerji, ümumi enerji həcminin təxminən 20 faizini təşkil edir. Bu isə hər ildə təxminən 500 milyon ton neftə qənaət etmək deməkdir.

Burada bir məsələni də nəzərə almaq lazımdır ki, enerji ehtiyatlarının çox hissəsi əhalinin sıx məskunlaşdığı ərazilərdən çox-çox uzaqlardadır. Burada enerji daşınması probleminin həlli də ön plana çıxır. Doğrudur, nüvə energetikası enerji qıtlığını kəskin şəkildə azalda bilər. Lakin bu sahənin ekoloji fəsadlarını nəzərə aldıqda çoxlu çətinliklər meydana çıxır. Odur ki, problemin həllini , başqa bir sahədə, istilik-nüvə reaksiyalarından istifadə sahəsində görürlər.

Ümumiyyətlə atom energetikasından söhbət apararkən , ilk növbədə xidmət edən işçi heyətin sağlamlığının qorunması, eləcə də ətraf mühiti radioaktiv izotoplarla çirklənmədən qorumaq üçün etibarlı müdafiə üsulları ilə təmin edilməsi nəzərdə tutulmalıdır. Atom energetikası sahəsində qarşıya çıxan problemlərdən biri də odur ki, burada nüvə yanacağı kimi işlədilən uranın alındığı uran filizinin də miqdarı getdikcə azalır. Elə ona görə də müasir atom energetikası tədriclə sürətli neytronlarla işləyən elektrik stansiyalarına keçir.

$_{92}U^{238}$ izotopunun nüvələri , enerjisi 6eV-dan 200eV-dək olan neytronları güclü şəkildə udur. Təbii uranda bu izotopun miqdarı daha çox olduğundan , $_{92}U^{235}$ nüvələri ilə çevrilmə reaksiyaları apararkən buraxılan neytronların çoxu $_{92}U^{238}$ izotopu tərəfindən udulduğundan reaksiya qısa müddətdə dayanır. Odur ki, zəncirvari reaksiyanın getməsi üçün ancaq $_{92}U^{235}$ nüvələrindən istifadə etmək lazım gəlir. Bu nüvələrin bölünməsi nisbətən kiçik sürətli neytronlarla (bu neytronlara istilik neytronları da deyilir) aparılır. İstilik neytronlarının sürəti 2200m/san tərtibində olur ki, buna uyğun enerji 1/40 eV-a bərabərdir.

Təbii uranla işləyən reaktorlarla ancaq belə "yumşaq" neytronlarla işləmək əlverişlidir. Bu halda $_{92}U^{235}$ nüvələri istilik neytronlarını udaraq başqa bir radioaktiv elementə çevrilir. Bu reaksiyalar aşağıdakı şəkildə gedir:

$$_{92}U^{235} + {}_{0}n^{1} \rightarrow {}_{55}Cs^{140} + {}_{37}Rb^{94} + {}_{2}n^{1}$$

$$_{92}U^{238} + {}_{0}n^{1} \rightarrow {}_{92}U^{239} \rightarrow \beta \rightarrow {}_{93}Np^{239} \rightarrow \beta \rightarrow {}_{94}Pu^{239}$$

Zəncirvari reaksiya sürətli neytronlarla gedir. Bu tip neytronların enerjisi təqribən 2 milyon ev olur.

Hazırda bəşəriyyətin energetik gələcəyinin təmin edilməsi baxımından istilik-nüvə reaktorlarının qurulması imkanlarına ən çox ümid bəslənir. Beləliklə, nüvə enerjisi sahib olmaq üçün ağır izotopların bölünməsi yeganə yol deyildir. Yüngül nüvələrin sintezi bəşəriyyətin praktik olaraq tükənməz enerji mənbəyi ilə təmini probleminin həllinin açarı hesab edilir.

Hesablamalar göstərir ki, nüvə energetikası enerji qıtlığının ömrünü təxminən 5-10 min il qısaltmış olur.

Nüvə sintezi üçün hidrogenin deyterium ($_{1}H^{2}$) və tritium ($_{1}H^{3}$) izotopları istifadə edilməsi daha əlverişli üsul hesab edilir.

Hidrogen və helium nüvələri əsasında aparılan istilik nüvə reaksiyalarını belə şəkildə yazmaq olar:

$$_{1}H^{1} + {}_{1}H^{1} \rightarrow {}_{1}H^{2} + e^{+} + \nu$$

Burada 1,4 MeV enerji ayrılır. Bundan sonrakı reaksiya belə gedir:

$$_{1}H^{2} + {}_{1}H^{1} \rightarrow {}_{2}He^{3} + \gamma$$

Burada da 5,49 MeV enerji ayrılır.

Nəhayət helium izotopları ilə reaksiya belə şəkildə davam edir:

$_2He^3+_2He^3 \rightarrow _2He^4+_1H^1+_1H^1$

Bu reaksiyada 12,85 MeV enerji ayrılır. Yekunda $_2He^3$ nüvəsi $_2He^4$ilə toqquşaraq $_4Be^7$ izotopuna çevrilir. Bu reaksiyanı belə yazmaq olar:

$_2He^3+_2He^4 \rightarrow _4Be^7 + \gamma$

Bundan sonra berellium nüvəsi elektronu zəbt edərək litium nüvəsinə çevrilir. Sonda reaksiya belə şəkildə yekunlaşır:

$_3Li^7+_1H^1 \rightarrow _2He^4+_2He^4$

Reaksiya yüksək temperaturda (10-20 milyon dərəcədə) hidrogenin atom nüvələrinin qovuşması nəticəsində helium nüvəsi və böyük sürətlə uçan neytron yaranması ilə gedir. Bu halda külli miqdarda (17,6MeV) enerji ayrılır. İstilik-nüvə reaksiyaları zamanı energetik uduş sərf edilən enerjidən 1000 dəfə çox olur.

İstilik -nüvə reaksiyalarında bir üstünlük də ondadır ki, burada istifadə edilən nüvə yanacağı praktik olaraq daha ucuz başa gəlir və onun miqdarı tükənməzdir.

Hazırda idarə edilə bilən istilik-nüvə reaksiyalarının aparılması istiqamətində geniş tədqiqat işləri görülür. Bu sahədə mövcud ideyaların texniki cəhətdən həyata keçirilməsi hələ qabaqdadır.

Ədəbiyyat

1. Yəhyayev R. Nüvə energetikası və energetika. Bakı: Azərb. Dövl. Nəşr., 1984, 101s.

РЕЗЮМЕ

ЯДЕРНАЯ ЭНЕРГЕТИКА И ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

Курбанов М. М , Годжаев М.М

***Ключевые слова**: энергетика, ядерный синтез, реактор, термоядерная реакция, экология*

В статье подробно описаны современные состояния ядерной энергетики. Указаны преимущества и недостатки ядерной энергетики по сравнению с другими областями энергетики. здесь также подробно анализированы экологические проблемы и указаны возможные пути их устранения.

SUMMARY

NUCLEAR POWER AND ENVIRONMENTAL ISSUES

Gurbanov M.M , Godzhaev M.M.

***Key words**: energy, nuclear fusion, reactor, thermonuclear reaction, ecology.*

This article describes in detail the current state of nuclear energy. The advantages and disadvantages of nuclear energy in comparison with other areas of energy are indicated. It also analyzes environmental problems in detail and indicates possible ways to eliminate them.

KVANT FİZİKASININ YARANMASINDA BAŞ VERƏN MÜHÜM HADİSƏLƏR

Zeynalov H.İ., Qarayeva E.S.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

qocayev.52@mail.ru

***Açar sözlər**: osilliyator, diskretlik, Plank sabiti, təsir kvantı, işıq kvantının impulsu*

Kvant fizikasının yaranmasında baş verən mühüm hadisələr.Məqalədə kvant nəzəriyyəsinin dəqiq yaranma tarixi və kvant fizikasının yaranmasında baş verən mühüm hadisələr xronoloji ardıcıllıqla verilmişdir.

Kvant fizikası və onun necə yaranması haqda söhbət açmazdan öncə, onun ümumi mənzərəsini və xronoloji ardıcıllıqla əsas hadisələrin gedişini təsvir edək. Əksər elmi istiqamətlərdən fərqli olaraq kvant fizikasının dəqiq yaranma tarixinin 1900-cu il oktyabr ayı olduğunu söyləyə bilərik. Bu o vaxta təsadüf edir ki, alman fizik nəzəriyyəçisi Maks Plank ilk dəfə olaraq, çox böyük cəsarətlə, belə bir nəticəyə gəlmişdir ki, osiliyatorun enerjisi, başqa sözlə, öz tarazlıq vəziyyəti ətrafında rəqs edən zərrəciyin enerjisi kəsilməz olaraq yox, sıçrayışla dəyişir. Məlumdur ki, klassik fizikaya görə istənilən mexaniki sistemin enerjisi kəsilməz olaraq dəyişir. Lakin klassik statistik fizikaya əsasən qızmış cismin şüalanma intensivliyi, tezliyin artması ilə artır. Təcrübədə isə tezliyin artması ilə şüalanmanın intensivliyi eksponensial olaraq azaldığı müşahidə edilir.. Bu ziddiyəti izah etməyə cəhd edərkən Plank öz kəşfini etmişdir. Bundan başqa şüalanma intensivliyinin temperaturdan və tezlikdən asılılığını təsvir edən düsturları da vermişdir ki, bu da

eksperimentdən alınan nəticələrlə çox yaxşı uyğunluq təşkil edir. Bu işlərinə görə Maks Plank 1918-ci ildə Nobel mükafatına layiq görülmüşdür.

Kvant fizikasının yaranma tarixində növbəti mühüm hadisə 1905-ci ildə baş verdi. Albert Eynşteyn işıq kvantları hipotezini irəli sürdü və göstərdi ki, fotoeffekt qanunlarını işığın dalğa nəzəriyyəsinə görə yox, işıq kvantlarına görə izah etmək daha təbii olar. Bu hipotezə görə işığı kvant zərrəcikləri dəstəsi kimi təsvir etmək olar və bu zərrəciklərin enerjisi onun tezliyi ilə düz mütənasibdir. Beləliklə, Eynşteyn Nyutonun işığın korpuskalyar nəzəriyyəsini bərpa etdi. Halbuki, bu nəzəriyyədən fiziklər keçən əsrdən imtina etmişdirlər. Fotoeffekt hadisəsi kəşf olunmasından əvvəl bütün işıq hadisələri yalnız dalğa nəzəriyyəsinə görə izah edilirdi. İşığın korpuskalyar nəzəriyyəsinin heç bir nəzəri və eksperimental əsası yox idi. Fizikilər Eynşteynin işıq kvantları haqqında hipotezini dərhal başa düşmədilər. Bu hipotez Plankın diskretlik ideyasını mexaniki sistemdən elektromaqnit sahəsinə gətirməkdən ibarətdir. Eynşteynin işıq kvantları haqqında hipotezini fiziklər 20 il sonra qəbul etdilər. Bu işlərinə görə Albert Eynşteyn 1921-ci ildə Nobel mükafatına layiq görülmüşdür.

1913-cü ildə 27 yaşlı Danimarka alimi Nils Borun "Atom və molekulun quruluşu haqda" məqaləsi çıxdı. Bu məqalədə Bor, Plankın enerjisinin diskretliyi haqda ideyasını elektronların atomda hərəkətinə şamil edərək yaydı. Bununla da atomun spektral xətlərinin diskretliyi dərhal izah edildi. Spektral xətlərin enerjisi elektronun iki mümkün olan hallarının enerjiləri fərqinə bərabərdir. Beləliklə atomun stabilliyi izah olundu. Bor çox böyük dəqiqliklə spektrial xətlərin tezliyini hesablamağa imkan verən düsturlar aldı. Nils Bor Rezerfordun kəşf etdiyi atomun planetar modelinin kvant nəzəriyyəsini yaratdığına görə 1922-ci ildə Nobel mükafatına layiq görülmüşdür. .

1923-cü ildə Lui de Broyl o dövrlər üçün çox təəcüblü olan ideya irəli sürdü. Bu ideya ondan ibarətdir ki, maddi zərrəciyin hərəkəti dalğavari proseslə əlaqəlidir. Lui De Broyl elektronun dalğa təbiətinə malik olduğunu kəşf etdiyinə görə 1929-cu ildə Nobel mükafatına layiq görülmüşdür.

Eynşteynin işıq özünü həm dalğa, həm də zərrəcik kimi aparır. hipotezinə əsaslanaraq Lui de Broyl belə fikir irəli sürdü ki, elektron da özünü həm dalğa, həm də zərrəcik kimi göstərir. Bu analogiyadan istifadə edərək zərrəciyə uyğun gələn dalğavari prosesin dalğa uzunluğunu tapdi.

$$'\lambda = \frac{h}{P}$$

h- Plank sabiti, P-zərrəciyin impulsudur.Plank sabitinə təsir kvantı da deyirlər.

Eynşteynə görə, məhz bu düsturla işıq kvantının impulsu elektromaqnit dalğasının bu dalğa uzunluğu ilə təyin olunur. Eynşteynə görə məhz bu düsturla işıq kvantının impulsu ona uyğun elektromaqnit dalğasının uzunluğu ilə əlaqədardır.

1927-ci ildə elektronların kristaldan səpilməsində rentgen şüalarının difraksiyasına oxşar olaraq, elektronların müəyyən bucaqlar altında difraksiya maksimumları verməsi müəyyən olundu. Lakin bu kəşfdən əvvəl Verner Heyzenberq və ondan bir qədər sonra Ervin Şredinger nəinki sərbəst zərrəciklərin, hətta xarici sahədə hərəkət edən zərrəciklərin dalğavarı hərəkətini təsvir edən yeni mexanikanın işlənib hazırlanmasına başlamışlar. 1926-cı ildə Şredinger dalğa funksiyası üçün özünün məhşur tənliyini aldı və onu hidrogen atomuna tətbiq etdi. Borun kvantlanma qaydası təsdiqləndi. Mikrozərrəciklərin hərəkətini təsvir edən yeni mexanika kvant mexanikası adını aldı. Demək olar ki, dalğa funksiyasının fiziki mənası dərhal aydınlaşmağa başladı. 1926-cı ildə Maks Born isbat etdi ki, dalğa funksiyası zərrəciyin bu və ya digər nöqtədə olması ehtimalını təsvir edir. Müasir dillə desək, dalğa funksiyası informasiya dalğasıdır. 1927- ci ildə Heyzenberq qeyri- müəyyənlik münasibətini alır. Bu münasibətə əsasən zərrəciyin koordinatını ölçmək cəhdi onun impulsunda qeyri – müəyyənliyə gətirib çıxarır, başqa sözlə, klassik trayektoriya anlayışını mikrozərrəciklərə tətbiq etmək olmaz. Fizikada ilk dəfə olaraq bu və ya digər hadisənin statistik sistem üçün yox, ayrıca götürülmüş zərrəcik üçün ehtimalını təsvir edən tənlik yarandı. Məlum oldu ki, yarımspinə malik sistemin zərrəcikləri, məsələn elektronlar sistemi antisimmetrikdir, bu isə o deməkdir ki, iki zərrəciyin koordinatının yerini dəyişdikdə dalğa funksiyası öz işarəsini dəyişir, yəni Fermi- Dirak statistikasına tabe olur. Lakin tam spinli kvantlar sistemi simmetrikdir, yəni iki zərrəciyin koordinatının yerini dəyişdikdə dalğa funksiyasının işarəsi dəyişmir. Başqa sözlə, Boze- Eynşteyn statistikasını ödəyir.

Ədəbiyyat

1 Cəfərov İ.H. Kvant fizikasına giriş. Bakı: Nurlan, 2011.

2. Савельев И.В. Курс общей физики.Том 3. М.: Наука. " Главная редакция физико математической литературы. 1979.

РЕЗЮМЕ
ОСНОВНЫЕ ЯВЛЕНИЯ ПРИ ЗАРОЖДЕНИИ КВАНТОВОЙ ФИЗИКИ
Зейналов Г.И., Караева Е.С.

Ключевые слова: *осциллиятор,дискретность,постоянная Планка, квант действия, импульс светого кванта*.
В статье показано точное время создания квантовой теории и основные явления в хронологической последовательность при зарождении квантовой физики.

SUMMARY
CHRONOGICAL SEQUENCE OF THE CREATION OF THE QAANTUM PHYSICS THEORY.
Zeynalov H.İ., Qarayeva E.S.

Key words: *oscillator, discresity, plancks constant, quantum of action, light quantum impulse.*
The paper states the exact time of the creation of quantum physics and the chronogical sequence of events in its creation.

ELEKTROMAQNİT İNDUKSİYA MÖVZUSUNUN ƏSAS QANUN VƏ ANLAYIŞLARININ ELMİ METODİK ANALİZİ

İmanova K. S., Məlikova Y.Q.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
konul_79@inbox.ru

Açar sözlər: *maqnit sahəsi, cərəyan elementi, eksperiment, maqnit induksiyası, indikator, nisbilik nəzəriyyəsi.*

Fizika kursunun dərindən mənimsənilməsində bu fənnin hər bir bölməsində olduğu kimi elektromaqnit hadisələri mövzuları da həm keyfiyyət, həm də kəmiyyət baxımından təhlil olunması vacib şərtlərdən biridir. Maqnit induksiya vektorunun yaranma şərtlərinin təhlili sayəsində bu hadisənin mahiyyəti və fiziki mənasının açılması baş verir.

Şagirdlər, cərəyanın maqnit sahəsi ilə "Elektromaqnit hadisələri" mövzusunda (IX) sinif fizika təliminin birinci mərhələsində ilk dəfə tanış olurlar. Bu mövzuda bütün məsələlərə keyfiyyət səviyyəsinə görə baxılır[2]. Bu isə lazım olan suallar çevrəsini müəyyən edir. Lakin daha dəqiq olsun deyə bu məsələlər kəmiyyət xarakterli olmalıdır. Sonradan isə həmin məsələlərin keyfiyyət müstəvisində təhlil olunması nəzərdə tutulur. Bunun üçün birinci olaraq – maqnit sahəsinin ən böyük xarakteristikası olan induksiya vektoru və ya maqnit induksiyası anlayışı daxil edilir.

Elektromaqnit hadisələri bölməsində maqnit induksiya anlayışı 3 formada yəni, maqnit sahəsinin 1) cərəyan elementinə; 2) cərəyanlı çərçivəyə; 3) hərəkət edən yükə təsiri kimi verilə bilər [6]. Bu üsullardan hər biri pedaqoji planda üstün və çatışmayan cəhətlərə malikdirlər. Onlardan birinin seçilməsi elektromaqnit hadisələrinin öyrənilməsinin məntiqi olaraq müəyyən edilir. Bu baxımdan bu seçimin nədən asılı olduğunu nəzərdən keçirək:

1) maqnit qarşılıqlı təsiri təsvir edən təcrübələrdən hansı birinin əsas bünövrə kimi qəbul edilməsindən

2) miqdarını xarakterizə etmək üçün maqnit sahəsi indikatorunun seçilməsindən

3) uyğun eksperimentin qurulması, aparılması imkanlarından

4) şagirdlərin inkişaf səviyyəsindən və abstrakt düşünmə bacarığından

Bu nöqteyi nəzərdən maqnit induksiya anlayışının göstərilən üsullarla izah olunmasına nəzər salaq:

1. Maqnit induksiyası anlayışının tədrisi maqnit sahəsinin ayrı-ayrı hərəkət edən yükə təsirinin nəticəsi kimi izah olunması daha maraqlı olardı. Bu halda yeni növ qarşılıqlı təsirin xüsusiyyətlərinə baxmaq olar. Bu əsas xüsusiyyət odur ki, maqnit qarşılıqlı təsir hərəkət edən yüklərlə əlaqəlidir[4].

Maqnit induksiyasının təcrübə vasitəsilə tədris olunmasının giriş metodikası da məlumdur. Burada cərəyanlı naqilin, elektron şüa borusunda elektron dəstəsinə təsiri təcrübəsini göstərə bilərik. Maqnit hadisələrinin öyrənilməsinə belə yanaşmada "diqqətlə yerinə yetirilmiş təcrübələrin nəticələrinə" istinad edərək, bir birinə paralel hərəkət edən elektrik yüklərinin qarşılıqlı təsir qüvvəsi üçün belə bir ifadə yazmaq olar:

$$F_M = k' \frac{q_1 q_2 \upsilon_1 \upsilon_2}{R^2} \qquad (1)$$

Burada, heç bir ölçmə və hesablama olmadan cərəyanlı naqilin maqnit sahəsinin təsiri ilə elektron dəstəsinin meyl etməsi nümayiş olunur. Bundan başqa bu təcrübə məktəb şəraitində maqnit induksiyasını ölçmək üçün istifadə oluna bilməz. Belə ki, belə yanaşmada maqnit induksiya vektorunun modulu

$$B = \frac{F_{MAKS}}{q\upsilon} \tag{2}$$

ifadəsi ilə təyin olunur.

Hansı ki, bura daxil olan kəmiyyətlərdən heç biri birbaşa ölçülə bilməz. Ona görə də maqnit induksiyasının təcrübə vasitəsilə ölçülməsi başqa üsulla yəni, maqnit sahəsinin cərəyan elementinə təsiri əsasında aparılır.

2. Maqnit induksiya anlayışının izahı (daxil edilməsi) cərəyanlı çərçivəyə maqnit sahəsinin burulğanlı təsiri kimi verilməsi müəyyən üstünlüyə malikdir. Bu metod ali məktəb kurslarında və orta məktəb dərsliklərində istifadə olunur.

Maqnit sahəsi cərəyanlı çərçivəni müəyyən qədər oriyentasiya edir. Bu isə tarazlıq vəziyyətində, bütün konturu əhatə edən, müsbət normal istiqamətində səthə doğru yönəlmiş maqnit sahəsinin induksiya vektorunun istiqamətini təyin etməyə imkan verir.

Bu üsulla verilən girişdə induksiyanın modulu bu ifadə ilə təyin olunur:

$$B = \frac{M_{MAKS}}{IS} \tag{3}$$

Maqnit induksiyasına belə giriş verilməsinin üstünlüyü, həmçinin ondan ibarətdir ki, qapalı konturun kifayət qədər dəqiqliklə yaratdığı, kiçik çərçivə formasında olan maqnit sahəsi indikatoru çox asanlıqla reallaşa bilər. Belə ki, ötürücü naqillərdə bir-birinə əks istiqamətlərdə cərəyan axır və maqnit sahəsinin onlara təsiri qarşılıqlı kompensə olunur. Lakin göstərilən üstünlüklərlə yanaşı bu metodun bir sıra çatışmazlıqları da vardır.

Çərçivə formasında maqnit sahəsinin indikatorunu hazırlamaq nisbətən asandır, lakin tədris zamanı (3) ifadəsini daxil edərkən, nisbətin miqdarını təyin etmək imkanını verən indikator hazırlamaq çox çətindir. Məhz buna görə belə indikator orta məktəbdə öz tətbiqini tapmamışdır.

Qeyd etmək lazımdır ki, qüvvə momenti anlayışına əsaslanaraq, maqnit induksiyasının təyin etmə metodu, yeni anlayışın daxil edilməsini tələb edir. Bu cərəyanlı konturun maqnit momenti anlayışıdır $P_M = IS$. Bu yeni anlayışın daxil edilməsi məktəb fizika kursu üçün əlavə çətinliklər yaradır. Bundan başqa şagirdlər qüvvə anlayışını daha yaxşı qavrayırlar, nəinki, qüvvə momenti anlayışını.

3. Maqnit sahəsinin cərəyan elementinə təsiri ilə yaranan maqnit induksiyasına verilən giriş metodikası geniş yayılmışdır. Bu metoddan həmçinin orta məktəb şagirdləri üçün olan fizika kurslarında istifadə edilmişdir.

Maqnit induksiyasının bu üsulla tədris olunmasında əsas təcrübə olaraq cərəyanlı naqillərin qarşılıqlı təsiri təcrübələri götürülmüşdür[4]. İki cərəyan elementi arasında qarşılıqlı təsir qüvvəsi Amper qanunu ilə təyin olunur ki, bu qanun da uyğun təcrübələrin ümumiləşməsi nəticəsində müəyyən olunmuşdur:

$$d\vec{F} = k' \frac{I_1 d\ell_1 J_2 d\ell_2}{r_{12}^2} \tag{4}$$

Aydındır ki, Amper qanununu məktəb fizika kursunda differensial formada deyil, daha sadə formada yəni, I_1 cərəyanlı sonsuz uzun düz naqilin, $I_2 \Delta\ell$ - cərəyan elementinə təsiri kimi verilir:

$$F = k' \frac{I_1 I_2}{\Gamma} \Delta\ell \tag{5}$$

Maqnit induksiyasının belə öyrənilmə metodikası məktəb nümayiş eksperimentinə əsaslanaraq və qüvvə üçün Amper qanunundan istifadə edərək maqnit induksiya vektorunu ölçmək üçün olan laboratoriya işini aparmağa imkan verir. Skalyar formada Amper qanunu cərəyan elementi üçün belə yazılır[8].

$$F = BI\Delta\ell \sin\alpha \tag{6}$$

(5) və (6) düsturlarından cərəyanlı düz naqildən r məsafədə olan tədqiq edilən nöqtədə maqnit induksiyası üçün $B = k\frac{I}{r}$ alınır.

Maqnit sahəsinin cərəyan elementinə təsiri ilə olan maqnit induksiya anlayışının verilmə metodikasının üstünlüyü, məktəb fizika kursu üçün daha qiymətlidir və IX sinifdə maqnit sahəsinin tədrisinin məqsədə uyğun olduğunu təyin edir.

Maqnit induksiyasının müxtəlif üsullarla verilməsini analiz etdikdən sonra, əsasında nisbilik nəzəriyyəsinin ideyaları olan, maqnit hadisələrinin öyrənilməsinin prinsipcə yeni yanaşmasını nəzərdən keçirək. Belə yanaşmada maqnit sahəsinə, hərəkət edən hesablama sistemində elektrik sahəsinin dəyişməsinin bir nəticəsi kimi baxılır. Belə yanaşma ideyasını A.Eynşteyn söyləmişdir. Özünün müxbirlərindən birinə o belə yazmışdır: "Az-çox bilavasitə məni xüsusi nisbilik nəzəriyyəsinə gətirib çıxaran – maqnit sahəsində hərəkət edən cismə təsir edən qüvvə, elektrik sahəsinin meydana gəlməsi nəticəsində olan bir şeydir kimi fikirlər olmuşdur"[9]. Bu ideya bir sıra metodik ədəbiyyatlarda öz əksini tapmışdır. Bu ədəbiyyatların xüsusi cəhəti ondan ibarətdir ki, o fizikanı dərindən öyrənmək istəyən orta məktəb şagirdləri üçün nəzərdə tutulub. Bu vəsaitlərdə elektromaqnit hadisələrin öyrənilməsi xüsusi nisbilik nəzəriyyəsinin nəticələrinə əsaslanır, hansı ki, daha da təfərrüatı ilə Lorens çevrilmələri də daxil olmaqla mexanikada öyrənilir. Orta məktəbdə bütün fizika kursunun strukturunu və məzmununu cüzi olaraq dəyişmədən maqnit hadisələrinin öyrənilməsində verilən bu yanaşmanın mümkün olmaması səbəbi – xüsusi nisbilik nəzəriyyəsinin nəticələrinə əsaslanmağın vacib olmasıdır[9].

Hal-hazırda nisbilik nəzəriyyəsi elementləri Lorens çevrilmələri də daxil olmaqla X sinifdə tədris olunur.

Elektromaqnit induksiya hadisəsi 1831-ci ildə Faradey tərəfindən çoxlu sayda təcrübələrin köməyilə kəşf edilmişdir (şəkil 1).

I təcrübə. Ucları qalvanometrə bağlanmış makaraya sabit maqnit daxil edilərkən, maqnitin makaraya daxil edilməsi və ondan çıxarılması proseslərində qalvanometr əks istiqamətli cərəyan meydana çıxdığını göstərir. Cərəyanın şiddəti maqnitin makaraya nəzərən yerdəyişmə sürətindən asılı olur (şəkil 1a).



a) б)

Şəkil 1.

II təcrübə. Qalvanometrə bağlanmış makaraya şiddəti idarə edilə bilən cərəyan mənbəyinə bağlanmış başqa bir makara daxil edilir. Dövrənin qapanması və açılması zamanı, habelə daxildəki I makara dövrəsindən keçən cərəyanı dəyişdirdikdə, onu əhatə edən II makara dövrəsində cərəyan yaranır.

III təcrübə. Makaraların bir-birinə yaxınlaşdırılması zamanı da dövrədə cərəyan yaranır. Beləliklə, ölçü cihazı bağlanmış makara sarğılarını kəsən maqnit selinin dəyişdiyi bütün hallarda dövrədə induksiya cərəyanı yaranır. Dəyişmənin səbəbinin əhəmiyyəti yoxdur. Bu hadisə elektromaqnit induksiya hadisəsi adlanır[2].

İnduksiya e.h.q.-nin maqnit selinin dəyişməsindən asılılığını tapmaq üçün enerjinin saxlanma qanunundan istifadə edək. Bu məqsədlə bir tərəfi yerini dəyişə bilən cərəyanlı kontur götürək (şəkil 2.). Həmin konturu onun müstəvisinə perpendikulyar istiqamətdə yönəlmiş bircinsli maqnit sahəsinə daxil edək. Kontura təsir edən e.h.q.-nin təsirilə dövrədən i-cərəyanı axacaqdır. Cərəyən mənbəyinin dt-müddətində gördüyü iş

$$dA = \varepsilon \cdot i \cdot dt \qquad (7)$$

ilə ifadə edilir. Konturun hərəkət edə bilən tərəfi hərəkətsiz olduqla iş tamamilə Coul-Lens istiliyinə çevrilir:

$$dQ = Ri^2 dt$$



Şəkil 2.

Naqil dt -müddətində sabit υ -surətilə 1-1 vəziyyətindən 2-2 vəziyyətinə keçdikdə Amper qüvvəsi

$$dA^* = i\ d\Phi \tag{8}$$

işi görməlidir. Burada ki, $d\Phi$ maqnit selinin dəyişməsidir. Bu iş cərayan mənbəyinin gördüyü işdir. Beləliklə, cərəyən mənbəinin işinin bir hissəsi Coul-Lens istiliyinə, digər hissəsi isə maqnit sahəsində görülən işə sərf edilir. Onda enerjinin saxlanma qanunu

$$\varepsilon\ idt = Ridt + id\Phi \tag{9}$$

kimi ifadə edilməlidir. İfadənin şəklini dəyişdirib hər tərəfini dt -yə bölsək,

$$i = \frac{\varepsilon - \frac{d\Phi}{dt}}{R} = \frac{\varepsilon + \varepsilon_i}{R}$$

münasibətini alırıq. Harada ki,

$$\varepsilon_i = -\frac{d\Phi}{dt} \tag{10}$$

induksiya elektrik hərəkət qüvvəsidir.

Ədəbiyyat

1. İmanov S.Ş. Orta məktəbdə fizika tədrisi metodikası. Bakı, 2004.səh.244-245.
2. Murquzov M, Abdullayev S., Abdurazaqov R., Əliyev N., Fizika-9, 2007, 226 s.
3. KərimovY.Q. Təlim metodları, Bakı: Nur, 2007, 196 s.
4. QaralovZ.İ. Fizika qanunlarının tədrisi, Bakı: Maarif, 1997, 318 s.
5. Orucov V.Ö. Fizikanın tədrisi metodikası üzrə nəzəri və eksperimental tədqiqaların metodikası və texnologiyası. Bakı, 2012, 126 s.
6. Хайкин С.Э. Физические основы электричество. М.: «Наука», 1971, 296 с.
7. Бугаев В.А. Методика преподование физики в средней школе. . М.: «Наука», 1982, 268 с.
8. Малафеев Р.И. Проблемное обучение физике в средней школе. . М.: «Наука», 1980, 384 с.
9. Einstein, Albert. "Time, Space, and Gravitation" . The Times. 28 November 1919.

РЕЗЮМЕ

НАУЧНО-МЕТОДИЧЕСКИЙ АНАЛИЗ ОСНОВНОГО ЗАКОНА И ПОНЯТИЙ О ПРЕДМЕТЕ ЭЛЕКТРОМАГНИТНОЙ ИНДУКЦИИ.

Иманова К.С., Маликова Я.Г.

***Ключевые слова**: магнитное поле, элемент тока, эксперимент, магнитная индукция, индикатор, теория относительности.*

При глубоком освоении курса физики одним из важных условий является анализ темы электромагнитных явлений как в качественном и в количественном отношении, так и в каждом разделе этого предмета. Благодаря анализу условий формирования вектора магнитной индукции раскрывается сущность и физический смысл этого явления.

SUMMARY

SCIENTIFIC AND METHODOLOGICAL ANALYSIS OF THE BASIC LAW AND CONCEPTS ON THE SUBJECT OF ELECTROMAGNETIC INDUCTION.

Imanova K.S., Malikova Y.G.

***Key words**: magnetic field, current element, experiment, magnetic induction, indicator, theory of relativity.*

With a deep mastery of the course of physics, one of the important conditions is the analysis of the topic of electromagnetic phenomena, both in qualitative and quantitative terms, as in each section of this subject. Due to the analysis of the conditions for the formation of the magnetic induction vector, the essence and physical meaning of this phenomenon is revealed.

MƏSƏLƏ HƏLLİNİN PSİXODİDAKTİK TƏHLİLİ

Lətifova S.S., Həşimova A.İ.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

hasimovaaynur@gmail.com

***Açar sözlər**: anlayış, məsələ, didaktika, idrak prosesi, təfəkkür.*

Metodik ədəbiyyatların təhlili əsasında belə ümumi bir fikrə gəlib məsələ anlayışına tərif vermək olar, fizikadan məsələ-bu elə bir situasiyadır ki, o şagirdlərdən fikri və praktik fəaliyyət tələb edir, bu fəaliyyət

nəticəsində şagirdlər fizikadan onun qanunları və metodları əsasında biliklər əldə edir, əldə edilən bilikləri praktikaya və təfəkkürün inkişafına tətbiq etmək bacarığına yiyələnirlər.

Məsələ anlayışının mahiyyətini daha aydın başa düşmək üçün, qabaqca həmin anlayışa psixoloqların və didaktiklərin vermiş olduqları tərifləri nəzərdən keçirək.

Görəmli psixoloq A.N. Leontyev "məsələ" anlayışına "Subyektdən bəzi əməliyyatları icra etməyi tələb edən situasiya kimi tərif verir". Q.S. Kostyuka görə məsələ dedikdə "Subyektdən məlum olanlar əlaqələrdən istifadə etməklə naməlumu tapmaq üçün bəzi əməliyyatları icra etməyi tələb edən situasiya" kimi başa düşülür. A. Nyuell isə məsələ anlayışını subyektdən "Məlum olanlar əsasında əlaqələrdən istifadə etməklə naməlumu tapmaq üçün subyektin bəzi əməliyyatları icra edən üsula-alqoritmə malik olmadığı halda məlum olanlar əsasında icra etməyi tələb edən situasiya" kimi ifadə edir.

Yuxarıda verilmiş tərifləri təhlil etmiş olsaq görərik ki, A.N. Leontevə görə "məsələ" anlayışı daha geniş və daha ümumidir. O, subyektdən müəyyən əməliyyatları icra etmək üçün zəruri olan bütün situasiyaları nəzərdə tutur. Bunlar həyatı, tədrisi didaktik, ümumi pedaqoji, psixoloji, iqtisadi və s. məsələləri əhatə edə bilir.

Q.S. Kostyuka görə isə məsələ anlayışı bir qədər konkretləşir. O əsasən tədris və elmi fəaliyyətlə əlaqədar situasiyaları əhatə edir: naməlumu müəyyən etmək üçün onun məlumatlarla əlaqələrindən istifadə olunmasını məsləhət bilir. Məsələnin həlli onun alqoritminin məlum və ya naməlum olmasından asılı olmur. Əgər məsələ həllinin alqoritmi, məsələn, fizikadan dinamika qanunlarına aid məsələlərin həllinin alqoritmi məlumdursa, o zaman məsələ nisbətən daha asan həll olunur. əgər məsələ həllinin alqoritmi məlum olmursa o zaman həll böyük müstəqillik, yaradıcılıq, axtarış və daha çox əqli gərginlik tələb edir.

L. Nyusellə görə "məsələ" anlayışı bu axırıncı deyilən kimi subyektdən məsələni həll etmək üçün axtarışlar aparmağı tələb edir. Bu əlbəttə son zamanlarda problem adlanan situasiya ilə üst-üstə düşür. Deməli məsələ həlli əsasən problem situasiya xarakteri daşımalıdır

Haqqında danışdığımızhər üç tərifdə məsələ anlayışının mərkəzi yerini "əməliyyat" anlayışı tutur. Hər bir əməliyyatda məqsəd, mövzu, motiv və üsul seçilir. V.M. Qluşkov "İnsan və hesablama texnikası" adlı kitabında bunlar haqqında aşağıdakı tərifi verir. "Məqsəd" başqa sözlə müəyyən obyektin vəziyyətinə dair müəyyən edilmiş tələb, bu tələbi həyata keçirmək üçün əməliyyatın (hərəkətin) ona qarşı yönəldilməsi;

-mövzu, başqa sözlə obyekt, əməliyyatın gedişi dövründə yenidən təşkil olunma; əməliyyatın mövzu həm də idealizə edilmiş ola bilər;

-motiv, başqa sözlə tələbat, ödənilməsi üçün əməliyyat öz məqsədinə çatmalıdır;

-üsul, onun vasitəsi ilə əməliyyat icra olunur; əməliyyatın üsulu, onun həyata keçirilməsi üçün tətbiq edilən ardıcıllıqla xarakterizə olunur.

V.M. Qluşkov psixoloji tərifərin ümumiləşdirilməsi sayəsində məsələyə ümumiləşdirilmiş elmi mənada tərif verir. Ona görə məsələ ən ümumi mənada müəyyən həlledici sistemlərin aparacağı əməliyyatları müəyyənləşdirən situasiyadır.

Göründüyü kimi bu tərifdə "subyekt" anlayışı "həlledici sistem" anlayışı ilə əvəz edilmişdir. Bu cür əvəz olunma məsələ həll etmək üçün tələb olunan vasitələrin imkanını artırmışdır, artıq bizə məlumdur ki, məsələni yalnız təkcə insan həll etmir, buna görə də "əməliyyat" anlayışı da pxixoloji məzmun baxımdan dəyişilir, daha genişlənir. Burada məqsəd əməliyyatın mövzusundan və ona verilən tələbdən asılı olaraq həlledici sistemin necə kodlaşdırılması kimi qiymətləndirilməlidir. Motiv isə psixologiyada baxılan kimi başa düşülə bilməz, ancaq həll üçün alqoritmin necə qurulmasından, başqa sözlə həlledici sistemin necə hərəkət etməsindən, əməliyyatın icra olunma yolundan danışmaq olar. Əməliyyatın mövzusunu isə obyekt və obyektlər sistemi şəklində düşünmək lazımdır.

A.A. Smirnovun redaktorluğu ilə nəşr olunan psixologiya dərsliyində qeyd edilir ki, məqsəd, uyğun yönəlmiş fəal təfəkkür, sözün geniş mənasında "həmişə məsələ həlli hesab edilir".

Metodik və tədris ədəbiyyatında məsələ adı altında adətən məqsədəuyğun şəkildə seçilmiş terminlər başa düşülür ki, bunların əsas vəzifəsi fiziki hadisələrin öyrənilməsi, anlayışların formalaşdırılması, şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsi və onların qazandığı biliklərin praktikaya tətbiq etmək bacarığına yiyələnməkdən ibarətdir.

Tədris praktikasında və elmi metodik ədəbiyyatda məsələ anlayışına verilən tərifər arasında sərhəd qoymaq zənnimizcə düzgün hesab edilə bilməz. Eyni bir anlayışa müxtəlif tərifərin verilməsi məqsədəuyğun deyildir. Indiki zamanda müəllim praktikası öz inkişafını ümumi və xüsusi didaktika elmi biliklərin konkretləşdirilməsi əsasında həyata keçirir. Məsələ anlayışına o zaman müxtəlif tərifər vermək olar ki, onların hər birinin əsasında müxtəlif cür yanaşmalar olsun. Məsələ anlayışına verilən bu tərifər bir-birindən nə ilə fərqlənir?

Birinci tərif fizika məsələlərinin həlli metodu əsasında, ikinci isə həllinin tədris işində tətbiqi əhəmiyyətini əhatə etməklə müəyyən edilmişdir.

A.V. Usova və N.N. Tulkibayeva fizikadan məsələ həlli anlayışını konkretləşdirməyə çalışmış və ona bir tədris situasiyası kimi baxmışlar. Məhz bu situasiya nəticəsində şagirdlər fikri və praktik fəaliyyət icra edir, fizikadan biliklərə yiyələnir, öz təfəkkürünü və praktik fəaliyyətini inkişaf etdirir.

V.P. Orexova A.V. Usovanın redaktorluğu ilə nəşr edilən "Orta məktəbin 8-10-cu siniflərində fizika tədrisi metodikası" adlı kitabda məsələ anlayışına didaktik baxımdan belə baxılır: "Tədris praktikasında fizika məsələsi adətən çox da böyük olmayan problemə deyilir, bu problem ümumi halda fizika qanunları və metodları əsasında məntiqi fikir, riyazi əməliyyat və eksperimentin köməyi ilə həll edilir". Fizikadan tədris prosesində materialın öyrənilməsi zamanı meydana çıxan hər bir sual mahiyyət etibarı ilə məsələ hesab edilə bilər. Məsələ anlayışına ümumi tərif vermək üçün bir neçə xüsusi metodikaları da nəzərdən keçirmək olar. "Riyaziyyat tədrisinin ümumi metodikası" (rus dilində) kitabında V.V. Repyev belə izahat verir: "Hər bir məsələdə nə verdiyi göstərilir və nəyin yerinə yetirilməsi barədə tələblər qoyulur məsələ həll etmək imkanı üçün verilən və axtarılanlar arasında funksional asılılığın olması zəruridir.
Yalnız funksional asılılığın olması məsələni həll etməyə imkan verir. Beləliklə hər bir məsələ şərtdən, funksional asılılıqdan və tələbdən ibarət olur".

V.M. Bardis belə hesab edir ki, hər bir riyazi sualı məsələ adlandırmaq olar. Lakin həmin suala cavab tapmaq üçün keçilən kursa aid hər hansı nəticələr, teorem və təriflər üzərində sadə əməliyyatlar aparmaqla kifayətlənmək olmaz. Y.V. Xodakovun "7-8-ci siniflərdə kimyanın tədrisi" (rus dilində) adlı kitabında məsələ və terminlər arasında sərhəd müəyyən edilmişdir. Orada qeyd edilir ki, məsələ terminlərdən onunla seçilir ki, onun şərtində hər hansı bir situasiya qoyulur, onun əsasında nəzəri və praktik əhəmiyyəti olan sual meydana çıxır. Məsələ həll edilərkən əməliyyatlar icra olunur və bunlar termin xarakteri daşıyır, lakin qeyd edilməlidir ki, məsələ sadəcə olaraq terminlər yığımı deyildir, məsələ terminlərdən fərqli olaraq şagirdlərdən məsələnin şərti əsasında nəticəni əldə etmək üçün hansı əməliyyatları yerinə yetirmək lazım olduğunu və hansı ardıcıllığı gözləməyi tələb edir. Müəllif məsələ və terminləri didaktik baxımdan da fərqləndirir. Məsələ şagirdlərdə kitabdan aldıqları bilikləri müxtəlif şəraitlərdə praktikaya tətbiq etmək bacarığı aşılamaq məqsədi daşıyır. Terminlər isə müəyyən əqli və əməli vərdişləri formalaşdırmağa xidmət edir. Terminlər isə müəyyən əqli və əməli vərdişləri formalaşdırmağa xidmət edir. Müəllif belə hesab edir ki, yeni bilik əldə etmək və təkrarlamaq üçün müəyyən təcrübələri icra etmək kimi tapşırıqları məsələ hesab etmək olmaz. Əlbəttə məsələ anlayışına yuxarıda verilən tərif didaktik baxımdan çox dardır. Didaktik baxımdan məsələ həllinin əhəmiyyətinə gəldikdə isə Y.B. Xodakovun fikrinə nisbətən bu daha genişdir. Burada eksperimental məsələlərin həllinə xüsusi yer verilir. Fikrimizcə bu daha vacibdir.
Məsələ anlayışına Y.M. Kolyaqin və başqa müəlliflər daha ümumi tərif verərək göstərirlər ki, məsələ situasiyadan ibarətdir, onun həlli üçün qərar qəbul etmək lazımdır. Ensklopedik kitablarda məsələ anlayışına dair aşağıdakıları oxuya bilərik: məsələ qarşıya məqsəd qoyur, ona çatmaq üçün səy göstərilir; məsələ tapşırıqlar sistemidir; həll edilməsi üçün müəyyən bilik, bacarıq və fikirləşmə tələb edən sual və ya problemdir; şagirdlərin praktik fəaliyyətini yoxlayan təlim metodlarından biridir. Pedaqoji ensiklopediyada məsələ anlayışından danışarkən göstərilir ki, "məsələ həlli bu və digər fənnə aid elmi biliklər sistemini əldə etməyə xidmət edir" və onun xarakterik cəhətləri aşağıdakı kimi qeyd edilir; qoyulmuş bu və ya digər suala cavab vermək, istənilən nəticəni əldə etmək üçün şagirdlər qarşısında qoyulan məqsəd; məsələni həll etmək üçün mövcud şərt və tələblərin hesabı; mövcud məqsədə çatmaq üçün üsul və qaydalardan istifadə etməklə həlli yerinə yetirmək.

L.M. Fridman məsələ anlayışına müəyyən edilmiş sistem kimi baxır. D.V. Elkolin göstərir ki, tədrisdə məsələnin anlayışı ümumiyyətlə məsələ anlayışından fərqli olaraq elə situasiyadan ibarətdir ki, onun həlli üçün həlledici müəyyən proses, üsul, prinsip və ya praktik əhəmiyyətli həyata keçirmək üçün "mexanizmə" malik olur.

Fizikadan məsələ anlayışına verdiyimiz tərifdən aydın olur ki, fizika məsələsi riyazi və digər tip məsələlərdən, onların termin xarakterindən fərqlənərək daha geniş məna kəsb edir. Burada bacarıq, vərdiş, praktik fəaliyyət mexaniki yer tutmur, məsələ həlli elmi biliklərin dərinləşməsi, genişlənməsi və yeni faktlarla zənginləşməsi ilə müşayət olunur. Hər bir məsələ şagird üçün yeni informasiya və onun bir əlamətini daşımış olur. Beləliklə də məsələ həlli başqa keyfiyyətlərlə yanaşı şagirdlərin dünyagörüşünün inkişafına güclü təsir göstərir.

Ədəbiyyat

1. İmanov S.Ş. Orta məktəbdə fizika tədrisi metodlarının seçilmə prinsipi və təsnifi. Bakı: ADPİ, 1998.
2. Калашников С.Г. Электричество: учебник для Университетов. М.: Высшая школа, 1983.
3. Уемов А.И. Аналогия в практике научного иследования. М.: Наука,1970, 234 с.

РЕЗЮМЕ
ПСИХОДИДАКТИЧЕСКИЙ АНАЛИЗ РЕШЕНИЯ ЗАДАЧ ПО ФИЗИКЕ
Латифова С.С., Гашимова А.И.

***Ключевые слова**: понятие, проблема, дидактика, познавательный процесс, мышление.*

На основе анализа методической литературы можно прийти к общему представлению и дать определение понятию задачи.Задачей в физике является ситуация, требующая от учащихся размышлений и практики.В результате этой деятельности учащиеся приобретают знания по физике на основе ее законов и методов, приобретают умение применять полученные знания на практике и развиывют свое мышление.

SUMMARY
PSYCHODACTIC ANALYSIS OF PROBLEM SOLVING
Latifova S.S., Hashimova A.I.

***Key words**: concept, problem, didactics, cognitive process, thinking.*

Based on the analysis of methodological literature, one can come to a general idea and define the concept of a problem. A task in physics is a situation that requires students to think and practice. As a result of this activity, students acquire knowledge of physics based on its laws and methods, acquire the ability to apply acquired knowledge in practice and development of thinking.

FİZİKANIN TƏDRİSİNDƏ DİDAKTİK PRİNSİPLƏRİN ROLU

Məmmədov F.Ə., Sadıqova S.R., Ziyadova S.Ş.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
mammadov_fuad@bk.ru

Açar sözlər: *didaktik prinsiplər, təhsil, proses, tədris, dünyagörüşü.*

Məqalə ali təhsil pedaqogikasının aktual problemlərindən biri olan tədrisdə normativ funksiyaları yerinə yetirən didaktik prinsiplərə və onların tədris prosesində roluna həsr edilmişdir. Məqalədə didaktik prinsiplər tədrisin keyfiyyətinə təsir edən amillərdən biri kimi qiymətləndirilir.

Elmi-texniki tərəqqinin coşğun inkişafı, siyasi və iqtisadi böhranların yaratdığı problemlər insanların müvafiq qərarlar qəbul etməklə müsbət nəticələr əldə etmək üçün səmərəli fəaliyyət göstərməsini tələb edir. Müasir dövrdə cəmiyyət ekoloji, sosial və iqtisadi problemlərin həllində təhsilin üstünlüyünü və həlledici rolunu daha yaxından hiss etməyə başlamışdır [1].

Gənc nəslin cəmiyyətin və dövlətçiliyin quruculuğunda aktiv iştirak etməsi, vətənpərvərlik ruhunda böyüməsi və onlar tərəfindən bu kimi bir sıra pozitiv xüsusiyyətlərin əldə edilməsi vacib məsələlərdən biridir. Bu günün gənclərinin gələcəkdə cəmiyyətin layiqli vətəndaşı olmasında təlim-tərbiyə işlərinin düzgün qurulmasının xüsusi əhəmiyyəti vardır. Gənc nəslin yetişməsində təlim-tərbiyə işlərinin mərhələli surətdə ardıcıl və arasıkəsilmədən aparılması mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Müasir dövrdə bu işdə həm ümumtəhsil tam orta məktəblərin həm də ali məktəblərin üzərinə böyük məsuliyyət düşür.

Ali məktəblərdə müasir dövrün tələblərinə uyğun olaraq təlim-tərbiyə işlərinin təkmilləşdirilməsi üçün müəllimin fəaliyyəti ilk növbədə mövcud şəraitdə bu proseslərin kompleks şəkildə təhlili və qiymətləndirilməsindən, mümkün pozitiv dəyişikliklərin isə empirik və nəzəri biliklərin rasional qarşılıqlı əlaqəsini şərtləndirən nəzəriyyə əsasında həyata keçirilməsindən ibarətdir.

Yüksək səviyyəli mütəxəssislərin hazırlanmasında təlim-tərbiyə proseslərinin elmi əsası ali məktəb pedaqoqikası ilə müəyyən olunur. Ali məktəb pedaqoqikası tədqiqat predmetinin fəlsəfi və metodoloji mahiyyətinin dərk olunmasında və təhsildə normativ funksiyaları yerinə yetirən didaktik prinsiplər kompleksinə riayət olunmasında tədris prosesini istiqamətləndirir [2].

Bu sahədə aparılmış tədqiqatlara müvafiq olaraq təhsil sistemi ilə cəmiyyətin digər sistemləri arasındakı qarşılıqlı əlaqəni aşağıdakı qanunauyğunluq şəklində ifadə etmək olar:

- Təhsil prosesi cəmiyyətin inkişafının tələbləri ilə müəyyən olunur.
- Təhsil prosesi maariflənmə, təlim-tərbiyə və pedaqoji prosesin ümumilikdə inkişafı ilə bağlıdır.
- Təhsil prosesi real tədris imkanlarından asılıdır.
- Təhsil prosesi mövcud şəraitdən asılıdır.
- Təhsil prosesinin təşkili formaları tədrisin mahiyyəti, metodları və qarşıya qoyulan məsələləri ilə müəyyən olunur.

Yuxarıda göstərilən qanunauyğunluqlar təhsil prosesinin daxili və xarici əlaqələrini əhatə edir. Bu qanunauyğunluqların varisliyinin təzahürü olan praktiki təcrübələr və tədris prosesinin effektiv həyata

keçirilməsini şərtləndirən didaktiv prinsiplər ali məktəb pedaqoqikasında bu iddiadan çıxış edir. Təbii ki, axırıncılar qanunauyğunluqlardan çıxır, həm də onlarla mürəkkəb funksional əlaqədə olurlar.

Tədris prosesində didaktik prinsiplər aşağıdakılardan ibarətdir:

1. elmi və fəlsəfi dünyagörüşü;
2. nəzəriyyə ilə praktikanın, praktiki təcrübə ilə elmin əlaqəsi;
3. mütəxəssislərin hazırlanmasında sistemlilik və ardıcıllığın yerinə yetirilməsi;
4. sərbəst işlərin yerinə yetirilməsində tələbələrin şüurluluğu, aktivliyi və müstəqilliyi;
5. biliyin individual axtarlşı;
6. abstrakt təfəkkürün əyani tədris ilə əlaqələndirilməsi;
7. elmi biliyin mənimsənilməsində uyğun metodların seçilməsi;

Didaktik prinsiplər ali məktəblərin praktikasının zənginləşməsinə səbəb olub, pedaqoji məqsqdlərə nail olmanın üsullarını müəyyən edir.

Lakin bununla yanaşı təcrübəyə əsaslanaraq bu sistemin məzmun və tamlığının qiymətləndirilməsinə tənqidi yanaşmaqla ali məktəblərin müasir təcrübəsinə və yeni tələblərinə uyğun olaraq didaktik prinsiplər siyahısına daha ikisini də əlavə etmək məqsədə uyğun olar:

- təhsil və təlim-tərbiyə proseslərinin professional istiqamətləndirilməsi
- tədrisin tələbələrin elmi-tədqiqat işləri ilə əlaqələndirilməsi

Bu prinsiplərdən birincisi təhsil prosesində ali məktəblərin təlim-tərbiyə intizamına uyğun olaraq gələcəyin mütəxəssislərində peşəkarlıq xüsusiyyətləri formalaşdırır. İkinci prinsip isə onlarda elmi-texniki tərəqqinin tələblərinə müvafiq olan yaradıcılıq vərdişləri və bacarıqları aşılayır.

Pedaqoqikanın tərkib hissəsi olan didaktika tədris prosesinin ümumi qanunauyğunluqlarını öyrənməklə onun inkişaf nəzəriyyəsinin yaradılmasını şərtləndirir. Tədris metodikası didaktikanın məxsusi qaydada əksolunmasıdır. Məhz buna görə tədris metodikasının əsasını yaradarkən tədris prosesinə tətbiq olunan didaktik prinsiplərin məzmununun konkretləşdirilməsi vacib amillərdəndir.

Məntiqi olaraq didaktik prinsiplərə tamlıq və sistemli yanaşma metodu və bu metodların qarşılsılı əlaqəsi baxımından yanaşıldıqda bu prinsiplərin mahiyyəti tamamilə açıqlanır [3].

Ümumiyyətlə, elmi ədəbiyyatlarda didaktik prinsiplər arasında elmi və fəlsəfi dünyagörüşü prinsipi əlamətlərinə görə aparıcı prinsiplərdən biri kimi qəbul edilmişdir. Bu prinsip ətraf aləmlə təmasdan əxz olunmuş ümumiləşmiş biliyin təhsil prosesi zamanı əldə edilmiş elmi biliklərlə obyektiv əlaqələndirilməsini və dərk olunmasını əks etdirir.

Ədəbiyyat

1. Orucov V.Ö. Azərbaycanda fizikanın tədrisi metodikasının inkişafı. Bakı: Bakı Universiteti, 2011, 260 s.
2. Бабанский Ю.К. Взаимосвязь закономерностей принципов обучения и способов его оптилизации // Сов. педагогика. 1982, № 11, с. 30-32.
3. Бабанский Ю.К. Об актуальных вопросах методологии дидактики. // Сов. педагогика. 1978, №9, с. 45-55.
4. Бабанский Ю.К.Оптимизация учебно-воспитательного процесса. М.: Просвещение, 1982, 192 с.
5. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 448 s.

РЕЗЮМЕ

РОЛЬ ДИДАКТИЧЕСКИХ ПРИНЦИПОВ В ПРЕПОДАВАНИИ ФИЗИКИ

Мамедов Ф.А., Садыгова С.Р., Зиядова С.Ш.

Ключевые слова*: дидактические принципы, образование, процесс, преподование, мировоззрение.*

Статья посвящена дидактическим принципам выполняющим нормативные функции в обучении и их роли в учебном процессе, которые являются одним из актуальных проблем педагогики высшей школы. В статье дидактические принципы оцениваются как один из факторов, которые влияют на качество преподавания.

SUMMARY

THE ROLE OF DIDACTIC PRINCIPLES IN TEACHING PHYSICS

Mamedov F.A., Sadiqova S.R., Ziyadova S.Sh.

Keywords: *didactic principles, education, process, teaching, world outlook.*

Article is devoted to the didactic principles carrying out standard functions in training and their role in educational process which is one of actual problems of pedagogics of the higher school. In article the didactic principles it is estimated as one of factors which influence quality of teaching.

FİZİKA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALİYYƏTİNİN AKTİVLƏŞDİRİLMƏSİNDƏ İKT- DƏN İSTİFADƏ

Sadıqova S.R., Məmmədov F.Ə.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
mammadov_fuad@bk.ru

Açar sözlər: *idrak, təlim, tədris fəaliyyəti, aktivləşdirmək, təcrübə.*

Şagirdlərin fiziki prosesləri, qanunları başa düşərək dərindən qavraması onların təfəkkürünün inkişafı ilə bağlıdır. İdrak fəaliyyətinin aktivləşdirilməsində İKT- dən istifadənin xüsusi rolu vardır. Şagirdlərin yaradıcı bacarıqlarını, elmi dünya görüşünü və əqidəsinin formalaşmasında, onların yüksək mənəviyyatlı bir şəxsiyyət kimi tərbiyə olunması istiqamətində biliklərə marağın yaradıla bilsində İTK-nin tətbiqi danılmazdır.

Şagirdlərdə idrakı maraqların formalaşdırılması ideyası ən vacib məsələlərdən biridir. Düşünürük ki, şagirdlərin proqramın hər hansı bölməsinin suallarını əzbərləyib, öyrənməkdənsə, evlərində oturub öz vaxtlarının çox hissəsini daha çox xoşladıqları bir sahənin öyrənilməsinə sərf etmələri daha məqsədəuyğundur. Əsas odur ki, hər bir şagirddə müəyyən sahələrə həvəs oyansın, onlar öz maraq dairələrini müəyyən etsinlər və bu istiqamətdə irəliləsinlər. Əməyə yaradıcı münasibət şagirdlərdə ən sadə təcrübələrdən və məsələ həllindən başlayaraq, tədrisin ilkin mərhələlərindən yaradılmalıdır.

Fizika-şagirdlərin yaradıcı bacarıqlarını, elmi dünya görüşünü və əqidəsini formalaşdırır, onların yüksək mənəviyyatlı bir şəxsiyyət kimi tərbiyə olunmasında böyük rol oynayır[1].

Təlimin bu əsas məqsədinə o zaman çatmaq olar ki, tədris prosesində biliklərə maraq yaradıla bilsin, aydın məsələdir ki, ancaq bu halda şagirdlərdə müəyyən mənəvi keyfiyyətlər, əsasən də mərhəmət hissi tərbiyə etmək, onları doğru yola istiqamətləndirmək olar.

Şagirdlərdə idraki maraqların yaradılması onların dərslərdə aktivliklərinin artırılmasına, biliklərinin keyfiyyətinə, təlimin müsbət motivlərinin formalaşdırılmasına, aktiv həyat tərzinə səbəb olur ki, bu da öz növbəsində təlim prosesinin effektivliyinin artırılmasına gətirib çıxarır.

Fizikada şagirdlərin idraki maraqları onların fiziki hadisələrə, faktlara, qanunlara maraqlarından irəli gəlir: onlar malik olduqları nəzəri biliklər əsasında bu hadisələrin mahiyyətini və praktik əhəmiyyətini başa düşməyə, bu hadisələrin dərkolunma metodlarına nəzəri və praktik cəhətdən yiyələnməyə can atırlar.

Şagirdlərin hər hansı bir idraki istiqaməti seçici xarakter daşıyır. Əgər bu və ya digər anlayışlar və ya hadisələr onlara həyat əhəmiyyətli vacib kimi görünərsə, onlar çox böyük həvəslə bununla məşğul olacaq, hadisələri daha dərindən öyrənməyə çalışacaqlar. Əks halda şagirdin marağı təsadüfi, şərti xarakter daşıyacaq.

Şagirdlərdə tədris olunan fənnə maraqları tərbiyə etmək üçün aşağıdakı sxemi təklif etmək olar:

1-ci mərhələ - maraqlardan təəccübə;

2-ci mərhələ - təəccübdən hər şeyi bilməyə can atma;

3-cü mərhələ - davamlı biliklərə və elmi axtarışlara.

Birinci mərhələdə şagirdlərdə maraq – effektli bir təcrübənin nümayişi, fizikanın tarixindən maraqlı bir hekayəyə qulaq asması, yaxud da hər hansı bir fiziki hadisənin müşahidə olunması və s. zamanı yarana bilər. Tədris fəaliyyəti prosesində konkret biliklər ehtiyatının çoxaldılması ilə bir sıra faktların, hadisələrin, qanunların dərk olunması baş verir: get-gedə şagird öz maraq dairəsinin obyektinin real məzmununa daha çox maraq göstərməyə başlayır [2].

Şagirdlərin təlimə marağını artırmağın iki əsas mənbəyini qeyd etmək olar:

1. Tədris materialının məzmunu;
2. Tədris fəaliyyətinin təşkili.

Brinci mənbəyə aşağıdakı stimulları aid etmək olar:

- materialın yeniliyi (öyrənilən faktın, hadisənin, qanunun gözlənilməzliyi);
- mənimsənilən biliklərin yeniləşməsi (öyrənilən biliklərdə əvvəllər məlum olmayan tərəflərin, əlaqələrin, münasibət və qanunauyğunluqların açılması, bu isə artıq məlum olanları tamamlayır və inkişaf etdirir);
- tədrisin tarixi (məşhur elmi kəşflərin tarixi, görkəmli alimlərin bioqrafiyaları və s. haqqında məlumatların daxil edilməsi);
- biliklərin praktik əhəmiyyəti və vacibliyinin göstərilməsi, yəni öyrənilən materialın məzmunu ilə praktikada, həyatda, xalq təsərrüfatında əhəmiyyəti arasında əlaqə);

- müxtəlif sahələrdə müasir elmi – texniki nəaliyyətlərlə tanışlıq: kosmonavtikada, hərbi sahədə, biomexanikada, səhiyyədə, idmanda və s.;

Tədris fəaliyyətinin təşkilinə, yəni ikinci mənbəyə aşağıdakıları göstərmək olar:

- dərslərə şagirdlərin müxtəlif formalı sərbəst işlərini daxil etmək;
- problem təlim;
- praktik işlərin qoyulması (tədqiqat, yaradıcı xarakterli işlər).

Qeyd etmək lazımdır ki, şagirdlərin fənnə marağının formalaşdırılması və inkişaf etdirilməsi müəllimin fəaliyyəti ilə təyin edilir. Müəllim dərs prosesində konkret şərtləri nəzərə alaraq, dərsliyin öyrənilən paraqrafında məhz zəif qeyd olunan yerləri daha geniş şəkildə işıqlandıra bilər[2].

Şagirdlərin idraki fəaliyyətlərinin formalaşdırılması və yaradıcı potensiallarının inkişaf etdirilməsində laboratoriya praktikumlarının da böyük rolu var.

Fizika özünü bir təcrübi elm kimi təsdiq edib, o müxtəlif tədris funksiyalarını yerinə yetirir: yeni hadisələrlə ilkin tanışlıq; öyrənilən materialın illüstrasiyası; hadisələrin kəmiyyət xarakteristikalarının ölçülməsi; şagirdlərdə təcrübi vərdişlərin inkişaf etdirilməsi və s.

Fizikanın öyrənilməsində frontal təcrübələrin rolu müxtəlif ola bilər. Məsələn, şagirdlərin temperatur anlayışı ilə tanışlığı prosesində məsələnin qoyuluşu. Temperatur və onun ölçülməsinə aid mövzularda elə birinci dərsdə təcrübədən başlamaq olar: tədqiq olunan cisimlə termometr arasında istilik mübadiləsinin öyrənilməsi[3].

Beləliklə, fizika dərslərində şagirdlərin idraki fəaliyyətini aktivləşdirmək üçün müxtəlif üsullardan istifadə etmək olar, lakin yadda saxlamaq lazımdır ki, bu aktivləşmə şagirdlərin yerinə yetirdikləri sərbəst işlərlə məşğuliyyətə gətirib çıxarmamalıdır. Təlim prosesində metodika çox vacibdir – görülən işlər maksimal dərəcədə şagirdlərin düşünmə qabiliyyətini, idraki fəallığını inkişaf etdirməyə xidmət etməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminat proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında. 21 avqust 2004-cü il. Azərbaycan Təhsil Siyasəti (1998-2004). Bakı, Çaşıoğlu, 2005, 829 s.
2. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006, 138 s.
3. Qaralov Z.İ. Elmlə məktəbin əməkdaşlığı // “Fizika və riyaziyyatın tədrisi” jurnalı, 36-42 s.

РЕЗЮМЕ

ИСПОЛЬЗОВАНИЕ ИКТ В АКТИВИЗАЦИИ ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ НА УРОКАХ ФИЗИКИ

Садыгова С.Р., Мамедов Ф.А.

***Ключевые слова**: познание, обучение, учебная деятельность, активация, опыт.*

Глубокое понимание учащимися физических процессов и законов связано с развитием их мышления. Особую роль в активизации познавательной деятельности играет использование ИКТ. Бесспорно, что применение ИКТ в формировании у учащихся творческих способностей, научного мировоззрения и убеждений, а также в направлении воспитания их как высоконравственной личности может создать интерес к знаниям.

SUMMARY

USE OF ICT IN ACTIVATION OF COGNITIVE ACTIVITY OF STUDENTS IN PHYSICS LESSONS

Sadigova S.R., Mammadov F.A.

***Key words**: cognition, learning, learning activity, activation, experience.*

A deep understanding by students of physical processes and laws is associated with the development of their thinking. The use of ICT plays a special role in the activation of cognitive activity. There is no doubt that the use of ITC in the formation of students' creative abilities, scientific outlook and beliefs, as well as in the direction of educating them as a highly moral person, can create an interest in knowledge.

FİZİKANIN TƏDRİSİNDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU

Şahsuvarova Q.Ə., Məmmədova R.L.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

mammadov_fuad@bk.ru

Açar sözləri: *informasiya, təhsil resusları, alqoritm, metodika*

Təhsil sisteminin informasiyalaşdırılması (TSİ)-məktəbin informatlaşdırılması ilə birbaşa əlaqədar olub təlimin məzmunun, metodlarını və təşkil formalarını yeniləşdirməklə yeni təlim nəticələrinin alınmasına, məktəbin bütün həyatının modernləşdirilməsinə, bütün fənlərin tədrisində komputer texnologiyasından istifadəyə və fənn müəllimlərinin İKT-dən istifadə səriştəliyinin yüksəldilməsinə xidmət edir. İKT dedikdə informasiyanı fərdi, kütləvi istehsal kommunikasiyaları məqsədi ilə hazırlanması, emal edilməsinə yönəlmiş obyekt, əməliyyat və qaydalar kompleksi, texnologiyası başa düşülür.

Təhsil sisteminin informasiyalaşdırılması son 10 ildə bu sistemdə fəaliyyət göstərən iri həcmli beynəlxalq miqyaslı innovasiyadır. TSİ-ni həyata keçirən İKT-nin əsas istiqamətləri aşağıdakı kimi qəbul edilmişdir.

1. Komputer texnikasından təlim vasitəsi və aləti kimi istifadə;
2. İKT-nin təlim obyekti kimi öyrədilməsi;
3. Şagird yaradıcılığının inkişafında İKT-dən istifadə;
4. İKT ilə nəzarət, textləşdirmə psixodiaqnostika, reaksiya proseslərinin avtomatlaşdırılması;

İKT-nin təhsil sisteminə daxil olması müəllim təlim məzmunu, metodu və təşkilat formalarını əsaslı sürətdə təkminləşdirməyə imkan verir. Bu texnologiyaların təhsildə tətbiqinin əsas məqsədi informasiya cəmiyyətində şagirdin in tellektual imkanlarının gücləndirilməsi, təlim prosesinin müasir prinsiplərinin kompleks həyata keçirilməsi və tam prosesin intensivləşdirilməsi, yəni təhsilin bütün pillələrinə təlimin keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır.

TSİ-nin əsas nəticəsi şagirdlərin informasiya ilə zamanı İKT vasitələrindən istifadə qabiliyyətinin formalaşmasıdır. Bu zaman şagirdlər zəruri informasiyası axtarmalı, toplamalı, emal etməli, qiymətləndirməli, bu informasiyalar öz məqsədlərinə uyğun olaraq tətbiq etməyi bacarmalıdılar. Bu qabiliyyətlər şagirdlərə imkan verməlidir ki

1. Fasiləsiz təhsili davam etdirsinlər, həmçinin süni intelektin köməyi ilə təhsil xidmətindən bəhrələnsinlər;
2. Seçdiyi peşə üzrə fəaliyyətə hazırlansınlar;
3. İnformasiya cəmiyyətində biliyə əsaslanan iqtisadiyyat şəraitində yaşamağa, fəaliyyət göstərməyə hazırlansınlar;

TSİ layihəsinin həll etdiyi problemlər;

- tədrisin keyfiyyətinin aşağı düşməsi;
- real həyat situasiyalarında şagirdlərin öz biliklərini tətbiq etməyə kifayət qədər hazır olmamaları;
- təhsil resurslarından istifadə sahəsində qeyri-bərabərliyin yaranması;
- təhsil sahəsində regionların imkanlarının qeyri-bərabərliyi;
- müəllim və başqa təhsil işçilərinin tədris prosesində İKT-dən istifadə imkanlarının və hazırlıqlarının aşağı səviyyədə olması;
- ilkin peşə təhsilinin əmək bazarının tələblərinə uyğun olmaması;
- təhsilin informatlaşması məsələlərinin hüquqi-normativ bazasının uyğun gəlməməsi ilə əlaqədar olmuşdur.

TSİ bu problemlərin kompleks həllini həyata keçirməklə bir-biri ilə qarşılıqlı əlaqədə olan məqsədi özündə ehtiva edir

Birinci məqsəd. Məktəblilərin fəal tədris fəaliyyətlərini təmin edir, onların təşkilatçılığını formalaşdırır, müstəqil öyrənmək bacarığını, lazım olan informasiyanı tapmaq və istifadə etmək, kollektivdə işləmək, qeyri-standart vəziyyətlərdə problemin həllini tapmaq, əvvəllər rast gəlmədikləri məsələləri həll etməyi təmin edir.

İkinci məqsəd. Müəllimlərin və müəllim kollektivinin yaradıcı fəallığını təmin edir, müəllimlərin fərdi və daha fəal təlim metodlarına keçməsinə imkan verir, öz peşəkar fəaliyyətlərində yeni informasiya resurslarından geniş istifadə etməyə kömək edir.

Üçüncü məqsəd. Hər bir maraqlanan şagird yüksək keyfiyyətli təhsil almaq imkanlarını təklif edir, hətta belə xidmət öz oxuduğu məktəbdə olmasa belə. Bu məqsəd internet resurslarından istifadə ilə əlaqədardır

Təlimin kompyuterləşdirilmiş tədris prosesinin alternativ formasının metodik əsaslarının yaradılmasına imkan verməklə differensiallaşmış təlimi həyata keçirir. Hazırda kopyuter texnikası təhsil və özünü təhsilin əlaqələndirilməsinə fəal təsir. Edir. İstənilən proqram təminatlı EHM bazasında öyrədici sistem təşəbbüskarlıq, fərdləşmə, interaktivlik prinsiplərindən birinə istimad etməlidir.

Kompyuter texnologiyası şagirdlərdə lazım olacaq səviyyədəd bilik formalaşdırmaq, onları müqayisəli təhlil etmək, ümumiləşdirmək, mövcud verilənləri işləmək, lazım olan informasiyaları tapmaq və öyrəniləcək materialla əlaqələndirmək bacarığı aşılamaqla, informasiya mədəniyyəti formalaşdırır.

Uşaqları müasir informasiya cəmiyyətinə həyata hazırlayarkən, ilk növbədə onların məntiqi təfəkkürünü inkişaf etdirərək, analiz (obyektin quruluşça ayrılması, qarşılıqlı əlaqənin müəyyən edilməsi, təşkilati prinsiplərin təsəvvür edilməsi) və sintez (yeni sxem, model və quruluşun yaradılması) etmək bacarığı aşılamaqdır. Bu məqsədlə kiçik yaşlı məktəblilərin mətiqi və əməli (alqoritmik) təfəkkürünü inkişaf etdirməyə xidət edən çoxlu proqramlar, inkişafetdirici dərslər üçün metodik göstərişlər, kitabçalar, rənglər və başqa materiallar işlənmişdir.

İnformasiyaların seçilməsi, saxlanması, işlənərək verilməsi və yeniləşdirilərək korrektə edilməsindəə kompyüter texnologiyalarından istifadə müəllimə idarəetmə, layihələndirmə və tədqiq etmə kimi öz səlahiyyətlərinə aid olan prosesləri avtomatlaşdırmağa imkan verir. Müəllim İKT-dən tədris prosesinin elə mərhələsində istifadə etməlidir ki, bu zaman bir sıra mürəkkəb texniki qurğuların, məsələn atom elektrik stansiyaların iş prinsipini, radioaktiv parçalanmanı, mikro və makro aləmdə baş verən hadisə və prosesləri, mikrosxemlər və onların tətbiq sahələrini, mürəkkəb texmoloji prosesləri təbaşir və yazı lövhəsi kimi verbal vasitələrin köməyi ilə nümayiş etdirmək mümkün olmasın.

Kompyuterdən istifadənin effektivliyi bir-biri ilə qarışlıqlı əlaqədar olan texniki, metodiki və təşkilati kimi üç sahənin, sistemli və ciddi təminatı ilə müəyyən edilir. Müasir şəraitdə İKT-nin tətbiqini şərti olaraq üş istiqamətdə (epizodik, sistematik və sinxrom) formalaşdırmaq olar.

İKT-nın)kompyuter texnologiyasının) tətbiqi insanların intellektual imkanlarının artırır, az vaxt ərzində daha çox informasiyanın verilməsini və keyfiyyətli mənimsənilməsini təmin edir.

Fizikanın tədrisində yüksək əyanilik, mikro və makroaləmin olduğu kimi şagirdlərin gözü önündə canlandırılmasında modelləşdirici proqramdan istifadə etmək o vaxt məqsədəuyğun hesab edilir ki, fizika kabinetində tələb olunan qurğu və cihazlar yoxdur, yaxud onun aparılması təhlükəsizlik texnikası qaydalarına görə qadağan edilir, tədris materiallarının zənginləşdirilməsi məqsədi ilə aparılacaq eksperimentin imkanlarını daha da gücləndirmək lazım gəlir. Bütün bunları ümumiləşdirərək deyə bilərik ki, kompyuter modelləşdirilməsindən fizika kursunda aşağıdakı istiqamətdə fizika dərslərində hesablamaların avromatlaşdırılması və məsələ həllində, fiziki hadisə və proseslərin modelləşdirilməsində, fizikadan laboratoriya işlərinin praktikumların və məktəb eksperimentinin yerinə yetirilməsində və onun idarə olunmasında, təsvirlərin münayişində, istifadə edə bilərik.

Son vaxtlar bir sıra müəlliflərin apardıqları tədqiqatlardan məlum olur ki, şagirdilərin biliklərindəki formalizmin aradan qaldırılmasının ən yaxşı üsulu kompyuter modellərilə fiziki eksperimentlərin nümayişidir. Bu məqsədlə bir sıra fundamental fiziki nəzəriyyələrin, qanunların, təcrübələrin (Peren, Ştern, İoffe-Miliken, Frank-Hers və s) modelləşdirilməsinə çox böyük ehtiyac vardır. Bu baxımdan fizika kursunun bütün bölmələri üzrə tərtib edilmiş öyrədici proqramlar paketi, qazların qeyri tarazlıq prosesləri, statistik və kvant fizikasına aid olan təcrübələrin, o cümlədən qeyri-xətti proseslərin modelləşdirilərək göstərilməsi xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlardan başqa tibb eksperimentlərin və bir sıra laboratoriya işlərinin kompyuter modelləri ilə əvəz edilərək, interaktiv şəkildə öyrədilməsində çox yüksək nəticələr əldə edilmişdir. Xüsusən də öçölçülü modellər yüksək səviyyəli əyanilik vasitəsi olub, dərsin istənilən mərhələsində istifadə edilməklə reallığı tam əksa etdirir. Bu zaman kompyuterin rəng imkanlarından istifadə edərək bir sistemli detalları, baş verən fiziki hadisələri müxtəlif rənglərdə göstərməklə daha əyani və güclü effekt yaratmaq olar. Bu da istənilən fiziki hadisə və proses daha canlı obrazlı göstərməyə imkan verir, fiziki mahiyyətin başa düşülərək öyrənilməsini təmin edir.

Ədəbiyyat

1. Məmmədov F.M. Müasir fizikanın metodoloji prinsipləri. Bakı, 2016, 255 s.

РЕЗЮМЕ

РОЛЬ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИИ ФИЗИКИ

Шахсуварова Г.А., Мамедова Р.Л.

Ключевые слова*: информация, образовательные ресурсы, алгоритм, методология.*

Информатизация системы образования (ТСО) напрямую связана с информатизацией школы и служит получению новых результатов обучения за счет обновления содержания, методов и организационных форм обучения, модернизации всей жизни школы, использования компьютерных технологий в преподавании всех предметов, повышения компетентности учителей-предметников в использовании ИКТ. ИКТ означает объект, комплекс операций и правил, технологию, направленную на подготовку и обработку информации в целях индивидуальных, массовых производственных коммуникаций.

SUMMARY
THE ROLE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN TEACHING PHYSICS
Shahsuvarova G.A., Mamedova R.L.

***Key words**: information, educational resources, algorithm, methodology.*

Informatization of the education system (ETS) is directly related to the informatization of the school and serves to obtain new learning outcomes by updating the content, methods and organizational forms of education, modernizing the entire life of the school, using computer technology in teaching all subjects and increasing the competence of subject teachers in using ICT. ICT means an object, a set of operations and rules, a technology aimed at preparing and processing information for the purposes of individual, mass production communications.

BİOLOJİ MƏNŞƏLİ DOLDURUCULARIN AŞAĞI SIXLIQLI POLİETİLENİN DİELEKTRİK XASSƏLƏRİNƏ TƏSİRİ

Səlimova V.V., Lətifova S.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
vefa_24@mail.ru

***Açar sözlər:** biokompozit, metalnanohissəciklər, dielektrik nüfuzluğu və dielektrik itkisi*

Təqdim olunan işdə bioloji mənşəli doldurucular və metal nanohissəciklərlə modifikasiyaolunmuş biokompozitlərin 300- 380K temperatur intervalında dielektrik nüfuzluqlarının və dielektrik itki bucaqlarının tangensinin temperatur asılılıqlarının tədqiqinin nəticələri barədə məlumatlar verilmişdir. Tətqiqatlar 50 nm ölçüdə dəmir nanohissəcikləri və tərkibində 1,3,5,10 və 15 həcm% balıq pulcuğu olan biokompozitlərdə aparılmışdır. Müəyyən edilmişdirki, biokompoazitlərin tərkibində doldurucuların miqadarı artdıqca onların dielektrik nüfuzluqları artır, dielektrik itki bucağının tangensi azalır. Temperaturun dəyişməsi dielektrik nüfuzluğunun qiymətinə təsir etməsədə, 300-340K temperatur intervalında itki maksimum olur.

Son illər üzvi polimerlər əsasında, müxtəlif mənşəli əlavələr edilməklə, yeni tip kompozitlərin alınmasına xüsusi diqqət yetirilir. Canlı aləmdə mövcud olan nanokompozitlərdə böyük elmi praktiki əhamiyyət kəsb edir. Canlı aləmdəki kompozitləri saymaqla qurtarmaq olmaz, buraya bitkilərin gövdələri, canlılarınsümükləri,bütün orqanizmlərin funksional toxumaları daxildir. Bunların içərisində bionanokompozitlər, ocümlədən, balıq pulcuqları xüsusi rol oynayır. Pulcuqlar dərinin hansı hissəsində yerləşməsindən aslı olaraq müxtəlif ölçüdə olurlar. Balıq pulcuqları minerallaşdırılmış təbəqələrdən ibarətdir və onların arasında təbii polimerlər olan kollagenlər yerləşir. Kollagen skeroprotein qrupuna aid edilir və təbii polimer hesab edilir. Onun ilkin quruluşu növbə ilə bir-birini əvəz edən amin turşularının polipeptip zəncirindən ibarətdir. Digər zülallardan fərqli olaraq kollagenin tərkibində oksiprolin, prolin və qlisin üstünlük təşkile dir.Oksiprolindigər zülalların heçbirində kollagendə olduğu miqdar da mövzud deyil. Tədqiqa tişində doldurucu kimi balıq pulcuğunun seçilməsi pulcuğun tərkibində kifayət qədər böyük miqdrada ixtiojelatinin olması ilə əlaqədardır. Bu maddə yeyinti sənayesində quruluş yaradıcı qismində istifadə edilir, yeyinti məhsullarının qorunmasında və saxlanmasında istifadə edilir, tibbdə vəfotoqrafiya sənayesində geniş istifadə olunur.

Nano kompozit materiallar kompozit materiallardan, əsasən, doldurucu hissəciklərin nanometrtərtibində olması ilə fərqlənir. Məhz bu səbəbdəndə yeni nəsil nanokompozit materiallar, daxilində paylanmış hissəciklərin xüsusi səthinin sahəsinin çox böyük olması hesabına bir sıra yeni xassələrə malik olur. Doldurucu polimer əsaslı nanomateriallar özündə kompozitin hər iki fazasındakı komponentlərin xassələrini cəmləməklə yanaşı, fazalar arası qarşılıqlı təsir hesabına yeni xassələr qazanmış olur. Unikal xassəli belə maddələrdən sənayenin müxtəlif sahələrində geniş istifadə edilir. Nanoölçülü hissəciklərdə səth enerjisinin yüksək olması nanohissəciklərin əsas xassələrinin dahada yaxşılaşmasına səbəb ola bilər. Nanohissəciklərin səth enerjisini dəyişməklə polimerin üst molekulyar quruluşunu modifikasiya etməklə, müxtəlif texnoloji üsullarla elektromənfiliyi artırmaq, fazalar arası qarşılıqlı təsiri tənzimləmək olur.

Təqdim olunan işdə doldurucu olaraq balıq pulcuğu, matrisakimi isə aşağı sıxlıqlı polietilen seçilmişdir. Doldurucu olaraq pulcuğun seçilməsi pulcuğun ekoloji baxımdan əlverişli, təbii ehtiyatı çox olan, stabil fiziki parametrlərəmalik olan xammal olmasıdır. Tədqiqat işində metal nanohissəciyin ASPE+xhəcm%BP (BP- balıq pulcuğu) biokompozitlərin dielektrik xassələrinə təsiri tədqiq edilmişdir.

Nanokompozitlərin alınmasında texnoloji baxımdan ənəlverişli üsul qızdırılmaqla preslənmə üsulu hesab edilir. Kompozitlər alınarkən həm matrisaya, həm dədoldurucuya müəyyən tələbatlar qoyulur: plastiklik və mexaniki möhkəmlik, asan işlənmə texnologiyası yüksək dielektriknüfuzluğu,elektrik sahəsinə

qarşı dözümlülük ərimə temperaturunun və şüşələşmə temperaturunun yüksək olması və s..

Fəal doldurucu qismində dayanıqlı və stabil fiziki parametrlərə malik, ucuz, təbii ehtiyatı çox böyük olan balıq pulcuqlarından istifadə edilmişdir. Metal hissəcik olaraq 50 nm ölçülü dəmir nanohissəciklərindən istifadə edilmişdir. Nümunələrin alınması aşağıdakı qaydada aparılmışdır.

Kompozitlərin alınması aşağıdakı parametrlərdən–təzyiqdən, temperaturdan və ərimiş halda olma müddətindən asılıdır. Nümunələr tərkibdən asılı olaraq 5 MPa təzyiq altında polimerinərimə temperaturunda 3 dəqiqə saxlanıldıqdan sonra, elə həmin temperaturda təzyiq 15 MPa-aqədər qaldırılır və bu təzyiqdə kompozit əlavə 5 dəqiqə saxlandıqdan sonra suda soyudulur. Alınmış bionanokompozitlər tədqiqat üçün əlverişli olur[1,səh.49].

Tədqiqatlar 300÷380K temperatur intervalında, tərkibində 1;3;5;10;15 həcm%pulcuq və 1;5;7;10;15 həcm%50 nm ölçülü dəmir nanohissəcikləri olan bionanokompozitlərdə aparıl-mışdır. Bu kompozitlərin dielektrik nüfuzluqlarının və itki bucaqlarının tangesinin temperatur asılılıqları öyrənilmiş, alınmış nəticələr şəkil1-də verilmişdir.

Şəkildən görünürki, tədqiq olunan bionanokompozitlər üçün ε(T) asılılıqları xətti xarak-terlidir, yəni ε-un praktiki olaraq sabit qalması müşahidə edilir. Bundan əlavə tərkibdə pulcuq əlavələrinin və dəmirnanohissəciklərinin artması ilə materialın vacib parametrlərindən biri olan dielektriknüfuzluğunun artması müşahidə edilmişdir. Xüsusi qeyd olunmalıdırki, tərkibində 5həcm%BP və 5həcm%Fe metal nanohissəcik olan nanokompozitin ε(T) asılılığı birqədər fərqli olmuşdur.



Şəkil.ASPE=xhəcm%BP+yhəcm%Fetipnanokompozitlərinindielektriknüefuzluqlarının(a)vədielektriki tkibucaqlarının(b)temperaturasılılıqları:1-x=1;2-x=3;3-x=5;4-x=10;5-x=15.

Biokompozitlərin dielektrik itki bucaqlarının temperatur asılılıqları şəkil 1b-də verilmişdir. Alınmış nəticələr göstərir ki, kompozitlərin tgδ(T) asılılıqlarında 310÷320K və 330-330K temperature intervallarında iki aydın ifadə olunmuş maksimum müşahidə edilir. tgδ(T) asılılıqlarında müşahidə edilən maksimumlar oksidləşmə nəticəsində həmpolyar qrupların sayının artması, həm də quruluş dağılması ilə əlaqədar olaraq kompozitlərin molekulyar çəkisinin dəyişməsi ilə izah ediləbilinər.

Nəticə

Tətqiqatlar 1 həcm%faiz 50nm ölçüdə dəmirnanohissəcikləri və tərkibində 1,3,5,10 və 15 həcm % balıq pulcuğu olan biokompozitlərdə aparılmışdır. Müəyyən edilmişdir ki,biokompozitlərin tərkibində doldurucuların miqadarı artdıqca onların dielektrik nüfuzluqları artır, dielektrik itkibucağının tangensi azalır. Temperaturun dəyişməsi dielektrik nüfuzluğunun qiymətinə təsir etməsdə, 300-340K temperature intervalında itki maksimum olur.

Ədəbiyyat

1. Corcione C.E., Frigione M. Characterization of Nanocomposite by Thermal Analysis. Materials, 2012, vol 5, pp. 2960-2980.
2. Gojayev E. M., Alieva Sh. V., Salimova V.V., Meshalkin A. Yu. , Jabarov S.H. The Influence of UV Irradiation on Dielectric Properties of Biocomposites I, 2020, vol 56, № 6, pp.740-745
3. Gojayev E.M., Nabiyev N.S., Ramazanov M. A., Kahramanov K. Sh., Alieva Sh. V. and Ismailov A.A. Investigations Microreliefof the Surface, Dielectric Properties and Fluorescence Spectrum of Natural Composite // Fish Scales Physical Science International Journal, 6(1):2015, pp.45-53.

РЕЗЮМЕ

ВЛИЯНИЕ НАПОЛНИТЕЛЕЙ БИОЛОГИЧЕСКОГО ПРОИСХОЖДЕНИЯ НА ДИЭЛЕКТРИЧЕСКИЕ СВОЙСТВА ПОЛИЭТИЛЕНА НИЗКОЙ ПЛОТНОСТИ

Салимова В.В., Лятифова С.С

***Ключевые слова**: биокомпозит, металлические наночастицы, диэлектрическая проницаемость и диэлектрические потери*

Выводы. В ходе работы были проанализированные методы неразрушающего контроля, которые используются для оценки технического состояния трубопроводных систем в теплоэнергетике. С использованием перечисленных методов осуществляется своевременный контроль объектов исследования без разбора составных частей и вывода из эксплуатации. Наиболее перспективным методом контроля, с точки зрения автора, является акустический метод контроля, который позволяет осуществлять наиболее эффективный и экономически целесообразный анализ технического состояния конструкции трубопроводного транспорта.

Литература

1. Костюченко А.Ю. Анализ существующих методов неразрушающего контроля строительных конструкций // Аллея науки. –2018. – Т. 1. № 6 (22). – С. 264–268.

2. Старчук Д.В., Дьяков Д.А., Бавыкин О.Б. Анализ комплексного применения методов неразрушающего контроля // В сборнике: Инновационные разработки в обработке материалов давлением и аддитивном производстве. Качество выпускаемых изделий. Материалы Всероссийской научно-технической конференции. – 2019. – С. 356–359.

3. Гапоненко С.О., Кондратьев А.Е., Мустафина Г.Р. Построение математической модели распространения волн лэмба в стальном трубопроводе с защитным наружным покрытием // Известия высших учебных заведений. Проблемы энергетики. – 2022. – Т. 24. – № 4. – С. 3–15.

4. Роберов И.Г., Шкатов П.Н., Грама В.С., Иванов В.О., Зыбин Е.Ю., Киселев М.А., Кузуб И.Г. Применение неразрушающих методов контроля для мониторинга технического состояния конструкционных материалов в процессе эксплуатации // В сборнике: Дополнение к материалам КИМИЛА-2020. Дополнение к материалам IV Отраслевой конференции по измерительной технике и метрологии КИМИЛА-2020. Жуковский. – 2021. – С. 144–152.

5. Гапоненко С.О. Математическая модель вынужденных колебательных процессов для определения динамического отклика дефектных трубопроводов // В книге: Энергия-

2022. Семнадцатая всероссийская (девятая международная) научно-техническая конференция студентов, аспирантов и молодых ученых: Материалы конференции. В 6-ти томах. Иваново. – 2022. – С. 65.

6. Шихов А.И., Дунаева Е.Н. Методы и приборы неразрушающего контроля // Тенденции развития науки и образования. – 2018. – № 43–8. С. 83–85.

7. Василевич Ю.В., Якимович А.М., Язневич А.М., Неумержицкая , Е.Ю. Зубко С.А. Акустический контроль качества изделий. Ультразвуковой дефектоскоп УД4-Т «Томографик»: методическое пособие по дисциплине «Неразрушающий контроль качества» для студентов специальности 1-54 01 02 «Методы и приборы контроля качества и диагностики состояния объектов» / Ю.В. Василевич [и др.]. – Минск: БНТУ, 2011. – 94 с.

XÜLASƏ
BORU SİSTEMLƏRİNİN QEYRİ SINAQ VƏ TEXNİKİ DİAQNOZUNUN İNKİŞAFINDA MÜASİR MEYİLLƏRİN TƏHLİLİ
Qalimova A.R., Qaponenko S.O.

***Açar sözlər**: qeyri-dağıdıcı sınaq, analiz, icazəsiz bağlamalar, akustik üsul, enerji sistemləri, enerji səmərəliliyi*

Məqalədə boru kəməri sistemlərinin dağıdıcı sınaqdan keçirilməsi üsullarının işlənib-hazırlanmasında mövcud tendensiyalar təhlil edilir. Neft-qaz sənayesinin fəaliyyətində prioritet istiqamətlərdən biri magistral neft kəmərində icazəsiz birləşmələrin müəyyən edilməsi üsullarıdır. Neft hasilatının artması və boru kəmərlərinin inkişafı ilə əlaqədar olaraq, icazəsiz birləşmələrin aşkarlanması üçün sistemlərin inkişafı və üsulların modernləşdirilməsi aktual məsələdir. Qeyri-dağıdıcı sınaqların ən təsirli üsullarından biri akustik üsuldur, çünki bir sıra üstünlüklərə malikdir. Akustik üsul pyezoelektrik çeviricidən istifadə etməklə idarə olunan obyektdə elastik dalğaların oyandırılması və əsas rəqs parametrlərinin qeydiyyatı prosesinə əsaslanır. Bu tip diaqnostika obyekti iş rejimindən çıxarmadan birbaşa onun yerində səmərəli şəkildə sorğu keçirməyə imkan verir.

SUMMARY
ANALYSIS OF CURRENT TRENDS IN THE DEVELOPMENT OF METHODS OF NON-DESTRUCTIVE TESTING AND TECHNICAL DIAGNOSTICS OF LABOR-CONDUCTING SYSTEMS
Galimova A.R. , Gaponenko S.O.

***Keywords**: non-destructive testing, analysis, unauthorized tie-ins, acoustic method, energy systems, energy efficiency.*

The paper analyzes the current trends in the development of methods of non-destructive testing of pipeline systems. One of the priorities in the activities of the oil and gas industry is the methods of determining unauthorized tie-ins in the main oil pipeline. Due to the increase in the production of petroleum products and the development of pipelines, the development of systems and modernization of methods for detecting unauthorized tie-ins is an urgent task. One of the most effective methods of non-destructive testing is the acoustic method, as it has a number of advantages. The acoustic method is based on the process of excitation of elastic waves in a controlled object using a piezoelectric transducer and registration of the main parameters of vibrations. Conducting diagnostics allows you to effectively conduct an examination directly at the location of the object, without taking it out of operation.

İSTİLİK ELEKTRİK STANSİYALARININ EKOLOJİ ZƏRƏRİ

İsmayılov M.B.
Mingəçevir Dövlət Universiteti, Bakı, Azərbaycan,
im_mair1975@mail.ru

***Açar sözlər**: yanacaq, kükürt, hava,enerji, bərk yanacaq*

Energetika sektorunda əsas güc mənbəyi istilik elektrik stansiyalarıdır. Dünya üzrə 65 faiz, Azərbaycanda 85 faiz güc istehsalı bu stansiyaların payına düşür. Lakin istilik elektrik stansiyalarında yandırılan yanacaq tullantıları ekologiyanın çirklənməsində böyük faiz təşkil edir. Yeni texnologiyaların tətbiqi və təmizləyici qurğuların faydalı işləməsi bu problemin qismən aradan qaldırılmasına xidmət edər. Alternativ enerji mənbələrinin istifadəsinin genişlənməsi də ekeologiyaya öz müsbət təsirini verəcəkdir.

Azərenerji sistemində hasil olunan elektrik enerjisinin 85%-ə qədəri istilik elektrik stansiyalarında (İES) əldə olunur. Enerji sisteminin qoyulmuş gücünün əsasını istilik elektrik stansiyaları təşkil edir və yaxın illərdə də elektrik enerjisi hasilinin artımı əsasən istilik elektrik stansiyalarının hesabına əldə edilməsi nəzərdə tutulur. Bildiyimiz kimi energetika dedikdə həm istilik, həm də elektroenergetika sənaye sahələri nəzərdə tutulur. Elektroenergetika da özü-özlüyündə istilik energetikasından daha təsirli elektromaqnit radiasiyası ilə atmosferi çirkləndirir.

İES-lərdən su və hava hövzələrinə atılan tullantıların nə dərəcədə zərərli olmasını, təsirini və aradan qaldırma üsullarını araşdırmaqdan öncə bu zərərli tullantıların yaranma səbəbləri və mənbələrinin öyrənilməsi vacibdir. Məlumdur ki, hal-hazırda İES-lərdə, o cümlədən Azerenerji sistemindəki buxar və qaz

turbinli İES-lərin buxar-qazan qurğularında və qaz-turbinli stansiyalarda yanma kameralarında üzvi yanacaqlardan istifadə olunur. Bu üzvi yanacaqların işçi tərkibini hidrogen (H), karbon (C), kükürd (S), oksigen (O_2), azot (N_2), nəmlik (W) və küllük (A) təşkil edir. İES-in qazan qurğularında və yanma kameralarında yanacağın yanma prosesi α=1 şəraitində (α – hava artıqlıq əmsalı adlanır, yanacağın yandırılması üçün ocağa verilən həqiqi hava miqdarının nəzəri tələb olunan hava miqdarına olan nisbəti olmaqla yanacağın növündən və yandırılma üsulundan asılıdır) yanma prosesi tam gedirsə onda atmosferə atılan yanma məhsulları (qaz qarışığı) CO_2, H_2O, SO_2, SO_3 və küldən ibarət olur (kül bərk yanacaqlara məxsusdur), yanma prosesi α>1 şəraitində getdikdə isə atmosferə atılan yanma məhsulunun tərkibində bu qazlardan başqa oksigen də (artıq qalan) mövcud olur. Aydın məsələdir ki, yanma prosesi üçün atmosfer havasından istifadə edildiyindən hər iki halda (α=1; α>1) yanma məhsullarının tərkibində azot qazı mövcud olacaqdır. Bu yanma məhsullarının tərkibindəki SO_2, SO_3 və kül toksiki (zəhərli) hesab olunur.

Yanacağın yanma prosesi natamam getdikdə yanma məhsullarının tərkibində yuxarıda qeyd etdiyimiz tam yanma məhsulları ilə yanaşı çox zəhərli natamam yanma məhsulları olan CO, CH_4, C_2H_4 və konseroqen məhsullar da mövcud olur.[1] Lakin yanma prosesini optimal şəraitdə təşkil etməklə yanma məhsullarının tərkibində bu natamam yanma məhsullarını praktiki olaraq aradan qaldırmaq mümkündür. Digər tərəfdən məlumdur ki, energetikada yəni İES-lərdə üzvi yanacaqlar olaraq bərk, maye və qaz yanacaqlardan istifadə olunur. Bu növ yanacaqlardan ancaq bərk yanacaqlarda külün miqdarı çoxdur. Maye yanacaqlarda külün miqdarı olduqca az, qaz yanacaqlarda isə praktiki olaraq yoxdur. Hal-hazırda İES-lər bərk yanacaqlarla işlədikdə yanma məhsulları ilə atmosferə atılan kül hissəciklərini tutmaq (qazlardan azad etmək) məqsədi ilə yüksək effektə malik kültutucular mövcuddur və atmosferə atılmazdan qabaq yanma məhsullarından külü praktiki olaraq tam azad etməyə imkan verir. Atmosferə atılan yanma məhsullarının tərkibində azot oksidləri mövcuddur və onun miqdarı ilk növbədə ocaqdakı temperatur rejimindən asılıdır. Yanma məhsullarındakı azot oksidlərinin miqdarını azaltmaq məqsədi ilə hal-hazırda bərk yanacaqların ocaqda nisbətən alçaq temperatur şəraitində yandırılması prosesləri işlənilir. Bununla yanaşı eyni zamanda axrıncı illər konserogen natamam yanma məhsullarının təsirinin öyrənilməsinə və xüsusi ilə də bunlardan zəhərli hesab olunan politsiklik aromatik karbohidrogenlərin ən fəalı olan benz-a-pirenin təsirinin öyrənilməsi və araşdırılması sahəsində də geniş tədqiqatlar aparılır.

Təbii şəkildə, daha doğrusu təbiətdə gedən proseslər nəticəsində atmosferə atılan zərərli tullantılardan fərqli olaraq yuxarda qeyd olunan zərərli tullantılar antropogen tulantılar adlanır. Təbiətdə gedən təbii proseslər nəticəsində atmosferə atılan tullantılar ola bilsin ki, bəzi hallarda sənaye müəssisələrdə atılan tullantılara nəzərən çoxluq təşkil etsin. Ancaq sənayesi geniş inkişaf etmiş, əhalisi çox olan sənaye mərkəzi şəhərlərdə sənaye müəssisələrindən atmosferə atılan və yerin vahid səthinə düşən çirkləndirici zərərli maddələrin miqdarı təbii tullantılara nəzərən çoxluq təşkil edir. Atmosferə atılan antropogen qarışıqların təsiri lokal və qlobal təsir baxımından baxılmalıdır. Lokal dedikdə verilmiş zaman ərzində verilmiş konkret sahəyə təsir, qlobal dedikdə ısə ümumi miqyasda atmosferə təsir nəzərdə tutulur. Hal-hazırki İES-lərdə yanma məhsullarını atmosferə atan tüstü boruları kifayət qədər hündür qurlaşdırılır və onu əhatə edən və təsirə məruz qalan sahənin diametri 20-50 km arasında qiymətləndirilir. Deməli, tüstü borusundan atmosferə atılan yanma məhsullarındakı antropogen qarışıqlar ilk növbədə bu sahədəki bitki və canlı aləmə, insanlara və binaların tikinti konstruksiyalarına mənfi təsir göstərir. Belə ki, SO_2-nin təsirindən yarpaqların səthi zədələnir və yarpaqlar xlorofilin dağılmasına məruz qalır. Xüsusi ilə iynəyarpaqlı bitkilər həmişəyaşıl olduqları üçün daha çox mənfi təsirə məruz qalır. Tədqiqatlar nəticəsində sübut edilmişdir ki, havada SO_2-nin miqdarı (konsentrasiyası) $0,23 \div 0,32 mq/m^3$ olduqda iynəyarpaqlı bitkilərin həm fotosintez, həm də nəfəs almanın pozulması səbəblərindən quruması (nəmliyin azalması) prosesi baş verərək ağac (şam) 2-3 il ərzində tam məhv olur.

Yanma məhsullarının tərkibində atmosfer havasını çirkləndirən zərərli maddələrdən biri də azot oksidləridir. Azot oksidləri insanlara zərərli təsir edir və bu təsirin ilkin simptonları dərinin qıcıqlanması ilə yanaşı insanların gözlərinin yaşarması hallarının baş verməsidir. Azot oksidləri mayelərdə çox pis həll olunur, insanların ağ ciyərlərinin dərininə daxil olaraq alveolların epitelini və bronxları sıradan çıxarır.

Texnoloji proseslərdən və insanların həyat fəaliyyəti ilə əlaqədar atmosferə atılan və həmçinin təbii proseslərdə yaranan və atmosferdə toplanan zərərli tullantılar sonradan müxtəlif çevrilmələrə məruz qalır[2]. Zərərli qaz şəklindəki və ya asılmış şəkildəki hissəciklərin fiziki-kimyəvi xassələrindən metroloji şəraitdən və ilk növbədə tüstü borusundan atılma hündürlüyündən və hissəciklərin ölçülərindən asılıdır. Qaz şəklində atılan zərərli maddələrin atmosferdə qalma müddəti və onların atmosferdə məruz qaldıqları çevrilmələr isə hələ tam öyrənilməmişdir. Misal üçün atmosferə atılan kükürd qazının atmosferdə qalma müddəti barədə ədəbiyyatlarda müxtəlif fikirlər mövcuddur. Belə ki, bəziləri hesab edir ki, bu qaz çevrilməyə məruz qalmadan atmosferdə bir neçə saat qalır, bəziləri isə bu müddətin sutkalarla ölçüldüyünü qeyd edirlər. Ədəbiyyatlardan məlumdur ki, atmosferə atılan SO_2 qazının bir hissəsi oksidləşməyə uğranılaraq SO_3 qazına

çevrilir. Sonra isə SO_3 havanın nəmliyi ilə birləşərək havada H_2SO_4 turşusu buxarını yaradır. Katalizator rolunu isə günəş şüası və havadakı toz hissəcikləri görür. Bununla yanaşı aydın məsələdir ki, bu prosesdə həm də havanın nəmliyinin təsiri böyükdür. Bəzi ədəbiyyatlarda göstərilir ki, havanın nəmliyi 60% təşkil edirsə, SO_3-ün 7,8%-i H_2SO_4 buxarına çevrilirsə, nəmlik 81% olduqda SO_3-ün 31%-i H_2SO_4-ə çevrilir. Atmosferin yuxarı qatlarında (yerdən 30 km yüksək hündürlüklərdə) fotokimyəvi reaksiya nəticəsində biosferdən düşən üzvi və qeyri-üzvi maddələr parçalanmaya məruz qalır və karbon qazı, su, oksigen, azot və s. şəklində yer səthinə qayıdır. NO_2-nin dissosiasiyaya uğraması reaksiyası çoxlu sayda digər ikinci reaksiyaların baş verməsinə səbəb olur və sərbəst radikallar şəklində azon yaranır. Fotokimyəvi parçalanmanın axrıncı məhsulu olaraq karbon oksidi, dioksid və həmçinin üzvi aerozol yaranır.

Atmosferə atılan tulantılar aşağıdakı tərkibdə qarışığlardan ibarətdir: karbohidrogenlər CO, NO_2 SO_2 hissəciklər,daş kömür-400, mazut yandırıldıqda tüstü qazları ilə atmosfer havasına sulfid və kükürd anhidridi, azot oksidləri, vanadium birləşmələri, natrium duzları, həmçinin qazın təmizlənən vaxtı ayrılan maddələr daxil olur. Bununla belə, maye yanacaq işlədildikdə geniş əraziləri tutan və daim atmosferi çirkləndirən kül layları (qalaqları) problemi yaranmır. Maye yanacaq növlərinin məhsullarında uçucu kül olmur. Təbii qazın yandırılması zamanı atmosferin əsas çirkləndirici azot oksidləri hesab olunur. Lakin İES-də təbii qazın yandırılmasından azot oksidi tullantıları daş kömürün yandırılmasından orta hesabla 20% azdır. Deməli, təbii qazdan istifadə olunması ekoloji baxımdan əlverişlidir.

Cədvəl.

Gücü 1000 MVt olan İES-in il ərzində atmosferə atdığı tullantılar (tonla).

	karbohidrogenlər	CO	NO_2	SO_2	Hissəciklər
Daş kömür	400	2000	27000	110000	3000
Mazut	470	700	25000	37000	1200
Təbii qaz	34	-	20000	20,4	500

Azot oksidlərinin və karbohidrogenlərin birgə oksidləşməsi nəticəsində yaranan məhsullar və sonrakı baş verən reaksiyalar nəticəsində olduqca zərərli təsirə malik peroksiasilnitratlar yaranır. Bu sinfə aid birləşmələr xüsusi ilə şəhərlərin havasında daha çox müşahidə olunur. İkinci fotokimyəvi reaksiyalar da yüksək sürətlə gedir. Belə ki, molekulyar oksigenin və azot oksidinin (NO) atmosferin oksigeni ilə təsiri nəticəsində ozon və azot dioksid və ya azot dioksid ilə ozonun təsiri nəticəsində isə nitratlar yaranır. Bu reaksiyalar səbəbindən fasiləsiz olaraq ozon yaranır və azot oksidi ilə qarşılıqlı təsir nəticəsində yenidən azot dioksidə çevrilir. Ona görə də İES-lərin yanma məhsulları atmosferdə yuxarı qalxdıqca tərkibində olan azot dioksidin miqdarı artır və 70%-ə çatır. Tüstü borusunun çıxışında isə bu 10-15% təşkil edir. Bu isə öz növbəsində yanma məhsullarının təbiətə və canlı aləmə zərərliyini daha da artırır. Belə ki, azot dioksidi təxminən 3,5 dəfə azot oksidə nəzərən zərərlidir. Yer səthinə yaxın atmosfer təbəqəsində fotokimyəvi çevrilmələrin baş verməsinin əsas səbəbi havanın üzvi maddələrlə və azot oksidləti ilə çirklənməsidir. Havanın çirklənmə dərəcəsi yüksək olduqda fotokimyəvi dumanın yaranmasının əsas səbəbi günəş radiasiyasının çox olması ilə əlaqədardır. Beləliklə, qeyd etdiklərimizdən aydın olur ki, İES-lərdən atılan yanacağın yanma məhsulları (bərk hissəcikləri, azot və kükürd oksidləri) stansiya yerləşən rayonun biosferinə kəskin mənfi təsir göstərir. Bu yanma məhsulları ilə atılan zərərli maddələr sonradan müxtəlif çevrilmələrə və birləşmələrə məruz qalaraq, zərərliyi daha da artaraq yer səthinə çökməklə yanaşı yağış yağdıqda həm torpağa hopur, həm də su hövzələrinə daxil olur.

Həm təbii, həm də antropoqen proseslərdən atmosferə atılan kükürd birləşmələrinin miqdarı təxminən eyni miqdarda qiymətləndirilir və hesab edilir ki, bu cəm miqdar ildə 100-150 mln.ton səviyyəsindədir. Atmosferə atılan və onu çirkləndirən əksər zərərli komponentlərin atmosferdə qalma müddəti məhdud olmaqla sutkalarla ölçülür. Ona görə də bu komponentlərin tozun, kükürd və azot oksidlərinin və s. atmosferə kəskin müşahidə olan dərəcədə toplanması (konsentrasiyalarının artması) baş vermir.

Son 100 il ərzində atmosferdə CO_2-nin miqdarının artımı 0,029÷0,032% təşkil etmişdir. Ancaq bu artımın insanlara və canlı aləmə təsirinin hiss edilməməsinə baxmayaraq atmosferdə CO_2-nin miqdarının artımı davam etmiş olsa, onda planetimizin iqliminə kəskin təsir edəcəkdir. Ədəbiyyatlara görə hələ ki, antropogen proseslərin atmosferdə oksigenin miqdarına təsiri müşahidə edilməmişdir və onun miqdarı dəyişməmişdir.

Alternativ enerji mənbələrindən istifadənin aktuallaşdığı və istifadə imkanlarının genişlənməsi hesabına İES-lərdən atılan tullantıların miqdarını ilbə-il azaltmaqla problemin həllinə uzun zamandan sonra nail olmaq olar. Azərbaycanda da bu gün aktual olan məsələlərdən biri yeni, bərpa olunan enerji

mənbələrinin istifadə imkanlarından yararlanmaq, işğaldan azad olunmuş ərazilərdə külək, günəş elektrik stansiyalarının tikintisinin sürətləndirilməsinə nail olmaqdır.

Ədəbiyyat

1. Kəlbəliyev F.İ., Məmmədova C.P., Nəsirov Ş.N. Buxar və qaz turbinli istilik elektrik stansiyaları. Bakı; ADNA-nın nəşri. 2005, 240 s.

2. İsmayılov M.B., İstilik elektrik stansiyalarında qaz və mazut yanacaqların istifadəsi zamanı ekologiyanın çirklənməsi // MDU, "Dayanıqlı inkişaf jurnalı", 2021, №-1, s-88

РЕЗЮМЕ
ЭКОЛОГИЧЕСКИЙ УЩЕРБ ТЕПЛОВЫХ ЭЛЕКТРОСТАНЦИЙ
Исмайылов М. Б.

Ключевые слова: *топливо, сера, воздух, энергия, твердое топливо*

В энергетическом секторе основным источником энергии являются тепловые электростанции. На долю этих станций приходится 65 процентов производства электроэнергии в мире и 85 процентов в Азербайджане. Но отходы топлива, сжигаемые на тепловых электростанциях, составляют большой процент загрязнения экологии. Внедрение новых технологий и полезная работа очистных сооружений послужат частичному устранению этой проблемы. Расширение использования альтернативных источников энергии также окажет положительное влияние на экологию.

SUMMARY
ENVIRONMENTAL DAMAGE OF THERMAL POWER PLANTS
Ismailov M. B.

Key words *: fuel, sulfur, air, energy, solid fuel*

In the energy sector, the main source of energy is thermal power plants. These stations account for 65 percent of the world's electricity production and 85 percent in Azerbaijan. But fuel waste burned at thermal power plants accounts for a large percentage of environmental pollution. The introduction of new technologies and the useful work of treatment facilities will serve to partially eliminate this problem. The expansion of the use of alternative energy sources will also have a positive impact on the environment.

DƏYİŞƏN İSTEHSAL GÜCLÜ PAYLANMIŞ GENERASİYA SİSTEMLƏRİNDƏ QEYRİ-SİMMETRİK REJİMLƏRDƏN İNTELLEKTUAL MÜHAFİZƏNİN MODELLƏŞDİRİLMƏSİ

Quliyev H.B., İbrahimov F.Ş.
Azərbaycan Texniki Universiteti, Bakı , Azərbaycan
huseyngulu@mail.ru, amfanet@mail.ru

Açar sözlər*: enerjisistem, elektrik şəbəkəsi, kompleks yük, intellektual mühafizə, qeyri-simmetrik rejim, natamam faza rejimi, qeyri-səlis kontroller.*

İşdə enerjisistemin kompleks yüklü elektrik şəbəkələrində qeyri-simmetrik rejimlərin aşkar olunması və bu rejimlərdən effektiv mühafizənin təmin edən qeyri-səlis kontroller əsasında intellektual mühafizə sisteminin yaradılmasına baxılır. Qeyri-səlis kontrollerdən, düz və əks ardıcıllıqlı cərəyanlar süzgəclərindən, analoq - rəqəm çeviricisindən, kommutatordan, əks və düz ardıcıllıqlı cərəyanların nisbəti hesabat blokundan, giriş açarının açılmasını və seksiyalararası açarın qoşulmasını yerinə yetirən icraedici orqandan ibarət olan qeyri-simmetrik rejimlərdən intellektual sistem giriş açarının açılmasını və seksiyalararası açarın qoşulmasını yerinə yetirir.

Giriş. Qısaqapalı rotorlu asinxron mühərriklər üstünlük təşkil edən sənaye və kənd təsərrüfatı elektrik təchizat sistemilərinin düyünlərində tətbiq edilən mühərriklərin stator dolaqlarına tətbiq olunan üçfazalı gərginlik bəzi hallarda qeyri-simmetrik olur. Bu rejimlər çoxsaylı birfazalı yüklərin elektrik şəbəkəsinin fazaları arasında qeyri-bərabər paylanmaları və ya qəza rejimləri şəraitlərində zamanı yaranır. Bərpaolunan enerji mənbələrinin, xüsusilə külək aqreqatlarının enerjisistemə inteqrasiyası elektrik şəbəkə düyünlərində mühafizə sisteminin qərar qəbulu orqanlarının səhv işləmələrinə şərait yaradır. Belə ki, bərpaolunan mənbələrin enerji hasilatı qeyri-müəyyən olaraq dəyişdiyindən və kəsilən xarakterli olduğundan rejim parametrlərinin də bu səbəblərdən qeyri-müəyyən dəyişmələri mühafizə parametrlərinin birqiymətli sazlanmalarında əhəmiyyətli şətinlklərin yaranmasına gətirib çıxarır. Bir fazanın qırılması halında aparılmış asinxron yüklü kompleks düyünün işinin analizinin nəticələri [1], onu deməyə əas verir ki, ilkin verilənlərin qeyri-müəyyənliyi şəraitlərində qeyri-simmetriklik dərəcəsindən asılı olaraq mövcud mühafizələrin selektiv

işləməməsi, atomatika qurğularının isə səhv işləməsi halları mümkündür. Odur ki, cərəyanın qeyri-simmetrikliyi şəraitlərdə mühafizənin etibarlılığının artırılması üçün müvafiq tədbirlərin işlənməsi zərurəti yaranır.

İntellektual şəbəkələrin yaradılma prinsiplərinə əsasən rele mühafizəsi qurğusu informasiya-ölçü sisteminin funksiyaları ilə uzlaşdırılmalıdır. Texniki sistem kimi mikroprosessorlu pele mühafizəsinin tətbiqi nəzərdə tutulur. Bu mikroprosessorlu qurğulara digər mühafizələr kimi eyni tələblər qoyulur. Cərəyan mühafizələrinə baxdıqda bu tələblərin ödənilməsi üçün müvafiq işləmə cərəyanını və dözmə müddətini seçməklə buna nail olunur. Zaman-cərəyan funksiyası parametrlərinin daha çevik sazlanma modelinin yaradılması məqsədilə qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyəsinin tətbiqi mühafizənin əsas perspektiv inkişaf istiqamətlərindən biri olaraq qəbul edilir.

Təqdim olunan elmi-tədqiqat işində də qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq bazasında işləyən mühafizənin nəzəri-praktik məsələlərinin işlənməsinə baxılır. Belə ki, artıq bu gün texniki ədəbiyyatlarda adaptiv rele mühafizəsi, qabaqlayıcı funksiyalı mühafizələr, çoxölçülü rele mühafizəsi, süni intellektli mühafizələr, neyron şəbəkələrinə əsaslanan mühafizələr və s. məsələlərə geniş yer verilir. Hələlik ideya mərhələsində olan bu mühafizə qurğularının əsasını isə qeyri-səlis məntiq nəzəriyyəsi təşkil edir.

Paylanmış generasiyalı sistemin xarakterik düyünləri üzrə qeyri-simmetrk rejimlərdən mühafizənin təhlili. Mövcud mühafizə qurğusu düz və əks ardıcıllıqlı süzgəclərdən, analoq-rəqəm çeviricisindən, kommutatordan, əks və düz ardıcıllıqlı cərəyanların nisbətinin hesabat blokundan, qeyri-səlis kontrollerdən və icra orqanından ibarət olan sistemlə təchiz olunmuşdur. Qeyri-səlis kontroller ardıcıl birləşmiş fazzifikatordan, linqvistik qaydalar cədvəli blokundan və defazzifikatordan ibarətdir. Çeviricinin girişi vericilərlə, qeyri-səlis kontrollerin çıxışı isə icra orqanının girişi ilə birləşdirilmişdir [2].

Burada istifadə olunan əks ardıcıllıqlı rəqəmli cərəyan süzgəcləri kifayət qədər sadə və etibarlıdır. Lakin yalnız əks ardıcıllıqlı cərəyanın qiymətinə görə işləyən mühafizə bu cərəyanların az informativliyi səbəbindən effektiv olmur. Yükün qidalanma dövrəsindəki əks və düz ardıcıllıqlı cərəyanların nisbətinə görə işləyən natamam faza rejimlərindən mühafizə böyük həssaslığa malikdir. $K_{2I} = \frac{I_2}{I_1} = 0{,}6$ olması (fazalardan birində yükün 3 dəfə artması) elektrik şəbəkəsində qəza şəraitinin yaranmasına səbəb ola bilər, burada K_{2I} – əks ardıcıllıqlı cərəyana görə qeyri-simmetriklik əmsalıdır. Natamam faza rejimində bu nisbət $K_{2I} = \frac{I_2}{I_1} = 1$ olur, normal rejimlərdə isə $K_{2I} << 1$ olur. Ona görə də əks və düz ardıcıllıqlı cərəyanların nisbətinə görə işləyən natamam faza rejimlərindən mühafizənin işəburaxma orqanı daha üstündür.

Qeyri-simmetrikliyin 0-1,0 diapazonunda dəyişməsi halında alınan nəticələr təsdiq etmişdir ki, qeyd olunan zədələnmələrdən mühafizənin intellektuallığının və avadanlıqların mühafizəsinin daha etibarlı işləməsinin təmin olunması mümkündür. Bununla belə, bir giriş və bir çıxışlı mövcud sistemdə qeyri-simmetrikliyin yalnız mütləq qiymətinə əsasən QSK qərar qəbulunu həyata keçirir. Qeyri-simmetrikliyin dəyişmə sürətinin (törəməsinin) nəzərə alınmaması mühafizə qurğusunun tam intellektual işləməsini təmin edə bilmir. Nəticədə cərəyan qeyri-simmetrikliyinin müxtəlif dərəcələrində dövrədəyişmələr üçün əsassız müsbət qərarların qəbuluna imkan yaranır.

Qeyri-simmetrik rejimlərdən intellektual mühafizənin modelləşdirilməsi və onun nəticələri. Kompleks yük düyünlərində yarana biləcək qeyri-simmetrik rejimlərdən mühafizənin Matlab proqram paketinin Fuzzy Logic Toolboks modulunun köməyi ilə modelləşdirilərək sintezi məsələsinə baxılır [3,4].

İntellektual mühafizənin layihələndirilməsi və sintezi üçün termlərin dəyişmə intervalları və formaları nəzərdə tutulduğu şəkillərdə imitasiya modelində təsvir edilmisdir.

Şəkil 1-də imitasiya modeli əsasında sintez olunmuş qeyri-səlis kontrollerin struktur sxemi verilmişdir. Göründüyü kimi, iki girişli və iki çıxışlı kontrollerin işinin təşkili üçün Mamdani alqoritmi üzrə on beş qaydadan ibarət çıxarış mexanizmi verilmişdir.

Mühafizənin idarə olunması üçün iki girişli və iki çıxışlı qeyri-səlis kontrollerin sintezini aşağıdakı sadə linqvistik qeyri-səlis modeldən istifadə etməklə yerinə yetirmək olar:

ƏGƏR $X_1 \quad A_{1i}$ – dirsə və $X_2 \quad A_{2i}$ ONDA $Y \quad B_j$ və $Z \quad C_k$ – dir. (1)

$i = \overline{1, n}, \quad j = \overline{1, m}, \quad k = \overline{1, l}$

Burada X_1 və X_2 – uyğun olaraq vəziyyət dəyişənləri, Z prosesin idarəolunma parametri olub, linqvistik dəyişənlərdir; A_1, A_2, B və C – E_1, E_2 və E_3, E_4 universal çoxluqlarında X_1, X_2, Y və Z dəyişənlərinin termlərindən ibarət linqvistik qiymətləridir, başqa sözlə, $\forall x \;\; A \in E_1$, $\forall y \;\; B \in E_2$ və $\forall z \;\; C \in E_3$.



Şəkil 1. Qeyri-səlis kontrollerin struktur sxemi

Bu halda qeyri-səlis münasibətin mənsubiyyət funksiyası aşağıdakı kimi təyin olunur:

$$\mu_R\left(K_I, \frac{dK_I}{dt}, L, I\right) = \max\left\{\begin{array}{l} \min\left[\mu_{E_{11}}(K_I), \mu_{E_{21}}\left(\frac{dK_I}{dt}\right), \mu_{E_{31}}(L), \mu_{41}(I)\right], \min\left[\mu_{E_{12}}(K_I), \mu_{E_{22}}\left(\frac{dK_I}{dt}\right), \mu_{E_{32}}(L), \mu_{42}(I)\right] \\ ,\ldots, \min\left[\mu_{E_{15}}(K_I), \mu_{E_{23}}\left(\frac{dK_I}{dt}\right), \mu_{E_{35}}(L), \mu_{42}(I)\right] \end{array}\right\} \tag{2}$$

Burada $\mu_{1i}(K_I)$, $\mu_{2j}\left(\frac{dK_I}{dt}\right)$, $\mu_{3l}(L)$, $\mu_{4k}(I)$ – uyğun olaraq E_{1i}, E_{2j} , E_{3l} və E_{4k} universal çoxluqlarında təyin olunmuş $K_I, \frac{dK_I}{dt}, L,$ və I linqvistik dəyişənlərinin term-altçoxluqlarının mənsubiyyət funksiyalarıdır.

Yuxarıda təsvir olunmuş alqoritm əsasında qeyri-simmetrik rejimlərdən qeyri-səlis məntiq nəzəriyyəsi əsasında işlənmiş intellektual mühafizənin kompüter modelləşdirilməsinin hesabatları aparılmışdır. Hesabatların aparılması məqsədilə intellektual mühafizə sisteminin Simuling modeli qurulmuş və şəkil 2.4-də verilmişdir. Model qeyri-səlis kontrollerdən (rm), icra orqanından (subsystem) və qeydedici ölçü cihazlarınan ibarətdir.

Giriş qeyri-səlis parametri olaraq $\frac{I_2}{I_1}$ nisbətini ifadə edən K_I qeyri-simmetriklik dəyişəninin qiymətləri çoxluğunu almaq məqsədilə Monte Karlo üsulu ilə qeyri-simmetrik rejimlər ehtimal modelləşdirilmişdir.

Qeyri-simmetrikliyin müxtəlif qiymətləri üçün mühafizə sisteminin işləmə diaqramı şəkil 2-də təsvir edilmişdir.



Şəkil 2. Qeyri-simmetriklik və idarəetmə dəyişənlərinin zaman üzrə qiymətləri

Şəkil 2-də qeyri-simmetrikliyin dəyişmə dinamikası nəzərə alındıqda mühafizənin işləmə traktları və buna uyğun dözmə müddətləri göstərilmişdir Göründüyü kimi, qeyri-simmetrikliyin 0,2 qiymətinə qədər kontroller dövrənin açılması məqsədilə hər hansı qərar qəbul etmir. Lakin qeyri-simmetriklik 0,2-ni aşan qiymətlərində 2 san dözmə müddəti ilə dövrənin açılması üçün idarəedici siqnal hasil edir.

Digər bir hal üçün intellektual mühafizə sisteminin qeyri-simmetrikliyin dəyişmə sürətini nəzərə almaqla işləmə diaqramı verilmişdir. Göründüyü kimi, qeyri-simmetrikliyin mütəlif qiymətləri və bu qiymətlərin dəyişmə sürətindən asılı olaraq qeyri-səlis kontroller adekvat qərarlar qəbul edir.

Nəticə.

Paylanmış generasiyalı sistemin kompleks yük düyünlərində yaranan qeyri-simmetrik rejimlərindən mövcud mühafizənin analizi əsasında müəyyən edilmişdir ki, onun intellektuallığının təmin olunması üçün giriş parametri olan əks ardıcıllıqlı cərəyana görə qeyri-simmetrikliyin dəyişmə sürətinin QSK-nın giriş kəmiyyəti kimi daxil edilməsi vacibdir. İki giriş və iki çıxışlı QSK bazasında mühafizənin yeni struktur sxemi tərtib edilmiş, qəbul edilmiş linqvistik dəyişənlərinin termləri, mənsubiyyət funksiyaları və parametrləri təyin olunmuşdur. Müxtəlif xarakterli qeyri-simmetriklik diapazonunda hesabi təcrübələrin nəticələrinə əsasən qeyd etmək olar ki, baxılan zədələnmələrdən mühafizənin intellektual işləməsini və avadanlıqların mühafizəsinin etibarlılığının daha da yüksəldilməsini təmin etmək mümkündür.

Ədəbiyyat

1. Quliyev H.B., İbrahimov F.Ş. Elektrik şəbəkələrinin yük düyünlərində qeyri-simmetrik rejimlərdən mühafizənin intellektuallaşdırılması // Energetikanın problemləri, 2021, №2, s.3-12.
2. Guliyev H.B., Tomin N.V., Ibrahimov F.Sh. Method of intelligent protection from asymmetrical conditions in electric networks // Energy-21: Sustainable Development & Smart Management, International Conference September 7-11, 2020, Irkutsk, Russia, pp.1-5
3. Алиев Р.А., Арабский А.К., Арно О.Б., Гункин С.И., Талыбов Э.Г. ИУС газопромысловых объектов. Современное состояние и перспективы развития. - М.: Недра, 2014. - 462 с.
4. Штовба С.Д. Проектирование нечетких систем средствами Matlab. - М.: Горячая линия-Телеком, 2007. - 288 с.

РЕЗЮМЕ

МОДЕЛИРОВАНИЕ ИНТЕЛЛЕКТУАЛЬНОЙ ЗАЩИТЫ ОТ НЕСИММЕТРИЧНЫХ РЕЖИМОВ В СИСТЕМАХ РАСПРЕДЕЛЕННОЙ ГЕНЕРАЦИИ С ПЕРЕМЕННОЙ ВЫРАБОТКОЙ МОЩНОСТИ

Гулиев Г.Б., Ибрагимов Ф.Ш.

***Ключевые слова**: энергосистема, электрическая сеть, комплексная нагрузка, интеллектуальная защита, несимметричный режим, неполнофазный режим, нечеткий регулятор*.

В работе рассмотрено создание интеллектуальной системы защиты на основе нечетких регуляторов, обеспечивающей обнаружение и эффективную защиту от несимметричных режимов, в частности от режимов с обрывом фазы в электрической сети энергосистемы с комплексной нагрузкой. Интеллектуальная система, включающая в себя фильтр тока прямой и обратной последовательности, аналого-цифровой преобразователь, переключатель, блок вычисления отношения токов обратной и прямой последовательности, исполнительный орган, отключающий вводной ключ и включающий секционный переключатель, обеспечивают эффективную защиту от несимметричных режимов.

SUMMARY

VARIABLE PRODUCTION IN POWER DISTRIBUTED GENERATION SYSTEMS MODELING OF INTELLECTUAL PROTECTION FROM NON-SYMMETRICAL REGIMES

Guliyev H.B., İbtahimov F.Sh.

***Keywords**: power system, electrical network, complex load, intelligent protection, asymmetric mode, open-phase mode, fuzzy controller*.

The paper considers the creation of an intelligent protection system based on fuzzy controllers, which provides detection and effective protection against asymmetric modes, in particular, from open-phase modes in the electrical network of a power system with a complex load. An intelligent system that includes a positive and negative sequence current filter, an analog-to-digital converter, a switch, a calculation unit for the ratio of negative and positive sequence currents, an executive body that turns off the input switch and turns on the sectional switch.

МЕТОДЫ ПОВЫШЕНИЯ НАДЕЖНОСТИ И КАЧЕСТВА СЕРВИСНОГО ОБСЛУЖИВАНИЯ ЭЛЕКТРОЭНЕРГЕТИКИ

Филипушкова Ю.В., Паранина А.А., Валеева Ю.С.

Казанский государственный энергетический университет, Казань, Российская Федерация

filipushkova.yulya@mail.ru,annaparanina@gmail.com,valis2000@mail.ru

***Ключевые слова**: сервис, качество, надёжность, электроэнергетика, сервисное обслуживание, модель сервисного обслуживания*.

Развитие электроэнергетики способствует специализации и обособлению рынков высокопрофессиональных услуг. Хотя в области организации обслуживания в электросетевом комплексе проведено много исследований, многие аспекты в этой области изучены недостаточно. В данной статье рассматриваются различные методы повышения надежности качества обслуживания в

электроэнергетике. Приведены положительные стороны применения службы качества на производстве. Даны рекомендации по совершенствованию механизма сервисного обслуживания и расширению функционального направления сервисной деятельности в электроэнергетике.

Одна из основных задач развития электроэнергетической отрасли является её надежное функционирование. Для достижения заданной цели необходимо, чтобы надежность была как в обособленных оборудованиях, так и в системе в целом. Именно данный подход помогает максимально снизить риски функционирования энергосистемы, а также повысить прибыль, за счет сохранения нагрузки и оптимального использования электрооборудования [3]. Мы считаем, что переход на качественное сервисное обслуживание, является наилучшим решением т.к. услуги оказываются узконаправленными специализированными фирмами с высококвалифицированным персоналам, которые при небольших вложениях способны за короткое время дать высокий результат, а также автоматически снизить риски.

О.Е. Васильева предлагает систему оценки качества сервиса. В ней выделяется четыре критерия: доступность, коммуникативность, стабильность и четкость обслуживания, экономичность.

К категории «доступность» относится территориальная доступность сервиса, для максимально быстрого получения услуги в случае аварии.

«Коммуникативность» рассматривается как возможность получения компетентной поддержки и наличия call-центров.

«Стабильность» проявляется в длительности срока гарантийного обслуживания, периодичности планового обслуживания.

«Экономичность»- стоимость часа технического обслуживания [1].

Хакимов Д. и Тургунов Б. утверждают, что качество зависит от обширного количества факторов, таких как экономическое, техническое и социально-психологического характера.

Залог успешной фирмы заключается в качественных продуктах и услугах, которые достигаются за счет грамотного использования методов и инструментов. Их можно разбить на 3 основных группы.

1. Методы обеспечения качества.
2. Методы повышения качества.
3. Методы мониторинга результатов работы по качеству [5].

Гвоздев Д. предлагает для улучшения надежности применять “Паспорта надежности”, которые являются нормативно-техническими документами. В них содержатся параметры, критерии показателей, сроки, а также ответственные лица. Данный документ подтверждает, что данная услуга выполнена с учетом всех стандартов, и дает гарантию на надежную работу объекта в течение календарного года [2].

Савина Н.В. и Кудряшов А.Н. нашли подход к улучшению качества с помощью системы управления.Система управления является отдельной отраслью контроля, которая включает в себя : ориентированность качества, обеспечение качества, вопросы улучшения, обновление технологий и заинтересованность всех задействованных в создании услуг [4].

Заключение. Использование предложенных моделей сервисного обслуживания в разы повышает качество работ по обслуживанию, оптимизирует затраты и дает гарантийные обязательства, что помогает снизить риски.

Литература

1. Васильева, О.Е. Управление качеством сервисного обслуживания промышленной продукции / О. Е. Васильева // Экономика и управление. – 2010. – № 7(57). – С. 64-68. – EDN MTZRLZ.

2. Гвоздев, Д.Обеспечение надежности электросетевого комплекса ПАО "Россети" / Д.Гвоздев // Электроэнергия. Передача и распределение. – 2017. – № S2(5). – С.2-5. – EDN ZCBWSD.

3. Жилкина, Ю. В. Надежность и сервисное обслуживание в электроэнергетике / Ю. В. Жилкина, Д. А. Воденников //Методические вопросы исследования надежности больших систем энергетики :Материалы 90-е заседания Международного научного семинара им. Ю.Н. Руденко. В 2-х книгах, Иркутск, 01–07 июля 2018 года / Ответственный редактор Н.И.Воропай. – Иркутск: Федеральное государственное бюджетное учреждение наукиИнститут систем энергетики им. Л.А. Мелентьева Сибирского отделения Российской академии наук, 2018. – С. 322-329. – EDN HJOEGP.

4. Савина Н. В., Кудряшов А. Н. Управление качеством в электроэнергетике. Процессный подход //Благовещенск: Изд-во АмГУ. – 2013.

5. Principles of assessment and management of quality systems in industrial enterprises / D. V. U. Khakimov, B. M. Turgunov, N. Sh. Muminov [et al.] // Точная наука. – 2019. – No 44. – P. 5-14. – EDN

XÜLASƏ
ELEKTRİK ENERJİSİ SƏNAYƏSİNDƏ XİDMƏTİN ETİBARLILIĞININ VƏ KEYFİYYƏTİNİN ARTIRILMASI ÜSULLARI
Filipushkova Yu.V., Paranina A.A., Valeeva Yu.S.

***Açar sözlər**: xidmət, keyfiyyət, etibarlılıq, elektrik enerjisi sənayesi, xidmətə texniki xidmət, xidmətə qulluq modeli.*

Elektrik enerjisi sənayesinin inkişafı yüksək peşəkar xidmət bazarlarının ixtisaslaşmasına və təcrid olunmasına kömək edir. Elektrik şəbəkəsi kompleksində xidmətin təşkili sahəsində xeyli tədqiqat aparılmasına baxmayaraq, bu sahədə bir çox aspektlər kifayət qədər öyrənilməmişdir. Bu məqalədə elektrik enerjisi sənayesində xidmət keyfiyyətinin etibarlılığını artırmaq üçün müxtəlif üsullar müzakirə olunur. Keyfiyyətli xidmətin istehsalata tətbiqinin müsbət tərəfləri verilmişdir. Elektrik enerjisi sənayesində xidmətə texniki xidmət mexanizminin təkmilləşdirilməsi və xidmət fəaliyyətinin funksional sahəsinin genişləndirilməsi üçün tövsiyələr verilir.

SUMMARY
METHODS FOR INCREASING THE RELIABILITY AND QUALITY OF SERVICE MAINTENANCE IN THE ELECTRIC POWER INDUSTRY
Filipushkova Yu.V., Paranina A.A., Valeeva Yu.S.

***Key words**: service, quality, reliability, electric power industry, service maintenance, service maintenance model.*

The development of the electric power industry contributes to the specialization and isolation of highly professional service markets. Despite a considerable amount of research in the field of service organization in the power grid complex, many aspects in this area remain insufficiently studied. This article discusses a variety of methods to improve the reliability of the quality of service maintenance of the electric power industry. The positive aspects of the introduction of quality service in production are given. Recommendations are given for improving the service maintenance mechanism and expanding the functional area of service activities in the electric power industry.

ENERGETİKANIN ÜMUMİ MƏSƏLƏLƏRİ
ОБЩИЕ ВОПРОСЫ ЭНЕРГЕТИКИ
GENERAL ENERGY ISSUES

СОВРЕМЕННОЕ НОРМАТИВНО-ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ СИСТЕМ ТЕПЛОСНАБЖЕНИЯ В РОССИИ

Баглаева Э.А., Тимургалиева К.Э. , Фецюх Я.А., Валеева Ю.С.
Казанский государственный энергетический университет, Казань, Российская Федерация
pochta@mail.ru

***Ключевые слова**: топливно-энергетический комплекс, системы теплоснабжения, нормативная документация, законодательная база, правовое регулирование.*

Целью данного исследования является представление актуальной информации о текущем состоянии и современной содержательной базе нормативно-правового регулирования отечественных систем теплового снабжения. МЕТОДЫ. Методологию исследования составляют такие теоретические принципы как объективность и системность. В первую очередь использованы такие общенаучные методы как анализ, синтез, обобщение, индукция, дедукция, изучение документов, методы сравнения и сопоставления. Исследование показало, что сегодня в области нормативной базы сферы отечественной теплоэнергетики присутствует сформированная ее организационная структура, определены полномочия ее субъектов, установлены правила договорных отношений между участниками процесса теплового снабжения и урегулировано множество смежных правовых вопросов.

Введение. Общеизвестно, что начавшийся в стране в 2000-х годах экономический рост критически важных отечественных хозяйствующих субъектов привел к процессам повышения показателей спроса на энергоресурсы. Такая тенденция обусловила старт поиска путей решения многочисленных проблем, присутствующих в отрасли ТЭК, включая регулирование правовых и технических норм в сфере систем теплового снабжения в России. В начале первого десятилетия двадцать первого века в энергетической отрасли страны многие документы обозначенного характера регулировались, как правило, ведомственными актами, а их соблюдение носило рекомендательный характер. Последующая энергетическая реформа в РФ повлекла за собой совершенствование нормативной базы сферы теплоэнергетики, в результате которого начался ряд процессов по формированию ее качественной организационной структуры, определению полномочий ее субъектов, установлению договорных отношений, созданию конкурентной среды и урегулированию соответствующих технических и, самое главное, правовых вопросов [1].

На данный момент в современной отечественной научной литературе отсутствует какая-либо информация, посвященная проблеме нормативно-правового регулирования и обеспечения систем теплоснабжения страны. Последние комплексные аналитические работы, в которых исследуется обозначенная проблема, были опубликованы кандидатом наук Фаустовым Сергеем Александровичем и вице-президентом НП «Российское теплоснабжение» Юрием Васильевичем Яровым в 2003 и 2007 году соответственно [1, 2]. Данная причина обусловила актуальность написания настоящей работы, основанной на анализе большого количества нормативно-законодательных документов различного типа и назначения.

Материалы и методы. Методологию исследования составляют такие теоретические принципы как объективность и системность. Методы исследования были обусловлены необходимостью решения поставленной задачи, следовательно, требовали междисциплинарного подхода. В первую очередь, это общенаучные методы – анализ, синтез, обобщение, индукция, дедукция, а также специальные – контент-анализ, методы изучения документов, методы сравнения и сопоставления. Материалы исследования приведены в списке источников литературы и

представляют собой множество нормативно-правовых и нормативно-технических документов, таких как Федеральные законы, Постановления Правительства, Приказы и др.

Результаты. В контексте рассмотрения проблемы нормативно-правового регулирования систем теплового снабжения нельзя не отметить, что ключевым, доминирующим и определяющим законом в нашей стране является Федеральный закон от 27.07.2010 № 190-ФЗ «О теплоснабжении» [3]. В данном ФЗ присутствует важнейшая информация о концептуальных вопросах распределения мест, полномочий и ролей в отрасли отечественного теплоснабжения между госорганами власти и их подведомственными учреждениями. Кроме этого, в законе представлены данные об особенностях и условиях регулирования тарифной политики, а также о правилах взаимоотношений, сотрудничества между организациями систем теплоснабжения и соответствующими потребителями теплоэнергии, включая ее учет. Структурное содержание ФЗ «О теплоснабжении» представлено на рисунке 1.



Рис. 1. Структурное содержание ФЗ «О теплоснабжении»

Как видно из рисунка 1, рассматриваемый Федеральный закон, в отличие от большого количества иных документов по нормативному регулированию систем теплоснабжения, содержит всего семь глав, однако, несмотря на это, обозначенный ФЗ характеризуется наличием широкого списка изменяющих его документов (см. рисунок 2), последним из которых является его редакция от 01.05.2022 № 127-ФЗ.

Рис. 2. Редакции законов к ФЗ «О теплоснабжении» [3]

Если останавливаться на инвестиционных вопросах сферы теплового снабжения, то в рамках настоящего исследования стоит отметить Федеральный закон «Об основах регулирования тарифов организаций коммунального комплекса» от 30.12.2004 № 210-ФЗ (последняя редакция: от 26.07.2017 № 205-ФЗ) [4], который определяет не только источники и потоки соответствующих денежных средств, но и непосредственно актуальные текущие и необходимые в будущем размеры финансирования.

Главным же нормативным документом, определяющим правила регулирования двухсторонних отношений (исполнитель и потребитель) в сфере коммунальных услуг является Постановление Правительства РФ от 06.05.2011 № 354 «О предоставлении коммунальных услуг собственникам и пользователям помещений в многоквартирных домах и жилых домов» (последняя редакция: от 23.09.2022) [5]. Здесь следует отметить, что существенную роль при реализации обеспечения и регулирования правовых мероприятий, связанных с системами теплоснабжения в рамках оказания и предоставления услуг коммунального типа в жилых объектах, играет «Жилищный кодекс Российской Федерации» от 29.12.2004 № 188-ФЗ (последняя редакция: от 14.07.2022 № 310-ФЗ) [6, 7]. В нем описан не только весь комплекс актуального жилищного законодательства вместе с правилами обеспечения условий проживания в домах граждан страны, но и указаны соответствующие полномочия органов государственной власти.

В отечественной энергетической отрасли, включая сферу систем теплоснабжения, любое нормативно-правовое обеспечение тесно связано с вопросами нормативно-технического регулирования, где важнейшее место по сей день занимает Федеральный закон «О техническом регулировании» от 27.12.2002 № 184-ФЗ (последняя редакция: от 02.07.2021 № 351-ФЗ) [8]. Данный закон играет весьма значимую роль среди прочих нормативных документов упомянутой сферы, поскольку он переводит многие из последних в разряд рекомендательных, оставляя в качестве ключевых и обязательных лишь те, что определяют нормы и правила безопасности жизни людей, защиты их имущества и имущества, принадлежащего государству, охраны природы, включая защиту животных и растений, а также документы, в которых обозначен порядок предупреждающих мер от действий, способных ввести потребителей теплоэнергии в заблуждение. В настоящее время важной функцией нормативно-технического регулирования теплоэнергетических систем можно назвать должную реализацию таких документов как ГОСТы, технические регламенты, СТО, своды правил, национальные стандарты СНиПы и СанПиНы. По мнению специалистов, именно от качества разработки последних в большой степени зависит надежное нормативно-правовое обеспечение отрасли теплоснабжения [2]. Эта разработка требует сегодня государственного вмешательства в виде поддержки, а также проверки законодательных инициатив [9].

В настоящее время функционирование и работа систем теплоснабжения регламентируется многими нормативно-техническими документами, ключевые из которых представлены на рисунке 3.

МДК 4-05.2004. Методика определения потребности в топливе, электрической энергии и воде при производстве и подаче тепловой энергии и теплоносителей в системах коммунального теплоснабжения.
Приказ Минэнерго России и Минрегиона России от 29.12.2012 № 565/667 «Об утверждении методических рекомендаций по разработке схем теплоснабжения».
Приказ Минэкономразвития от 19.12.2009 № 416 «Об установлении перечня видов и состава сведений публичных кадастровых карт».
Приказ Минэнерго России от 30.12.2008 № 325 «Об утверждении порядка определения нормативов технологических потерь при передаче тепловой энергии, теплоносителя».
Методика определения количеств тепловой энергии и теплоносителя в водяных системах коммунального теплоснабжения, утв. приказом Госстроя России от 06.05.2000 № 105.
ГОСТ Р 51617-2000 Жилищно-коммунальные услуги. Общие технические условия.
СанПиН 2.1.4.2496-09 «Гигиенические требования к обеспечению безопасности систем горячего водоснабжения».
СП 124.13330.2012 «СНиП 41-02-2003 Тепловые сети».
СП 50.13330.2012 «СНиП 23-02-2003 Тепловая защита зданий».
Строительные нормы и правила СНиП 31-01-2003 «Здания жилые многоквартирные».
СП 131.13330.2012 «СНиП 23-01-99* Строительная климатология».
СП 61.13330.2012 «СНиП 41-03-2003 Тепловая изоляция оборудования и трубопроводов».
СП 89.13330.2012 «СНиП II-35-76 Котельные установки».
Свод правил СП 41-108-2004 «Поквартирное теплоснабжение жилых зданий с теплогенераторами на газовом топливе».
Свод правил СП 41-101-95 «Проектирование тепловых пунктов».

Рис. 3. Нормативно-технические документы в сфере регулирования систем теплоснабжения

В ряде деталей упомянутого ФЗ «О техническом регулировании» присутствуют аспекты, отсылающие читателя к Федеральному закону от 23.11.2009 № 261-ФЗ «Об энергосбережении и о повышении энергетической эффективности, и о внесении изменений в отдельные законодательные

акты Российской Федерации» (последняя редакция: от 11.06.2021 № 170-ФЗ) [10]. Такое положение дел справедливо и для теплоэнергетической отрасли, в которой вопросы повышения показателей энергоэффективности, наряду с вопросами цифровизации энергообъектов, считаются передовыми при разработке, планировании и реализации энергетических стратегий и соответствующей нормативно-правовой политики.

Нельзя не отметить, что сегодня существенное влияние на работу отрасли тепловой энергетики оказывают имеющиеся критерии к составу, качеству и безопасности воды, направляемой потребителям с помощью систем холодного и горячего водоснабжения. Данные требования устанавливаются законодательством РФ, которое, например, издало соответствующий Федеральный закон «О водоснабжении и водоотведении» от 07.12.2011 № 416-ФЗ (последняя редакция: от 01.05.2022 № 127-ФЗ) [11]. В данном ФЗ прописано целых семнадцать статей, связанных исключительно с порядком реализации процессов водоснабжения и водоотведения, многие из которых затрагивают вопросы правильной эксплуатации теплоэнергетических объектов, а также проблемы правового характера, такие как правила исполнения обязательств и различные договорные отношения.

